
MİR CƏFƏR
KƏRBALA

**Mir Cəfər**

# KƏRBALA

***(Roman)***

BAKI «NURLAN»- 2001

Redaktorlar: **Teymur Kərimli**
**Qərib Qarannı**

Mir Cəfər. Kərbəla. Bakı. «Nurlan», 2001. - 164 səh.

Müəllifin sayca beşinci kitabı olan bu roman İslam tarixində məşhur olan və unudulmayan Kərbəla hadisəsindən bəhs edir. Həmin faciəyə bu günümüzdən bir baxış olan bu əsər müasir ədəbiyyatımızda dini-tarixi roman janrının ilk nümunəsi kimi səciyyələndirilə bilər.

C $\frac{04030000-71}{H-098-2001}$ Qrifli nəşr

© «Nurlan» nəşriyatı: 2001

***Nəsil şəcərələri İmam Museyi-Kazımdan (ə) başlayan babam Mir Əkbər ağanın əziz xatirəsinə və atam Seyid Əyyub ağaya böyük ehtiramla.***

***Əsər İran İslam Respublikasının Azərbaycandakı Mədəniyyət mərkəzinin və «İrşad» İslam Araşdırmaları mərkəzinin rəyi ilə çap olunur.***

# ÖN SÖZ ƏVƏZİ

*İslam tarixində öz faciəviliyi ilə yaddaşlara həkk olunmuş hadisələrdən biri də 680-cı ilin oktyabr ayının 10-da (hicr tarixi ilə 61-cı ilin məhərrəm ayının 10-da) Kərbəla düzündə şiələrin üçüncü İmamı Hüseyn ibn Əli Əleyhissalamın övladları, qohumları məsləkdaşları ilə birlikdə qəddarçasına qətlə yetirilməsidir.*

*Müqəddəs dinimiz uğrunda şəhid olan İmam Huseyn (ə) paklıq və məsumluq, əqidəlilik və mübarizlik timsalı kimi mömin müsəlmanların həyat yoluna nur saçmaqdadır. Bu müqəddəs insanın mübarizəsi xeyirin şərlə, ədalətin zülmlə, işıqın qaranlıqla çarpışmasıdır.*

*Dahi sənətkarların göz yaşı və ürək yanğısı ilə qələmə aldığı bu hadisə məni həmişə özünə çəkmişdir. Ancaq İmam Hüseyn Əleyhissalamın haqqında yazmağın məsuliyyətli, ciddi bir iş olduğunu bildiyimdən indiyə kimi susur, özümü həsrətilə yaşadığım o mövzu üçün hazırlayırdım.*

*On ildən bəri xalqımızın faciələr burulğanına düşməsi, əzablı günlər yaşaması, zülmün və ədalətsizliyin tuğyanı, demokratiya və sivilizasiya adı altında mənəviyyatın və əxlaqi paklığın, düzlüyün və milli mədəniyyətin aşılanması faciəsindən Kərbəla yazmağımın vaxtını yetişdirdi.*

*Oxuyub bildiklərimi, eşidib düşündüklərimi, arayıb axtardıqlarımdan tapdıqlarımı cəmləyib tarixi faktları, məlumatları cözələməyə çalışdım. Bu yolda dahi Fuzuli, onun «Hədiqətüs-suəda» əsəri ən yaxın yardımçım oldu. Tarixi hadisələrin doğruluğu, adların dəqiqliyi baxımından «Hədiqətüs-süəda» əsərini ən etibarlı mənbə hesab etdim.*

*Böyük Fuzulidən dəstək aldım onun sözləri sözümə söykək oldu, fikrindən fikrimə hikmət calandı.*

*Bu kitab Kərbəla hadisəlinə bu gündən bir baxış, bir müəllif kimi mənim isə damarlarımda qanını daşıdığım ulu soykökümə ehtiramım və səcdəmdir.*

***Müəllif***

Tökmək övladi-Rəsulin qanını asan degil,
Ol səbəbdən kim, bu qan hər qana bənzər qan degil.

**Məhəmməd Fuzuli**

Sübh günəşinin qırmızılı-sarılı şəfəqləri ucu-bucağı görünməyən səhranı bir dəniz kimi ləpələndirirdi. Sıralanmış qum təpələri şahə qalxmış dalğaları, ağ binalar və yaşıl xurma ağacları ilə uzaqdan seçilən Mədinə şəhəri isə bu qum dənizində lövbər salmış gəmini xatırladırdı.

Günəş qum təpələrinin üstünə qalxıb səhradan boylandıqca şəhərdə canlanan həyat getdikcə qaynamağa başlayırdı. Məscid minarələrindən ucalıb hər tərəfə yayılan azan səsləri bu qədim şəhərin hər bucağına ruhani bir ovqat verirdi.

Şəhərin valisi Vəlid bin Ütbə yuxudan oyansa da hələ də gördüyü qarışıq röyanın təsiri altındaydı. O namazını başa çatdırıb zikr və dua etsə də gözü yol çəkirdi. Hansısa bir xoşagəlməz hadisənin baş verəcəyi fikrini özündən uzaqlaşdıra bilmirdi. Vali kiçik gözlüklü pəncərənin önünə gələrək üzünü günbatana çevirib nəzərlərini özünə də məlum olmayan bir nöqtəyə zillədi. Ona elə gəldi ki, gözlərini qıymaqla lap uzağı - Şam şəhərini, xəlifə sarayını görür. Artıq o, yuxudan beyninə dolan qara fikirlərin mənbəyini tapmışdı. «Nə bəla gəlsə ordan gələcək» - sözlərini öz-özünə pıçıldayıb otaq boyu sərilmiş zolaq-zolaq naxışlı xovsuz xalçanın üzərində vargəl etdi. Ağır addımlarla yenidən pəncərənin önünə gəldi. Bu vaxt səhranın dərinliyində bir

toz dumanının qalxdığını gördü. Bu kiçik toz dumanı dənizdə ağ köpüklərə bənzəyirdi. Bu dəfə: «Ya Rəbbim, sən özün xeyrə cala!» - sözlərnin öz-özünə pıçıldayan Vəlid bin Ütbə əllərini göyə açdı.

Toz dumanı yaxınlaşdıqca Vəlid bin Ütbənin həyəcanı da artırdı. Bu yel qanadlı atılının kimliyini bilmək istəyi onu rahat buraxmırdı. Şam hakimi - xəlifə Müaviyə ibn Əbu Süfyanla aralarında elə bir narazılıq yox idi. Nə qədər olmasa qohum idilər. Mədinə hakimliyinə onu Müaviyyə özü təyin etmişdi. Ancaq Hüseyn ibn Əlinin və onun üç nəfər tərəfdarı - Əbdullah ibn Ömərin, Əbdurrəhman ibn Əbu Bəkrin və Əbdullah ibn Zubeyrin Madinədə yaşaya-yaşaya Müaviyə hakimiyyətinə qarşı çıxması Vəlid bin Ütbəni narahat edirdi. Düzdür, Müaviyə bu barədə hələlik susurdu. Ancaq Vəlid bin Ütbə bu susmağı hakimiyyətə qarşı çıxanları bağışlamaq kimi qiymətləndirmirdi. O, həmişə əmi deyə çatırdığı bu qoca canavarı yaxşı tanıyırdı. Bilirdi ki, son nəfəsində belə Əliyyəl-Mürtazanın övladından qisas almaqdan çəkinməz. Ona görə də az qala hər gün hər saat Müaviyədən Hüseyn ibn Əlinin tutulması və qətli barədə məktub gələcəyindən xoflanırdı.

Vəlid bin Ütbəyə elə gəldiki, dördnala gələn bu at sanki qan dənizində üzürdü. «İlahi, sən özün kömək ol. Yasrib torpağını qana çalxama» - deyə Vəlid bin Ütbən öz-özünə pıçıldayıb arxası pəncərəyə tərəf cöndü! Beyninə dolan qara fikirləri yuxunun təsiri hesab edib yenidən otağında vargəl etməyə başladı. Düşünə-düşünə zikr və dualar edən Vəlid bin Ütbə xidmətçinin otağa nə vaxt daxil olmasından xəbər tutmamışdı. Valinin düşüncələrinə mane olmaq istəməyən zənci qollarını sinəsində çarpazlayıb qapının ağzında sakitcə

dayanmışdı. Nəhayət onların baxışları bir-birinə tuşlananda xidmətçi dilləndi:

- Ya Əmir, Şamdan gələn var sizi gözləyir.

Valid bin Ütbənin dizləri əsdi, udğundu. Ancaq həyəcanını bildirmədi. Barmaqları əlindəki yusir təsbehinin dənələrini daha tez-tez çevirməyə başladı. Bir müddət də beləcə davam etsəydi təsbehin ipək sapı bu gərginliyə dözməyib qırılacaqdı. O xidmətçiyə heç bir söz demədən qapıya yaxınlaşdı.

***

Məktub Vəlid bin Ütbənin əlində titrəyirdi. Xəlifə Müaviyə ibn Əbu Süfyan dünyasını - dəyişmiş, onun taxtında oğlu Yezid oturmuşdu. Bu məktubu ona yazan da Yezid idi. O indi başdan ayağa ciddi bir görkəm almışdı. Ürəyi şiddətlə döyünürdü. Ona elə gəldi ki, deşəmə ayağının altından qaçır.

Vəlid bin Ütbə məktubu təkrar-təkrar oxusa da hələ də aldığı xəbərdən sonra düşdüyü çaşqınlıqdan, baş verən hadisələrin təsirindən çıxa bilmirdi. «Ey çərxi-fələk, Müaviyə də ölərmiş. Səndən yaxa qurtarmaq mümkün deyilmiş».

Zənd ilə valinin qanı qaçmış sifətinə, çallaşmış saqqalına baxan qasid israrla ondan cavab gözləyirdi. Birdən ona elə gəldi ki, əslində vali heç ona cavab verməli deyil. Təcrübəsiz qasid etdiyini zənn edib dal-dala qapıya yaxınlaşdı. Bədəncə şux və qıvraq olmasına baxmayaraq indi o gətirdiyi məktubun yaratdığı sükunətdə əbaya bükülmüş kötük kimi idi. O valinin məktubu oxuduqca

haldan-hala düşdüyünü görüb ondan nəsə soruşmağa cəsarət etmədi. Bir az da qapının ağzında dayandıqdan sonra bu cansıxıcı sükuta dözməyib hiss olunmadan otaqdan çıxdı. Ona elə gəldi ki, gətirdiyi məktubu valiyə verməklə işini qurtarıb.

Müaviyənin ölüm xəbəri Vəlid bin Ütbəni nə qədər heyrətləndirdisə də Yezidin hələ atasını dəfn etməmiş ona məktub yazması və İmam Hüseynin (ə) beyətini istəməsi onu bir o qədər əsəbləşdirirdi. «İndi mən neyləyim? İmam Hüseynə necə deyim ki, Yezidə beyət et. Lap desəm, bu işə razı olarmı? Onu məcbur etməyə dəyərmi? Axı, tək mən yox, bütün Ərəbistan yığışsa belə, onu əqidəsindən döndərmək mümkün deyil. Belə olan təqdirdə Yezidin əmriylə mən onu həbs edimmi? Qətlə yetirimmi? Həzrəti Rəsul-Əkrəm salavatullahın istəkli nəvəsinə mən neçə əl qaldıra bilərəm? Əsla yox!..» - Vəlid bin Ütbə axırıncı iki sözü elə ucadan dedi ki, özü də diksindi. Xidmətci zəncinin yenidən qapıda görünməsi Vəlid bin Ütbəni fikirdən ayırdı.

- Şamdan gəlmiş Mərvan sizi görmək istəyir ya Əmir.

- Mərvan?! - deyə vali təəccübləndi. Sonra xidmətçinin cavabını gözləmədən dedi:

- Buraxın gəlsin!

Vəlid bin Ütbə Mərvanı yaxşı tanıyırdı. Özündən əvvəl Mədinənin valisi olmuş Mərvan Yezidin yaxın dostlarından idi. İndi də Şamda xəlifə sarayında işləyirdi. Ümumiyyətlə, qoca Müaviyə son vaxtlar vəzifələrdə çoxlu dəyişikliklər edir, öz köhnə dostlarından daha çox Yezidin tərəfdarlarını irəli çəkirdi. Qoca siyasətçi özündən sonrakı əməvi hökmranlığını yaşatmaq üçün zəmin hazırlayırdı.

Mərvan elə əvvəlki görkəmində idi. Yenə başındakı əmmamə bahalıydı. Əbası, çuxası və başmaqları da qiymətli idi. Ancaq bütün bunlar kinli sifətinə xoş görkəm vermirdi. Yoğun ortası və gödək ayaqları onu ev ördəyinə oxşadırdı.

Mərvanın gəlişi Valid bin Ütbəni xəyallardan ayırdı. Onlar köhnə dostlar kimi görüşdülər. Elə ilk baxışdan vali hiss etdi ki, Mərvanın gəlişi Yezidin məktubu ilə bağlı deyil. Heç Müaviyənin ölümündən də onun xəbəri yoxdur.

Vəlid bin Ütbə bir qədər düşündükdən sonra Yezidin məktubunun təfsilatını Mərvana danışdı. Ancaq Mərvan məktubun məzmunu ilə tanış olandan sonra tamamilə başqalaşdı. Baxışları qəzəbdən alışıb yandı. Sağ gözünün altı səyirməyə başladı. Hikkə və əda ilə danışıb yeni xəlifənin əmrini onun yanında yerinə yetirməyi tələb etdi.

Vəlid bin Ütbə səhv etdiyini anlasa da artıq keç idi. O, dərk etdi ki, təkcə hakimiyyəti əlinə almış Yezid yox, onun bütün tərəfdarları İmam Hüseyni (ə) özlərinin ən böyük düşməni hesab edirlər. Onların başqa yolları da yox idi. Əbu Süfyan nəsli yalnız İmam Hüseyni (ə) aradan götürməklə rahat hökmranlıq edə bilərdi.

Vəlid bin Ütbə Mərvanın təkidi ilə İmam Hüseynin (ə) arxasınca adam göndərdi...

- Axı, mən sənə dedim ki, onun yanına qasid yox, silahlı dəstə göndər, həbs edib gətirsinlər. İndi Hüseyn aradan çıxsa, xəlifəyə nə cavab verəcəksən?

Qasid tək qayıdandan sonra Mərvanın dediyi bu sözlər Vəlid bin Ütbənin qəlbinə şübhə toxumu səpsə də o, təmkinini pozmadan dedi:

- Ey Mərvan, narahat olma. Hüseyn adi adam deyil. Peyğəmbər övladıdır, şahzədədir. Hələ indiyə kimi

Mədinədə heç kim onun söz verib əməl eləmədiyini görməyib. Deyibsə gələcəm, deməli gələcək.

- Baxarıq!.. Hüseyn gəlməyincə buradan heç hara getməyəcəyəm, - Mərvan əsəbi halda bildirdi.

Vəlid bin Ütbə sağ əli ilə qılıncının dəstəyini sıxdı. Səhərdən bəri dil boğaza qoymayan Mərvanın başını bir zərbə ilə üzmək keçdi ürəyindən. Dodaqaltı «lənət şeytana» deyib qəzəbini boğdu.

Küsülü adamlar kimi hərəsi üzünü bir tərəfə çevirdi. Vali və Mərvan bir müddət danışmadı, hər ikisinin əlindəki yusir təsbehinin pıçıltısı otağın daş sükutunu daha da ağırlaşdırırdı.

«Bu Vəliddən heç ağlım bir şey kəsmir. Yezidin hakimiyyətə kəlişini alqışlayıb ziyafət vermək, bayram keçirmək əvəzinə onun düşmənini müdafiə edir. Bunlar necə qohumdurlar? Necə əmioğludurlar? Vəlidi Hüseynə bağlayan nədir? Bəlkə o, Vəlidə daha böyük vəzifələr vəd edib».

Mərvan düşüncələrinə haqq qazandırmaq üçün Valid bin Ütbəni yenidən sorğu-suala çəkdi:

- Hüseyn nə vaxtdan şahzadə olub, ya Vəlid? Mən heç bunu bilmirdim.

Vəlid bin Ütbə Mərvanın hiyləsini duysa da yenə də əvvəlki fikrindən daşınmadı. Ürəyindən keçənlərin hamısını söyləmək, Yezidin bu yaltaq dostunu sözlə sındırmaq istədi.

- Niyə ki, Hüseynin tərcümeyi-halını sən məndən yaxşı bilirsən. Onun Peyğəmbərin nəvəsi olduğunu danaqmı?

Vəlid bin Ütbənin əsəbləri ilə oynamağa çalışan Mərvan atdığı oxun hədəfə dəydiyini görub, yenə də həmin isteza ilə soruşdu:

- Peyğəmbər fərzəndi olmaq sənçə şahzadəlikdirmi?

- Bəli!..

- Ya Vəlid, hakimiyyət qaydalarını deyəsən unudursan. Böyük bir şəhərin əmirinə belə danışmaq rəvadırmı?

Vəlid bin Ütbə istədi ki, söhbəti susmaqla bitirsin. Ancaq Mərvan söhbəti uzadıb Vəlid bin Ütbənin ürəyindəki gizli mətləblərdən agah olmaq istəyirdi.

- Gəl lap əvvəldən başlayaq. Əbu Süfyan nəsli ilə peyğəmbər nəsli arasındakı ədavəti Əli ibn Əbu Talib qızışdırmadımı?- Mərvan valinin sual dolu nəzərlərini ona dikib danışmadığını gördukdə öz sualına özü cavab verdi.

- Hələ əvvəlki hadisələri yox, xəlifə Osmanın ölümünü deyirəm. Onu öldürtdürüb taxtında özü əyləşmədimi? O, bu işi törədəndə bilmirdimi Müaviyə öz qohumunun intiqamını ondan alacaq?

Tutduğu vəzifə, Yezidlə arasında olan qohumluq əlaqəsi Vəlid bin Ütbəni susmağa məcbur edirdi. O, yaxşı bilirdi ki, Mərvan onun ağzından çıxan hər bir sözü Yezidə çatdıracaq. Vəlid bin Ütbə istədi desin ki, ədavəti Əli Əmirəl-möminin başlamayıb və Osmanın ölümündə onun zərrə qədər də günahı yoxdur. Əksinə, Həzrət Əlinin və onun övladlarının haqqı həmişə tapdanıb. Öz halal xəlifəlik haqqını almaq üçün Əmirəl-möminin 25 il gözləməyə, ev dustağı olmağa məcbur edilib. Ancaq yenə susdu.

- Bir də ki, hakimiyyəti bunlar öz xahişləri ilə əməvilərə veriblər. Həsən ibn Əli ilə Müaviyə ibn Əbu Süfyan arasında bağlanmış sülh müqaviləsini unudublarmı? Bunu sən gərək Hüseynə xatırladıb vaxtında ondan Yezid üçün beyət alaydın.

Vəlid bin Ütbə Mərvanın sözlərini cavabsız qoysa da acı-acı gülümsündü. İmam Həsənlə (ə) Müaviyə arasında bağlanmış sülh müqaviləsi bənd-bənd onun yadında idi. Həmin müqavilənin şərtlərinə görə, Müaviyənin başına bir iş gəlsəydi, hakimiyyət İmam Həsənə (ə) qayıdırdı. İmam Həsənin (ə) başına bir iş gəlsəydi, vəliəhd Hüseyn ibn Əli (ə) idi. Bir də ki, həmin müqaviləyə görə, Müaviyənin xəlifəliyi müvəqqəti idi. Yezidin xəlifə olması isə müqavilə şərtlərinə daxil edilməmişdi. Valid bin Ütbə bütün bunları bilə-bilə Mərvanın söhbətini dinləməyə və susmağa məcbur idi. O indi istəsəydi də deyə bilməzdi ki, Əmirəl-möminin Əliyyəl-Murtəzanın (ə) qətlində də, İmam Həsənin (ə) zəhərlənməsində də Müaviyənin əli var. Çirkin hakimiyyət oyununu Əli övladları yox, Müaviyə özü oynayıb. İndi də Yezid həmin oyunu davam etdirir.

Vaxt keçir, Hüseyn ibn Əlidən (ə) bir xəbər çıxmırdı. Uzaqdan gələn at nallarının səsi Mərvanın söhbətinə xitam verdi. Valid bin Ütbənin qəzəbdən qaralmış sifətinə bir işıq gəldi. Addım səsləri yaxınlaşdıqca hər ikisinin narahat baxışları qapıya zilləndi.

İmam Hüseynin (ə) otağa daxil olması ilə Vəlid bin Ütbənin və Mərvanın ayağa qalxması bir oldu. Otaqda elə bil gün doğmuşdu. İmamın əynindəki əba, başındakı əmmamə sanki işıq saçırdı.

Onlar heyrətlən bölümüş gözlərini İmamdan çəkə bilmirdilər.

«İlahi, elə bil Rəsulullahın özüdür. Əba da, əmmamə də onundur... Ya rəbbim, keç günahımdan. Yezid bütün dünyanı mənə bağışlasa belə, Rəsulullahın istəkli nəvəsinə

qıymaram» - deyən Vəlid bin Ütbə ürəyində qəti qərarını verdi.

Valid bin Ütbə və Mərvan şahzadəyə təzim edib hal-əhval tutdular. İmam Hüseyn (ə) fəhm ilə bura nə üçün çağrıldıqını bilsə də nə vali, nə də Mərvan hələlik mətləbə keçməyə cəsarət etmirdilər. Axırda Vəlid bin Ütbə çox böyük üzrxahlıqla dedi:

- Ya Hüseyn, səni bura çağırmağım təhqiramiz bir əmr deyil. Bil və agah ol ki, Müaviyə ibn Əbu Süfyan dünyasını dəyişib. İndi xəlifəlik taxtında onun oğlu Yezid əyləşib. O da mənə məktub göndərib ki, Hüseyn ibn Əlinin beyətini al.

Adi bir maraq hissi ilə valini dinləyən İmam dərhal cavab vermədi. İti baxışlarını qarşısındakı adamların narahat çöhrələrində gəzdirdi. Mərvan da, vali də İmam Hüseynin (ə) eşitdiyi xəbərə o qədər də əhəmiyyət vermədiyini görüb heyrətlə udqunaraq iti baxışların təsirindən sıxıldılar. Məşəllərin güclə işıqlandırdığı otaqda İmamın çöhrəsi nur saçırdı. Onun Vəlid bin Ütbəyə də, Mərvana da yazığı gəldi. İstədi onlara nəsihət verib ibrətamiz sözlərlə Yezidin xəlifəliyə layiq olmadığını bildirsin. Ancaq Mərvanın sifətindəki açıq kini görüb fikrini bir qədər dəyişdi. Onun niyyəti baxışından oxunurdu. İmam Hüseyn (ə) məsələni davasız, qansız ötüşdürmək üçün üzünü valiyə tutaraq dilləndi:

- Yəqin ki, mənim yeni xəlifəyə beyətimi təklikdə yox, camaatın qarşısında istəyirsiniz, eləmi. - İmam onlardan cavab gözləməyib sözünə davam etdi:

- Sabaha qədər gözləyin, gəlib hamının yanında sözümü deyərəm.

Vəlid çətin işin belə asanlıqla düzəldiyini görüb sevincini gizlətmədi.

- Nə olar sabahı da gözləyərik. - dedi.

Kənardan söhbəti izləyən Mərvan valinin çox yumşaq danışdıqğından qeyzlənərək sərt bir tərzdə dilləndi:

- Ey Vəlid, əlavə söhbətə hacət yoxdur. Ya indi Yezidə beyət edilməlidir, ya da qətlinə fərman veriləcək. O buradan getsə bir daha onu tapa bilməyəcəksən.

Səhbətin qəfildən belə dəyişəcəyini gözləməyən İmam Hüseyn (ə) qeyzlənib əlini qılıncına ataraq uca səslə dedi:

- Siz kimi qorxuzursunuz?! İndi ki, belə oldu mən deyirəm: Allah peyğəmbərinin ailəsindən bir nəfər də olsun şərab içən, əclaf bir şəxsə beyət etməyəcəkdir!

Bu sözlərin zərbindən Valid bin Ütbənin bir ümidsizlik qırışı yarandı. İmam bunu sezərək üzünü Valid bin Ütbəyə tutdu:

- Əgər şeytan səni də yoldan çıxartsa, bu sarayda qan su yerinə axar. Bil ki, həyətdə məni gözləyən silahlı dəstəm bir çağırışıma bənddir ki, sarayın üstünü altına çevirsin. Mən indi gedirəm. Burada dediklərimi sabah camaatın içində də söyləyəcəyəm.

İmam Hüseyn (ə) artıq son sözünü demişdi. Daha burada qalmağa hacət yox idi...

Mərvan ilan kimi qıvrılıb açılır, zəhərini Valid bin Ütbənin üstünə tökürdü.

- Heç səndən bu cəsarətsizliyi gözləmirdim. Sən vali ola-ola gözlədin ki, əvəzinə mən danışam, onu mən həbs edəm, mən qətlə yetirəm. Nahaq buraxdıq onu əlimizdən. Yezid ibn Müaviyə Hüseynin kəsilmiş başını çoxdan gözləyir.

Baş verən hadisədən qapqara qaralan Vəlid bin Ütbə daha susa bilmədi. Bir az əvvəl ürəyindən keçənləri dilinə gətirdi:

- Ey Mərvan, bil və agah ol ki, Yezid ibn Müaviyə bütün dünyanı belə mənə bağışlasa, mən Rəsulullahın istəkli nəvəsinə qıymaram. Sən görmədinmi o, Həzrəti Rəsuli-Əkrəm salavatullaha necə bənzəyir? Mən onu qətlə yetirsəydim o dünyada Mustafa və Mürtəza qarşısında nə cavab verərdim? Ona küfr desəydim dilim yanardı, əl qaldırsaydım əlim quruyardı.

- Onda vəzifənə əlvida deyəsi olacaqsan, - deyə Mərvan valinin sözünü kəsdi. - Hələ Yezid ibn Müaviyə səni təkcə vəzifədən kənarlaşdırmaqla qurtarsan, sevin.

Mərvanın sözündən sonra Vəlid bin Ütbə yenə susdu. O, artıq bu şeytan nökəriylə danışıb söz güləşdirməyin mənasız olduğunu başa düşmüşdü. Gecə gördüyü yuxu yadına düşdü. Yuxusu çin olmuşdu.

Mərvan artıq getmişdi. İkinci qasidin Şamdan məktub gətirməsi Vəlid bin Ütbəni daha da həyacanlandırdı. Yezid bu məktubunda Hüseyn ibn Əli (ə) beyət etmədiyi təqdirdə onu qətlə yetirməyi, kəsilmiş başını Şama göndərməyi təkid edirdi. Vəlid bin Ütbə məktubu bir də oxudu. Bilmirdi necə etsin ki, həm özünü, həm də İmam Hüseyni (ə) Yezidin qəzəbindən xilas etsin. Nə qədər fikirləşsə də bir işıq ucu görmədi. Axırda Yezidin məktubunun üzünü köçürtdürüb İmam Hüseynə (ə) bir namə yazdı. Ən yaxın qulamlarından birini yanına çağıraraq dedi:

- Bu məktubu gizlincə Hüseyn ibn Əliyə çatdır. Elə et ki, onunla görüşduyünü heç kim görməsin. Və İmama mənim adımdan ərz et ki, qəlbən, ruhən onunlayam. Qorxum

təkcə ondandır ki, məni vəzifədən çıxarıb yerimə başqasını göndərələr. O da Yezidin əmrini yerinə yetirə. İmama de ki, bu gün-sabah başına çarə qılsın. Mədinəni tərk etsin.

***

İmam Hüseyn (ə) valinin məktubunu oxuduqca hiss edirdi ki, babasının, atasının qoyduğu qaydaları bərpa etmək, müqəddəs islamı xilas etmək, Allah kəlamı olan Quranın nüfuz paklığını təmin etmək üçün son nəfəsinə kimi mübarizə aparmalı və döyüşməlidir. Əslində İmam Hüseyn (ə) hər hansı bir mübarizənin ələyhinə idi. Deyərdi ki, mübarizədə sürtünmə, aşılanma, məhvolma var. Həyatın mənası vəhdətlə və məhəbbətdədir. Çünki vəhdət və məhəbbətdə qovuşma, həyat eşqi, yaranma, törəmə var, Allah-təalanın yartdığı ilahi vəhdət bütün kainatın mövcudluğuna səbəbdir. Bu İmam Hüseyn (ə) fəlsəfəsi idi. Ancaq onun indi apardığı mübarizə ilahi vəhdətə və məhəbbətə xidmət edən müqəddəs İslamın əlehdarlarına qarşı idi. Bu heç bir qüvvə, heç bir maneə sapdıra bilməzdi. O, öz mübarizəsi ilə zülmün, ədalətsizliyin üzərində qələbə çalmalı, haqqın, bərabərliyin rəmzinə çevrilməlidir. Bu mübarizə və şəhidlik onun qisməti, taleyi idi. İmam Hüseyn (ə) bu mübarizəyə və şəhidliyə atası Əmirəl-möminin qətlə yetirildiyi gündən, böyük qardaşı İmam Həsənə (ə) xəyanət olunan vaxtdan, yalançı və riyakarlar xəlifə taxtını zəbt etdiyi zamandan hazır idi.

İmam Hüseyn (ə) artıq evdə qərar tuta bilmədi. Bu çətin məqamda, qəlbinin din yolunda mübariz eşqi ilə döyündüyü bir vaxtda babası Həzrəti Rəsulullahın (s) mübarək qəbrini

ziyarət etməyi qərara aldı. O, kövrəlmiş, bulud kimi dolmuşdu. Öz-özünə tək, qərib və kimsəsiz göründü. Ona görə də Həzrəti Rəsulullahın (s) mübarək qəbrinə yetişəndə özünü ağlamaqdan saxlaya bilmədi. Ağlaya-ağlaya üzünü müqəddəs qəbrin torpağına sürtdü. Təkrar-təkrər təzim edərək, salam verdi.

Kövrəlib hönkür-hönkür ağladı. Göz yaşları ilə Rəsulullahın (s) qəbrinə sanki gövhərlər səpdi. Bütün gününü beləcə ibadətlə, yalvarışlarla keçirdi. Ah-naləsi asimana bülənd oldu. Ağlayıb Rəsulullahdan (s) imdad dilədi. Heç axşamın nə vaxt düşməsini də, necə yuxuya getməsini də hiss etmədi. Yuxuda da ağlaya-ağlaya kömək və imdad istədi. Bu vaxt göy üzü nura qərq oldu. İmam Hüseyn (ə) başını yuxarı qaldıranda babası Həzrət Rəsuli-Əkrəm salavatullahı bu nurun içində gördü. İstəkli baba və nəvə illərin həsrətlisi kimi qucaqlaşdı. Həzrət Rəsuli-Əkrəm (s) mübarək əlləriylə nəvəsinin göz yaşını sildi. O da ağlayırdı. Həzrət Rəsuli-Əkrəm (s) İmam Hüseynə (ə) nəvaziş göstərib əliylə ucu-bucağı görünməyən səhranı, bu səhranın yanından keçən qurumuş çay yerini göstərdi. Bu düm ağ səhra günəşin şüası ilə elə işıqlanmışdı ki, sanki od tutub yanacaqdı. Bu işıqlı, ağ səhrada qara-qara nöqtələr də dəydi gözünə. Və bu nöqtələrin biri böyüyüb qara əmmaməli qara libaslı insana çevrildi. Seyrək saqqallı, xırda gözlü, əyri burunlu bu adam qorxunc və əcaib idi. Dodaqları arasından çıxan uzun dişi onun əcaibliyini və çirkinliyini daha da artırırdı. Sonra bu ağ səhraya qırmızı rəngli yağış yağmağa başladı. İmam Hüseyn (ə) bu qırmızı yağışdan islandığını və islandıqca da susadığını gördü.

İmam Hüseyn (ə) hövlnak və böyük iztirab içində yuxudan oyandı. O, babasını yuxuda gördüyü üçün həm sevinir, həm də gördüyü əlamətlər barədə düşünüb qəmgin olurlu. Bir anlığa xəyalı Mədinədən Məkkəyə qanadlandı. Lakin orda da qərar tuta bilmədi. Sonra vida üçün İmam Həsənin (ə) qəbrini ziyarətə getdi. Xəyalən anası Fatimeyi-Zəhra ilə atası Əliyyəl Mürtəza (ə) ilə görüşüb vidalaşdı

İmam Hüseyn (ə) daha Yəsrib torpağında qala bilməzdi. Ancaq Mədinə onunçün doğma və əziz idi. Bu şəhərin hər addımında İmam Hüseynin (ə) bir xatirəsi yatırdı. O, gözünü dünyaya burada açmış, uşaqlığını, gəncliyini bu şəhərdə keçirmişdi. Babası Həzrəti Rəsulun (s), atası Əmirəl-mömininin (ə), anası Fatimeyi-Zəhranın təsəllisini o bu şəhərdən alırdı. Lakin o, günü sabah bu şəhəri tərk etməli idi. Yezidin məktubundan sonra İmam Hüseyn (ə) hiss edirdi ki, onun burda atdığı hər bir aldım təhlükəlidir. Bir də ki, hansı bir gözəgörünməz qüvvəsə onu ağır səfərə çıxmağa məcbur edirdi.

Artıq gecə yarıdan keçmişdi. Bu bir günlük iztirab onu üzsə də, gözlərinə yuxu getmirdi. Otağın havası onu sıxlı. O, dərdini kiməsə söyləmək istəyirdi. Yadına uşaqlığı düşdü. Uşaq vaxtı o, belə darıxanda qardaşı İmam Həsənlə (ə) həyətə çıxar, ulduzları seyr elərdilər. İmam Həsən (ə) xatırlaması onu daha da qəhhərləndirdi. Həyətə çıxdı. Bir az tək-tənha addımladı. Dayandı, başını astaca qaldırıb ulduzları seyr etməyə başladı. Baxışlarını ulduzlardan ayırmadan öz-özünə dilləndi: «Görürsənmi, əziz qardaşım başım nələr çəkir. Səninlə açıq aşkar döyüşməyə cəsarət etmədilər. Ancaq budur Yezid mənim qətlimə fərman verib». İmam Hüseyn (ə) bir qədər susdu. Həyətdə var-gəl

etdi. Sonra yenə öz-özünə «Yox, səni qınamıram, əziz qardaşım. Bağladığın sülh müqaviləsi seçdiyin ən düzgün yol idi. O şərtləri ki, müqaviləyə sən daxil etmişdin, bu gün mən onları alimdə dəstəmuz tuturam. Həmin sülh müqaviləsi sənin böyük siyasi qələbən idi. Ancaq neyləyəydin ki, düşmən hilləgər, alçaq və rəzildir».

O gecə İmam Hüseyn (ə) üçün çox ağır və məşəqli idi. Axşamdan o, əhli-əyalını, bütün yaxın adamlarını toplayıb səfər üçün hazırlıq görməyi tapşırmışdı. O gecə İmam Hüseynin (ə) Mədinədə son gecəsi idi. Ona görə də bu doğma şəhərdə son saatlarını röyada keçirmək istəmirdi. O, yenə babası Həzrəti Rəsulullahı (s), atası Əmirəl-mömininі (ə), anası Fatimeyi-Zəhranı xatırladı. Babası Həzrəti Rəsulun (s) sağlığında o, ömrünün xoşbəxt günlərini yaşamışdı. Həzrəti Rəsulun (s) ən istəkli əyləncəsi onunla və qardaşı İmam Həsənlə (ə) bir yerdə olmaq idi. İmam Hüseyn (ə) babasının onu və İmam Həsəni (ə) bağda yuxudan oyadıb qucağına almasını yadına saldı. Beləcə Həzrət Rəsul (s) onları məscidə apardı. Ətrafdakılar Həzrətə kömək eləmək istədilərsə də, Həzrət Rəsul (ə) buna imkan vermədi. O vaxt Həzrət Rəsul (s) necə də məmnun idi. İmam Hüseyn (ə) özünü dünyanın ən xoşbəxt insanı hesab edirdi. Məsciddə Həzrət Rəsulullahın (s) söhbəti İmam Hüseynin (ə) qulaqlarında səsləndi. «Hər kim bu iki uşağı ürəkdən sevsə cənnətdədir. Onlarda düşmənçilik edən isə cəhənnəm atəşinə düçar olacaqdır».

Karvan hazır idi. İmam Hüseynin (ə) bütün yaxın adamları, doğmaları İmamın son zikrini başa çatdırmasını gözləyirdi. Nəhayət, İmam Hüseyn (ə) getmək barədə işarə verdi. Karvan hərəkətə gəldi. İmam Hüseynin (ə) zəndi onu

yanıltmamışdı. Az qala bütün şəhər əhli onunla vidalaşmaq üçün küçələrə çıxmışdı. Əlbəttə, bu qələbəlikdə Yezid bu şəhərə ordu belə göndərsəydi, İmam Hüseynə (ə) heç nə edə bilməzdi. Şəhərin valisi Vəlid bin Ütbə İmamı yola salanlar arasında olmasa da uzaqdan karvanı baxışları ilə müşaiyət edir, zınqırov səslərini eşitdikcə xoşhal olurdu. O özündən çox razı qalmışdı. Yaşının bu ahıl çağında vəzifəyə susamamış, İmamın səfər etməsinə şərait yaratmışdı. Artıq onu vəzifədə qalıb-qalmaması narahat etmirdi. O, axirəti, Tanrı dərgahını düşünürdü. Son məqamda Həzrəti Rəsulun (s) və Əmirəl-mömininin (ə) yanına alnıaçıq gedəcəkdi. Hiss edirdi ki, İmam Hüseynlə (ə) xoş rəftarı sayəsində bütün günahları əfv olunacaq, axirət əzabından xilas ediləcəkdi.

İmam Hüseyn (ə) Mədinədən sakit bir halda, heç bir söz-söhbət olmadan ayrılıb getmək istəyirdi. Ancaq vidalaşmağa gələn insanlar bu son görüşdə İmamın bəlağətli nitqini eşitmək, onunla səhbət edib xudahafizləşmək arzusunda idilər. İmam Hüseyn (ə) ona dikilən qəmli baxışları, kül rənginə çalan sifətləri seyr etdikcə susur və düşünürdü. Onun babası, atası çalışmışdılar ki, bu insanlar xoşbəxt yaşasın, Allahın buyurduğu yolla getsinlər. Bir vaxt Mədinədə hamının üzü gülürdü. Ədalət və bərabəlik insanların ürəyincə idi. Bu gün isə onlar əzab içində yaşayır, zalımların qorxusundan haqqı müdafiə etməyə cəsarət etmirdilər. Onun yadına babası Həzrət Rəsulun (s) vəfatından sonrakı günlər düşdü. Həzrətin ölümündən sarsılan atası Əli ibn Əbu Talib (ə) inana bilmirdi ki, Peyğəmbərin nəşi yerdə ola-ola onun ən yaxın adamları xəlifəlik iddiasına düşə bilər. O vaxt İmam Hüseyn (ə) 7-8 yaşlarında idi. Atası Əli ibn Əbu Talib (ə) onun və qardaşı

Həsənin (ə) əlindən tutaraq şəhərə çıxdı. Bir müddət əvvəl – Həzrət Rəsulun (s) sağlığında Əli ibn Əbu Talibə (ə) beyət edən, onu peyğəmbərin varisi kimi qəbul edən mədinəlilər axırda Əmirəl-mömimindən (ə) üz döndirdilər. Peyğəmbərin sağlığında ona etdikləri beyətlərini dandılar. İmam Hüseyn (ə) hələ o vaxt dərk etin ki, Əhli-Beytə qarşı adamlarla düşmənçilik hissi oyadılar. Onun gözlərinin qarşısında atası Əmirəl-möminin (ə) haqqı tapdandı. Evləri al-üst edildi. Anası Fatimeyi-Zəhra Həzrəti peyğəmbrin (s) ən yaxın adamlarından biri olan Ömər ibn Xəttabın əmri ilə döyüldü. Anasının əzabları gözləri önüdən gəlib keçdi. O müqəddəs qadın peyğəmbərin ölümündən sonra elə əzablara düçar oldu ki, cəmi yetmiş gün yaşaya bildi. Atası Əmirəl-möminin (ə) çəkdiyi əzabları da xatırladı. O bütün işgəncələrə dözdü. Səbr etdi. Haqqın, ədalətin bərqərar olmasına inandı. Əmirəl-möminin (ə) tərbiyəsi ilə böyüyən İmam Hüseyn (ə) haqq yolunda, din yolunda canından keçməyə hazır idi. Onu heç bir qüvvə Yezidə beyət etməyə məcbur edə bilməzdi. Əli ovladı, Əli düşməninin qarşısında əyilməkdənsə şəhid olmağı üstün tuturdu. O, hiss edirdi ki, müharibə meydanında dinsiz Yezidə qalib gələ bilməsə də, öz ölümü ilə zəfər çalacaq. Öz şəhidliyi ilə adamları haqqın yoluna qaytaracaq.

Mədinəlilər onu şəhərin kənarına kimi yola saldılar. Buradan Məkkəyə səhra yolu başlayırdı. İmam Hüseyn (ə) dörd-beş gündən sonra öz doğum gününü müqəddəs Məkkədə qeyd etmək istəyirdi.

Artıq Mədinə şəhəri arxada qalmışdı. Qarşıda çox əzablı, məşəqqətli bir yol var idi. Dəvə zınqırovlarının səsi səhranın əbədi sakitliyində həzin bir müsiqiyə bənzəyirdi.

***

Ay işığı səhrada ecazkar bir mənzərə yaratmışdı. Ətraf elə bil süd rəngində idi. Səmadan yer üzünə sanki nur süzülürdü. Talalanın salxım-salxım olmuş ulduzlar bu nurlu ecazkar mənzərəni daha da rövnəqləndirirdi. Sakitlik idi. Elə sakitlik ki, sanki bir daha bu yerlərdən səs-səmir gəlməyəcəkdi. Atların fınxırtısı, dəvələrin gövşək çalması və pıçıltılı söhbətlər bu sakitliyi pozurdu. Karvan dayanmışdı. Axşam namazından sonra İmam Hüseyn (ə) və onun əshabəsi istirahət edirdi. İmam oturub çənəsini əllərinə dayayaraq dərin fikrə getmişdi. Omrünün əlli yeddinci ilini yaşayan İmam bugünkü qədər özünü yorğun və əzgin hiss etməmişdi. Bir gün əvvəl babası Həzrət Rəsulullahın (s) qəbrini ziyarət edərkən məzarın yanında huşa getməsi, bütün gecəni orada keçirməsi, gördüyü röya, Yezidin məktubu, doğma şəhəri tərk etmək məcburiyyətində qalması onu haldan salmışdı. Ömrünün bu ahıl çağında həyatı dərindən dərk edən İmam bu süstlüyünə qarşı qəlbində üsyan qaldırdı. Bir anın içindəcə iradəsini toplayıb yorğunluğu üstələdi. O, nə etdiyini, hansı addım atdığını, qarşıda onu hansı hadislər gözlədiyini bilirdi. Bu bilki ona imamlıq sirlərindən məlum idi. O, ikinci bir bəşər övladının bilmədiyi imamətlik sirlərini qardaşı İmam Həsəndən (ə) almışdı. İmam Həsən (ə) də atası Əmirəl-mömünindən (ə) qəbul etmişdi. Ancaq bir bəşər övladı kimi maddi dünyaya da bağlı idi. Daxilindiki hansı bir hiss isə onu hələ yaşamaq həvəsləndirirdi. Atası Əmirəl-mömününin (ə) bir sözu yadına düşdü: «Mən bu dünyaya üç dəfə təlaq vermişəm». Təkrar-təkrar fikrindən

keçdi bu sözlər. Elə bil bu sözlər İmamı yuxudan oyatdı. Öz-özünə pıcıldadı: «Əmirəl-mömininə (ə) özünə haram bildiyi bu dünyanı mən halal saya bilərəmmi?» Bu sualın ağırlığı İmamın maddi dünya ilə bağlığını elə həmin andaca qırdı. Artıq onu şəhidlik məqamına yetişib haqq dünyasındakı babası Həzrət Rəsulullaha (s), atası Əmirəl-mömininə (ə), anası Fatimeyi-Zəhraya, qardaşı İmam Həsənə (ə) qovuşmaq düşündürürdü. O, hiss edirdi ki, sözlə, bəlağətli nitqlə yox, yalnız Allah yolunda fədakarlıq etməklə insanların gözlərindən nadanlıq pərdəsini götürər, Müaviyənin insanların qəlbinə səpdiyi küfr toxumunu yalnız həyatı bahasına təmizləyə bilər.

Atası Əmirəl-mömininin (ə) sözləri yenə İmamın qulaqlarında cingildədi. «Mən bu dünyaya üç dəfə təlaq vermişəm». Bu deyim imamın bütün varlığını çulğadı. Yenə yadına uşaqlıq illəri düşdü. Həyət darvazalarının yandırılması, anası Fatimeyi-Zəhranın ah-nalə etməsi gözləri önündən gəlib keçdi. Öz-özünə pıçıldadı: «İlahi, bu qədər dözum bu qədər səbr Əmirəl-möminində (ə) haradan idi? İyirmi beş il necə dözdü o məşəqqətlərə? Hər addımda haqqı tapdandı, hüquqları əlindən alındı. Ancaq o, dözdü, səbr etdi. Bu qədər haqsızlığı ədalətsizliyi görən Əmirəl-mömininin (ə) bütün iztirab və məşəqətlərini bir cümlə ilə neçə də gözəl ifadə etmişdir».

İmam Hüseyn (ə) Əmirəl-möminin (ə) barəsində düşündükcə babası Həzrəti Rəsuli-Əkrəmdən (s) eşitdiyi sözlər yadına düşdü: «Ya Əli, sənin ətin mənim ətimdən, qanın mənim qanımdandır».

İmam Hüseyn (ə) imamlıq sirlərindən bilirdi ki, indi o, ilahi nurun daşıyıcısıdır. Damarlarında axan adi yox, ali, pak

bir qandır. Və onun hər addımı Böyük Yaradanın nəzarətindədir. Artıq onun bu gözqamaşdırıcı haqsızlıq və ədalətsizliklə dolu olan dünyadan ayrılıb haqqa qovuşmaq məqamı yaxınlaşmaq üzrədir. Keçmiş də, bu gün də, gələcək də ona gün kimi aydın idi. Ancaq imamətliyi qəbul edərkən qoyulan şərtə görə onun bu sirri açmağa ixtiyarı yox idi. Bu sirri o, qardaşı İmam Həsəndən (ə) açıb faş etməmək şərti ilə qəbul etmişdi. Bu elə sirr idi ki, onu yalnız peyğəmbərlər, imamlar bilməli idi. Bu Allah-Təalanın hökmü, Cəbrayıl əleyhisalamın göstərişi idi. Adi insanlar bu sirri dərk edə bilməzdi.

Hələ Məkkəyə bir günlük yol var idi. Məkkə yolu onunçün doğma və əziz idi. Bir vaxtlar babası Həzrət Rəsuli-Əkrəm (s) Məkkədən Mədinəyə hicrət edərkən bu yolla gəlmiş, Məkkəni fəth edən qoşun da bu yolla hərəkət etmişdi. O bu yolun hər addımından atasının, babasının təsəllisini alır, baxışları ilə «Ğari-Sevr» mağarasının nə vaxt görünəcəyini axtarırdı. Babası Rəsuli-Əkrəm (s) Məkkə kafirlərinin alindən qaçarkən bu mağarada sığınacaq tapmış, həyatını xilas etmişdi.

Karvan irəliləyirdi. Həcc ziyarətinə gedən zəvvarlar yolda bu karvana qoşulur, İmamı ziyarət edirdilər. İmam Hüseyn (ə) onu ziyarət edənlərlə söhbət edir, öz məqsədini gizlətmədən açıq-aşkar elan edirdi ki, Yezidin xəlifə olması islam üçün təhqirdir. Dinsiz, əxlaqsız, şərab düşgünü olan bir adamın zülmünə dözmək Allah dərgahında günah işlətməkdir.

***

At üstündə qara yumağa bənzəyən çapar gecənin qaranlığında şəhər darvazasından içəri girən kimi daş döşənmiş dar küçələrlə atını dördnala çapdı. Xəlifə qasidlərinin bu adətinə Şam şəhərinin sakinləri çoxdan öyrəncəli idilər. Qasidlər bu cür hərəkətlə aparıb-gətirdikləri namənin nə qədər vacib olduğunu nümayiş etdirmək istəyirdilər. Ona görə də şəhər sakinləri bu çaparları uzaqdan görən kimi onlara yol verir, özlərinə bir xətər toxunmasın deyə kənara çəkilirdilər. Çaparın qarşısını kəsən, ona qəsdən ya təsadüfən mane olan hər kəs ciddi cəzalanırdı. Şam sakinlərinin bəxtindən Mədinədən qayıdan qasidin gəlişi gecəyə düşmüşdü. Küçələr kimsəsiz və sakit idi. Ancaq at nalının yola döşənmiş daşlardan çıxardığı səsləri gecənin bu sakitliyində az qala bütün şəhər eşidirdi. Qara yumağa bənzəyən çapar sarayın qarşısında atının cilovunu çəkib cəld bir hərəkətlə yerə sıçradı. Əlində tutduğu qamçının dəstəyi ilə bağlı darvazanı döyəclədi. Gecədən xeyli keçdiyindən səs-səmir gəlmədi. Hövsələsiz çapar yan-yörəyə boylanıb bir də darvazanı möhkəm döydü. Atın isti nəfəsini qulağının dibində hiss edəndə əsəbləşib geri çevrildi. Atın tərli sinəsinə qəzəblə bir qamçı çəkdi. Bu zərbəni gözləməyən at gözləri böyümüş halda yana çəkilib qabaq ayaqlarını şahə qaldıraraq ucadan fınxırıb kişnədi. Qasid bir az çevik tərpənməsəydi, atın zərbəsindən qurtara bilməyəcəkdi, tez müvazinətini düzəldib cilovu özünə tərəf çəkdi. Dəli kimi darvazaya tərəf çevrilib bağırdı: «Harda qırılmısınız, məlunlar, mürtədlər, qapını açın!» Darvazanın o tərəfindən əvvəlcə tələsik addım səsləri, sonra isə cəftə cırıltısı eşidildi. Qasid darvazadan içəri girən kimi mürgülü gözətçilərin şişman gözlərinə baxıb, əlini qılıncının dəstəyinə ataraq

qəzəblə dilləndi: «Əlimdə ixtiyar olsaydı, ikinizin də başını bir zərbə ilə üzərdim».

Qasid bunu deyib atın cilovunu hikkə ilə balacaboy seyrək saqqal gözətçinin üstünə atdı. Sonra iti addımlarla saraya tərəf cumdu.

Nə baş verdiyini hələ tam anlamayan, yuxulu gözləri ilə bir-birini key-key süzən gözətçilər bir müddət yerlərindən tərpənmədilər. Sonra boyda yoldaşından hündür olan sıx qara saqqallı gözətçi pərtliyini büruzə vermək istəmədiyi üçün zorla gülümsəyərək dilləndi:

- Bu Əbu Yəhya qasid olandan bəri yaman qudurub ha!. Gördün necə hökmlü danışır?!

Balacaboy gözətçi yoldaşının bu sözündən sonra ürəklənərək dilləndi:

- Gördüm, qudurmuş sözünü yaxşı dedin. Qızarmış gözləri doğurdan da quduzlaşmış köpək gözünə oxşayırdı. İnsan gözü də qaranlıqda işıq saçarmış.

Birdən hündürboy gözətçinin dodaqlarında gülüş dondu. Yadına qəfildən nəsə düşən adamlar kimi:

- Lağ-lağı eləməyi burax getsin. Bil ki, onun kimliyini soruşmamış qapını acdığımıza görə sabah rəis tərəfindən ciddi cəzalanacağıq.

Balacaboy gözətçinin əvvəlcə sözü ağzında yarımçıq qaldı. Sonra heç na olmayıbmış kimi əlini yellədi:

- Sənin də başına söz qəhətdir. Əbu Ləhyanın səsini tanımırıq ki, onun kimliyini soruşaq?

Tanıdın-tanımadın, dəxli yoxdur. Eşitmədin, təzə rəis dünən nə dedi?

Balacaboy gözətçi söhbətin səmtini dəyişərək astadan pıçıltı ilə dilləndi:

- Eşitməyinə eşitdim. Sən də onu bil ki, hələ çox şeylər dəyişəcək. Nə qədər ki Müaviyə sağ idi, Yezidin əl-ayağı o qədər açılmırdı. Dünən rəis dəyişdi, sabah kimlər vəzifədən götürüləcək, kimlərin başı nizələrə taxılıb şəhərdə gəzdiriləcək, Allah bilir. Bu Yezidi mən lap uşaqlıqdan tanıyıram. Sən qorx ki, öz bəd əməlləri ilə atasına rəhmət oxuda.

- Suss.., yavaş danış. Deyəsən sənin də başın bədəninə ağırlıq edir, deyə ucaboy gözətçi dostuna acıqlanıb söhbəti kəsdi.

Qasid ikinci gözətçi məntəqəsində ləngiyəcəyini heç ağlına da gətirmirdi. Bu vəzifəyə təzə keçən və həmin gün də çox məxfi bir məktubla Mədinəyə yola düşən qasid getdiyi yerdən əliboş gəldiyi üçün onu nə gözlədiyini hələ bilmirdi. Təkcə onu bilirdi ki, xəlifə qasidinin qarşısını heç kim kəsə bilməz. Yalnız o, xəlifəyə hesabat verə bilər.

Qapı gözətçilərindən fərqli olaraq saray mühafizəçiləri onu əllərində sıyırma qılınc qarşıladılar. Qapıya çatmağa bir neçə addım qalmış onlardan biri qorxunç səslə ucadan dilləndi:

- Dayan! Bir addım da irəli gəlsən, başını bədənindən üzərəm.

Qulaqlarına inanmayan qasid bu səsin vahiməsindən qorxaraq yerində mıxlanıb qaldı. Saray mühafizəçilərinin böyüyü əli qılıncının dəstəyində bir-iki addım irəli gələrək qasidin üstünə bağırdı:

- Sən kimsən və bu vaxt burada nə gəzirsən?

Qasidin qaranlıqda onun qarşısını divar kimi kəsmiş bu bədheybət vücudun səsindən canına üşütmə düşdü. Ancaq tez özünü ələ alıb əsəbi halda cavab verdi:

- Xəlifənin qasidiyəm. Məni Yezid ibn Müaviyyə özü göndərib və indi mənim gəlişimi, cavabımı gözləyir.

Öz sözündən ürəklənən qasid irəli şığımaq istədi. Ancaq sinəsinə dirənən qılınc ay işığında parıldayıb bərq vurdu. O özünü yığışdırmağa, təkəbbüründən əl çəkməyə məcbur oldu. Saray mühafizəçisi bu dəfə daha qətiyyətlə səsləndi:

- Dayan, sənə dedim. Yoxsa başını üzərəm.

Saray qaydalarını yaxşı bilən bu mühafizəçi hələ darvazada ikən qasidin hərəkətlərinə, yerişinə uzaqdan göz qoymuşdu. O, sarayda təzə vəzifə almış bu cavana bir balaca dərs vermək istəyirdi. Dindən dönüb Yezidə rəğbət bəsləyənlərə, onun qulluğunda duranlara nifrətini gizlətmirdi. Bilirdi ki, Yezidin təzə təyin etdiyi mühafizə rəisi onu cəzalandırmaq üçün bəhanə axtarır. Və vaxtı ilə onun atasının Həzrət Əli əleyhisalamın tərəfdarı olduğu açılmasa da, tərbiyəsiz və əxlaqsız Yezidin hərəkətlərinə dözə bilməyəcək. Artıq o, eşitmişdi ki, İmam Hüseyn qiyam edib Yezidi devirmək üçün Mədinədə təbliğat aparır. O, İmam əleyhisalamın bir dəfə üzünü görmək, onun səsini eşitmək, Həzrət Rəsululi-Əkrəm salavatullahın ətrini ondan almaq üçün bütün varlığından keçərdi. Müaviyənin zülmündən təngə gəlmiş bu cavan əsgər haqq uğrunda, din uğrunda çarpışmaq, vuruşmaq istəyirdi. Onun atası «Siffeyn» davasında Həzrət Əlinin (ə) ordusunu tərk edib Müaviyə tərəfə keçmişdi. Bu onun öz günahı deyildi. Sadəcə əsgər dostlarının felinə uyub, onların sözündən çıxa bilməmişdi. O bu səhvi özünə bağışlamamış və elə o qəbahətinə görə tövbə edə-edə dünyadan keçmüşdü. Cavan əsgər Şamda yaşasa da, ətrafındakıların kim olduğunu bilsə də, ailəsində Həzrət Əmirəl-möminin Əli (ə) tərbiyəsini

almışdı. O, atasından çox babası ilə fəxr edir, öyünürdü. Çünki onun babası Həzrət Əli əleyhisalamla eyni vaxtda din uğrunda qılınc çalmışdı.

- Sən əminmisən ki, xəlifə həzrətləri indi sənin gəlişini gözləyir? - deyə mühafizəçi zorla gülümsünərək qasiddən soruşdu.

- Əlbəttə, mənim qarşımı kəsməyə sizin ixtiyarınız yoxdur. Mən xəlifənin qasidiyəm. Ona cavab gətirmişəm.

- Hanı gətirdiyin cavab? - deyə mühafizəçi sərt halda dilləndi.

- Bunun sənə dəxli yoxdur. Məni xəlifənin hüzuruna ötürün.

Arxada dayanmış mühafizəçilər təzə qasidin bu cür cavabına gülüşdülər. Ancaq qasidin qarşısını kəsən mühafizəçi təmkinini pozmadan bir qədər kinayə ilə soruşdu:

- Deyirsən, indi gecənin bu vədəsində xəlifə həzrətlərini yuxudan oyadaq?!

Qasid səhv etdiyini artıq anlamışdı. Əgər indi mühafizəçilər onu xəlifənin hüzuruna aparsaydılar belə nə deyəcəyini bilmirdi. Onu maraqlandıran yalnız xəlifənin hüzurunda olmaq, ona baş əymək, nə tapşırsa canla-başla yerinə yetirmək idi.

***

Gözünü yuxudan təzə açmış Yezid ibn Müaviyə bu səhər özünü qəsdən yox, elə həqiqətən qəmli adamlar kimi aparırdı. Gecəki kef məclisində içdiyi şərabın təsiri hələ başından getməmişdi. Erməni şərabçının gətirdiyi bu şərab

nədənsə ona başağrısı vermişdi. «Bu köpəyin bağışladığı erməni gözəli də şərab kimi mənə başağrısı versə, vay onun halına» deyə öz-özünə gileyləndi. Şəxsi qulamının onun qulağına dediyi sözlərdən sonra Yezid erməni söhbətini fikrindən çıxardı. Qulama tərəf çevrilərək amiranə bir səslə:

- Çağırın, gəlsin görək, Mədinədən nə xəbərlə qayıdıb - dedi.

Qapıdan içəri girib diz çökən qasid Əbu Yəhyanın əslində heç ayağa qalxmaq, Yezid ibn Müaviyyə ilə danışmaq hünəri qalmamışdı. Nəhayət, Yezid qasidin ayağa qalxıb irəli gəlmədiyini görüb qəzəblə dilləndi:

- Nə daş kimi düşüb qaldın orda. Yaxına gəl, Mədinədən nə xəbər gətirmisən?

Qasid xəlifənin bu sözündən sonra cəld ayağa qalxsa da, nə deyəcəyini bilmədi. Elə doğrudan da daş kimi düşüb yerində qaldı.

- Hə, deyə Yezid qasidin nəzakətindən qeyzlənib səsini ucaltdı. Onun danışmasını gözlədi.

- Qibleyi-aləm, məlumunuz olsun ki...

- Qurtar. Kəsə de görüm, - deyə Yezid ibn Müaviyyə baxışlarını qasidin üzündə saxladı. ...Məktubu çatdırdım Vəlid bin Ütbəyə...Sonra...

Yezid qasidin çaşdığını görüb daha da qeyzləndi.

- Sonra nə? Nə dedi vali?

- Qibleyi-aləm... Mənə yazığınız gəlsin.

Yezid ibn Müaviyyənin rəngi ağarmış, gözləri hədəqədən çıxmışdı. O, ayağa qalxıb yenidən oturdu. Üzünü saraydakılara tutub var səsilə bağırdı:

- Nə danışır bu mürtəd? Hanı Vəlid bin Ütbənin cavabı? Hanı mənə beyət etməyənlərin kəsilmiş başları?

Qasid bu bağırtıdan huşunu itirdi. Tappıltı ilə sarayın döşəməsinə sərildi, xırıltı və inilti qarışıq bir səs çıxardı. Qəfil yerindən sıçrayan Yezid yaxına gelib onu təpikləməyə başladı. Gözlənilmədən dayandı və ani fikirdən sonra əmr etdi:

- Aparın bu iti burdan..

Mühafizəçilər qasidi bir göz qırpımında süruyüb otaqdan çıxartdılar.

Yezid ibn Müaviyənin hirsi hələ soyumamışdı. Onun daxilindəki çürüklük kəsik-qırıq ifadələrlə, ədəbsiz sözlərlə, ölçüsüz əl-qol hərəkətləri ilə zahirə çıxırdı. O, hamını söymək, incitmək, qovmaq istəyirdi.

- Rədd olun hamınız burdan! Mürtədlər!.

Sonra üzünü yana çevirib əlində qələm-kağız əmrə müntəzir dayanan mirzəyə acıqlı səslə əmr etdi:

- İkinci məktubu yaz. Yaz ki, mənə Hüseynin qətli, onun kəsilmiş başı lazımdır. Yaz ki, nə qədər ki, o yaşayır, mən sakit ola bilmərəm. O biriləri ilə sonra da məşğul olmaq olar. Ancaq Hüseyn ibn Əli beyət etməsə, qətlə yetirilməlidir. Sonra yaz ki, Vəlid bin Ütbə, tapşırığı yerinə yetirməsən vəzifəni təhvil ver. Yaz və elə indi göndər.

Elə həmin gün Mədinədən gələn ikinci xəbər Yezid ibn Müaviyəni daha da qeyzləndirdi. Mədinə hakimi onun tapşırığını yerinə yetirməmiş, əksinə, Hüseyn ibn Əlinin (ə) öz əhli-əyalı və qohumları ilə birlikdə Məkkəyə getməsinə şərait yaratmışdı. Yezid Mədinə hakiminin vəzifədən azad olması barədə fərman verdi.

Hüseyn ibn Əlinin (ə) Məkkəyə getməsi işi bir qədər çətinləşdirmişdi. Yezid yaxşı bilirdi ki, məkkəlilərin Əhli-beytə rəğbəti böyükdür. Orda Hüseyn ibn Əlini (ə) açıq-

aşkar camaatın gözü qabağında aradan götürmək mümkün olmayacaqdı. Əksinə, elə bir tədbirə əl atsa, Məkkə əyanlarını öz üzərinə qaldıracaqdı. Ona görə də dərindən fikirləşib hiylə və siyasətə əl atmaq qərarına gəldi. Bir tərəfdən də kufəlilərin Əhli-beytə, xüsusilə Hüseyn ibn Əliyə (ə) meyilli olmaları Yezidi daha ehtiyatlı olub hiyləgər siyasət işlətməyə məcbur edirdi. Əgər Kufə, Mədinə və Məkkə əhalisi Hüseyn ibn Əlinin (ə) tərəfinə keçsə, təzəcə keçdiyi taxtında rahat otura bilməyəcəyi bəri başdan ona bəlli idi.

Yezid düşünür, var-gəl edir, İmam Hüseynin (ə) timsalında çox güclü müxalifətlə qarşılaşdığını duyurdu. Pəncərə önündə dayanıb həyəti seyr edən Yezid sarayın keçid qapısında gözətçiləri dəyişən Xəlil ibn Vahabı görcək ağlına başqa fikirlər gəldi. Özünün həmyaşıdı olan bu ucaboy qamətli əsgər bütün ov səfərlərində onunla birlikdə olmuşdu. İndi isə şəxsi mühafizəçisi idi. İki gün idi ki, Yezid onu ən inanılmış adamı kimi saray gözətçilərinə və mühafizə dəstəsinə rəis təyin etmişdi. Yezid artıq sınayıb təcrübədən çıxartmışdı ki, bu etibarlı mühafizəçi onun ən sədaqətli adamlarından biridir. Buna görə də ağlına gələn fikri onunla bölüşmək üçün gözlərini pəncərədən ayırmadan əlini-əlinə vurub qulamını çağırdı. Qapının açılması ilə xidmətçinin içəri daxil olması bir oldu. Yezid nəzərlərini keçid qapısından çəkmədən ötkəm halda dilləndi:

- Tez mühafizə rəisini çağır yanıma!

Qulam gedəndən sonra Yezid pəncərədən ayrılıb dəli adamlar kimi ucadan qəh-qəhə çəkdi. Sonra sifətində ciddiləşib ancaq özü eşidəcəyi bir səslə:

- Mən səni atan Əlinin doğulduğu Kəbə evinin yanında öldürtdürəcəm, Hüseyn! - deyə pıçıldadı. - Sən mənə mane ola bilməzsən. Dövlət işi paklığı və müqəddəsliyi sevmir. Taxtı ancaq hiylə və siyasət qoruyub saxlaya bilər. Atan Əlinin, qardaşın Həsənin getdiyi yerə göndərəcəm səni.

- Əmrinizə müntəzirəm, qibleyi-aləm. - Təzə mühafizə rəisi bunu deyib, qapının yanımda diz çökdü.

- Qalx yanıma gəl - deyə Yezid keçib taxtında əyləşdi.

Təzə vəzifə almış Xəlil ibn Vahab bütün varlığı ilə xəlifə Yezidə diqqət kəsildi.

- Hazırlaş Həcc mərasiminə. Həm Allah evini ziyarət edərsən, həm də xilafətin mənafeyi naminə bir tapşırığı yerinə yetirərsən.

- Nə tapşırığınız olsa, yerinə yetirməyə hazıram. Təki siz mənə əmr edin, qibleyi-aləm, - deyən təzə mühafizə rəisi yaltaq bir görkəm alaraq yumşaqcasına dilləndi.

- Mənim düşmənim kimdir ey ibn Vahab? - deyə Yezid qəfildən soruşdu. Və gözlərini qıyıb sınayıcı bir nəzərlə mühafizə rəisinə baxdı.

Təzə rəis həm qəfil verilmiş bu sualın, həm də Yezidin kəskin baxışlarının ağırlığından özünü itirən kimi oldu. Bir anlığa fikrə getdi. Sonra dərs əzbərləyən bir uşaq cəldliyi ilə cavab verdi:

- Hüseyn ibn Əli, qibleyi-aləm!

Rəisin hazırcavablığı Yezidin ürəyincə oldu və birbaşa mətləbə keçdi.

- Həcc mərasimində Hüseyn ibn Əlinin başı bədənindən üzülməlidir. Vaxta o qədər də çox qalmayıb. Xüsusi bir dəstə hazırla. Elə bir dəstə ki, qılınc çalmaqda və ox atmaqda mahir olsunlar. Vəssalam. Dəstə tam hazır olanda

mənə məlumat verərsən. Hüseyn ibn Əlinin qətl tədbirini özüm hazırlayacam.

Gecədən xeyli keçməsinə baxmayaraq, Yezid ibn Müaviyə İmam Hüseyn əleyhisəlamı necə qətlə yetirmək barədə düşünürdü. Atası Müaviyənin vəsiyyətinə görə Əli övladlarını ortadan götürməmiş heç bir ciddi iş görmək istəmirdi. İndi onu yalnız və yalnız beyətdən çəkinən İmam Hüseyni (ə) məhv eləmək düşündürürdü.

***

Qədim Hicaz torpağının hər qarışı İmam Hüseyn (ə) üçün doğma və əziz idi. Bu torpaq onun ulu məskəni, atasının, babasının doğulub boya-başa çatdığı yer idi. İmam Hüseyn (ə) Mədinədə doğulub orda boya-başa çatsa da, həmişə Məkkəni ulu Vətəni hesab etmişdi.

Məkkə əyanları İmamın gəlişindən hədsiz şad olmuşdular. Onlar hər gün İmam Hüseyni (ə) ziyarət edir, məsciddə ondan arxada sıralanıb namaz qılır, peyğəmbər övladını darıxmağa, qəm-qüssə çəkməyə qoymurdular. Ancaq özünü qəzavü-qədərin ixtiyarına buraxan İmam Hüseyn (ə) ötən hər bir günü iztirab və məşəqqət içərisində keçirirdi. O, adamlarla söhbətləşsə də, onların məsləhətinə qulaq assa da, fikri-xəyalı xilafəti təmizləyib möhkəmləndirməkdə idi. O, qanı və canı bahasına olsa da dözülməz zülmə qalib gəlməli, müqəddəs islama nicat gətirməli idi. İmamət sirlərinə əsasən o, gedəcəyi yolun əzablarını görürdü. O bu əzaba hazır idi. Allah-Təalanın babasına nazil etdiyi Quranın müqəddəsliyini qorumaq, insanların beynində müqəddəs islamla bağlı çevriliş

yaratmaq üçün bütün işgəncələri qəbul etmişdi. Ancaq müqəddəs şəhidlik məqamına yetmək üçün hələ o, mübarizə aparmalı, döyüşməli idi. Buna görə də İmam Hüseyn (ə) özü istəsə belə Məkkədə adi və süst bir həyat keçirə bilmirdi. Onun bütün söhbətləri, xütbələri adı müqəddəs islama ləkə vuran Yezid və onun zülümkar hakimiyyətinə qarşı yönəlmişdi.

İmam Hüseynin (ə) Mədinədən Məkkəyə gəlməsi və Yezidə beyət etməkdən imtina edib ona qarşı çıxması ildırım sürətilə xilafətin bütün şəhər və əyalətlərinə yayılır, söhbətlərin baş mövzusuna çevrilirdi. İmamın Məkkəyə gəlişindən xəbər tutan Kufə əyanları da onun ətrafında birləşib Yezidi devirmək üçün söhbətlər aparırdılar. Kufə əyanlarının bir dəstəsinin yazdığı məktub artıq İmam Hüseynin (ə) əlində idi.

Kufədən gələn ilk məktubu şam işığında dönə-dönə oxuyan İmam Hüseyn (ə) xeyli fikrə getdi. «Deməli, insanların heç də hamısı dinsiz deyilmiş. Deməli, zülm zəncirini qırıb-parçalamaq istəyən kişilər var imiş. Deməli, haqqın ədalətin sırası hələ tam pozulmayıbmış...»

Bu ilk məktub İmamı riqqətə gətirdi, gövrəltdi. Onun hisslərini coşdurdu. Mübarizəyə ruhlandırdı. Hiss etdi ki, zülm və haqsızlığa qarşı apardığı mübarizədə tək olmayacaq. Elə günü sabah o, Kufəyə yola düşməyə hazır idi. Ancaq bu vaxt Məkkəyə gələrkən yolda onu ziyarət edən zəvvarlardan birinin dediyi sözlər qulaqlarında səsləndi: «Kufəlilərə heç vaxt bel bağlama. Onların vədlərinə inanma». İmam Hüseyn (ə) ayağa qalxıb var-gəl etdi. Gecədən xeyli keçdiyindən dərdini bölüşmək, məsləhətləşmək üçün kimsə oyaq deyildi. O, yenə ulduzları seyr etmək, səhranın gecə sakitliyində tək-

tənha qalmaq üçün həyətə çıxdı. Qəribə idi. Burda ulduzlar ona daha yaxın göründü. O, üzünü təzə çıxmış aya tərəf tutub salavat çevirdi. Ay işığında Kəbə evini, səmaya dikələn məscid minarələrini seyr etdi. Ürəyindən əzan səsi eşitmək keçdi. Ancaq hələ məscid minarələrindən eşidiləcək sübh əzanına çox var idi. «Bəs Burir ibn Xuzeyrin səsi niyə gəlmir?» - deyə İmam Hüseyn (ə) öz-özünə narahat oldu. Sonra asta addımlarla qonşu evə yaxınlaşdı. Bir neçə addım atmamış şirin Quran avazı onun şübhələrinə son qoydu. Neçə illər idi ki, bu mömin insan hər gecə Quran xətm edirdi. İmam Hüseyn ona «Seyyidül-Qurra» adı vermişdi. Seyyidül-Qurranın şirin avazı gecənin bu sakitliyində İmam Hüseynin tarıma çəkilmiş, gərilmiş əsəblərinə sığal çəkdi. O bu qoca abidə mane olmamaq üçün yenidən həyətdə var-gəl etməyə başladı. İndi onun müsahibi ulduzlar idi. O, səmanın ulu ənginliyində sanki babası Rəsuli-Əkrəmin (s) vəd etdiyi əbədi məkanını axtarırdı.

Kufədən bir-birinin ardınca məktublar gəlməsinə baxmayaraq, İmam hələ qəti sözünü deməmişdi. Nə isə daxilindəki gizli bir qüvvə Kufədən gələn adamlarla açıq danışmaqdan onu çəkindirirdi. Çox ehtiyatla hərəkət edən İmam özündən əvvəl Kufəyə nümayəndə göndərməyi qərara aldı. Bu nümayəndə elə adam olmalıydı ki, ona daha səhih məlumat verə bilsin. Yalnız həmin nümayəndənin «hə» cavabından sonra İmam Hüseyn (ə) Kufəyə yollana bilərdi. «Bəs Kufəyə kimi göndərməli?» - deyə İmam Hüseyn (ə) fikirləşdi. Bütün dostlarını, əshabələrini xəyalında canlandırdı. Əhli-Beytin taleyi ilə, hakimiyyət dəyişikliyi ilə, İslamın gələcəyi ilə bağlı olan bu suala əlbəttə, cavab tapmaq çətin idi. Kufəyə gedən adam həm nüfuzlu, həm

siyasətcil, həm də cəngavər bir döyüşçü olmalı idi. İmam Hüseyn (ə) fikirləşə-fikirləşə yenə nəzərlərini səmaya dikdi. Sanki bu çətin suala cavab tapmaqda ulu göylərdən imdad dilədi. Bir də onunla birlikdə olan əshabələrini xəyalında canlandırdı. Müslüm ibn Əqilin adını öz-özünə pıçıldayarkən nəyi isə kəşf eləmiş adamlar kimi ucadan dilləndi: «Bəli, bu işin öhdəsindən mənim ən yaxın sirdaşım, əmim oğlu Müslüm ibn Əqil gələ bilər».

İmam öz səsinə özü diksindi. Elə gecənin bu vədəsində onu yuxudan oyadıb tapşırığını vermək istədi. Ancaq hansı bir daxili qüvvəsə onu səbrli olmağa məcbur etdi.

***

- Mən sənə özüm qədər inanıram Müslüm ibn Əqil. Sən qardaşım qədər yaxın və doğmasan. Ona görə də kufəlilərin məktublarına cavab olaraq səni elçi kimi ora göndərirəm. Əhli-Beytin taleyi sənin fəaliyyətindən və cavabından asılıdır. Mən yalnız sənin razılıq məktubundan sonra Kufəyə hərəkət edəcəyəm.

İmam Hüseyn (ə) bu sözləri deyib diqqətlə Müslüm ibn Əqilin gözlərinə baxdı. Yox, bu sınayıcı nəzər deyildi. Müslüm ibn Əqil artıq çox imtahandan üzü ağ çıxmış, yaxın bir qohum kimi İmama sədaqətlə xidmət göstərmişdi. Sadəcə o, Müslümün baxışlarındakı sədaqətin əksini görmək üçün nəzərlərini ona tuşlamışdı.

Çoxlarının qaradinməz hesab etdiyi Müslüm əslində danışmaqdan daha çox iş görməyi, fəaliyyət göstərməyi xoşlayırdı. Bütün varlığı ilə İmam Hüseynə (ə) bağlı olan Müslüm indi də İmamın hər bir əmrini yerinə yetirməyə

hazır idi. Ən məsuliyyətli işin ona həvalə edilməsi Müslümü qəlbən sevindirirdi də. Ancaq nə minnətdarlıq edib sevincini bildirməyə, nə görəcəyi iş barədə söhbət etməyə söz tapmırdı. Ona görə də verəcəyi cavabı keçikdirirdi. Lakin İmamın zəndlə ona baxdığını, cavab gözlədiyini görüb qeyri-ixtiyari dilləndi:

- Kufəyə nə vaxt çıxmalıyam?

- Elə bu gün, elə indi, - deyə İmam Hüseyn (ə) coşğunluqla bildirdi. O, ötən hər anın, hər günün Yezidin xeyrinə olduğunu bilirdi. Ona görə də bu din düşməninə qarşı qəzəbini soyuda bilmirdi. Əlində ixtiyar olsaydı, müqəddəs İslama ləkə gətirən, şərab düşgünü və əxlaqsız Yezidi devirmək üçün elə indi Şama qoşun çəkərdi.

Müslüm ibn Əqilin şücaəti İmamı zülm və haqsızlığa qarşı mübarizəyə coşdurmuşdu. O, Müslüm ibn Əqili yola salandan sonra bütün islam vilayətlərindəki nüfuzlu adamlara məktublar yazmağa başladı. Bu məktublar müxtəlif ünvanlara göndərilsə də, məzmunu təxminən eyni idi. İslamı xilas etmək üçün ayağa qalxmalı, Yezidə qarşı mübarizə aparmalı.

***

Həmişə ictimai mərkəz olan Kufə yenə od üstündəki qazan kimi qaynayırdı. Bazar və dükanlar bağlanan kimi adamlar bir yerə toplaşır, son hadisələrdən - Yezidin hakimiyyətə gəlməsindən, İmam Hüseynin (ə) Mədinədən Məkkəyə getməsindən danışırdılar. Müslüm ibn Əqilin şəhərdə peyda olması kufəliləri daha da ruhlandırmış, Yezid hakimiyyətinə qarşı etiraz dalğasını gücləndirmişdi. Qısa

müddət ərzində on səkkiz min nəfərdən çox adamın İmam Hüseynə (ə) beyət etməsi Müslüm ibn Əqili Məkkəyə məktub yazıb İmamı Kufəyə çağırmağa sövq etdi.

Şəhər valisi Nüman ibn Bəşir öz sarayında heç bir sözü, əmri eşidilməyən quru bir müqəvvaya, bədbəxt bir insana çevrilmişdi. O, dəfələrlə şəhər əyanları ilə söhbət edib, onları Müslüm ibn Əqil ilə həmfikir olmaqdan yayındırmağa çalışsa da sözlərini eşidən olmamışdı. Xalqın qəzəbindən qorxan vali Müslüm ibn Əqil barədə ciddi tədbir görməyə ehtiyat edirdi. Məsciddə minbərə çıxıb danışması da kufəliləri fikrindən döndərməmişdi. İndi onun şəhəri tərk edib getməkdən başqa çarəsi qalmamışdı.

Kufədə yaranan yeni ab-hava Yezid tərəfdarlarını bərk narahat edirdi. Məsciddəki son toplantıdan sonra onlar bir tərəfə çəkilib pıçıldaşmağa, vəziyyəti müzakirə etməyə başladılar. Şəhərin məşhur əyanlarından olan Ömər ibn Səd daha çox hirslənmişdi. Yezid tərəfdarı olan bu cavan İmam Hüseynə (ə) olan kinini indiyə kimi gizli saxlasa da şəhər valisinin nüfuzdan düşdüyünü, Müslüm ibn Əqilin adamları öz tərəfinə çəkməsini qəbul edə bilmirdi. Ona görə də şəhərdə Yezidin casusu kimi tanınmış Əmmar ibn Vəlid onu söhbətə çəkəndə maraqla onu dinlədi.

- Bu vali lap maymağın biri imiş ki, - deyə Əmmar ibn Vəlid birbaşa mətləbə keçdi. Ömər ibn Səd yuxarıdan aşağı bu putluq daşa oxşayan sallaqqarın şişman əyanı süzüb qəzəbini gizlətdmədi.

- Yox, maymaq deyil. Əksinə, çoxbilmiş və hiyləgərdir. Görmürsən, sözlərinin hamısı boğazdan yuxarıdır. Bir neçə gün də keciksək bu məlunun özü gedib Hüseyn ibn Əlinin ayaqlarına döşənib onu Kufəyə gətirəcək.

- Bəs neyləyək? - deyə Əmmar ibn Vəlid sual dolu baxışlarını Ömər ibn Sədin üzünə dikdi.

- Biz əvvəldən səhv elədik. Gərək Müslüm ibn Əqil Kufəyə gələn gündən onun başını bədənindən üzəydik. İndi nə qədər casus göndərirəm hamısı əliboş qayıdır. Yaxın düşmək mümkün deyil, bütün şəhər o məlunu qoruyur.

- Belə getsə, Kufə əldən çıxacaq, ya Ömər!. Təcili tədbir görmək lazımdır. Məktub yazıb Yezidi bu işdən xəbərdar etməliyik, - deyə Əmmar ibn Vəlid həyəcanla bildirdi.

Qəzəbindən qıvrılıb açılan Ömər ibn Səd ağzının acısını Əmmar ibn Vəlidin üstünə tökdü:

- Namə yazmaq sənin işindir. İndiyə kimi niyə ləngitmisən? Mən döyüşçüyəm. Müslümün yox, Hüseyn ibn Əlinin başını kəsmək üçün qılıncımı itiləyirəm.

Əmmar ibn Vəlid Ömər ibn Sədin qəzəbini soyutmaq üçün:

- Yaxşı, sən qılıncını itiləməkdə ol. Mən günü bu gün sənin və öz adımdan məktub yazıb Yezidə göndərərəm.

Məsciddə valinin çağırışının camaat tərəfindən qəzəblə qarşılanması Müslüm ibn Əqilin ovqatını daha da yaxşılaşdırdı. Artıq o, qasidi yola salmışdı. İmamın yolunu gözləyirdi. Kufə əyanları onu təbrik edir, İmam Hüseynin (ə), Əhli-beytin şəninə təriflər söyləyirdilər.

***

Qara Həbəş qızının rəqsi Yezidi məst etmişdi. O, sanki oynamır, ilan kimi qıvrılıb açılır, quş kimi qanad açıb süzürdü. İndiyə kimi qaradərili qadınlara ikrah hissi ilə baxan Yezid bu gün Həbəş qızının ovsununa düşmüşdü.

Onun daim gülümsəyən şəhvət dolu ətli dodaqları arasından sədəf kimi bərq vuran ağ dişləri, dərya dərinliyini xatırladan iri gözləri, mütənasib bədəni, bir cüt ilana bənzəyən zərif qolları Yezidə zövq və ləzzət verirdi. Ritmik ərəb musiqisi həbəş qızını daha gözəl, zərif və titrək göstərirdi. İlk dəfə idi ki, o, qaradərili qızın rəqsinə tamaşa edirdi. Bu axşam «qara mirvarini» ona təqdim edəndə əvvəlcə qəzəblənib rədd cavabı vermək istəmişdi. Sonra maraq xatirinə sarayına təzə gətirilmiş Həbəş qızının rəqsinə tamaşa etməyə razı olmuşdu. Həmişə Rum, Çin, İran rəqqasələrinə tamaşa edən Yezid heç ağlına da gətirmirdi ki, qara dərili həbəş qızının da gözəli ola bilər. Yezid artıq nə musiqini eşidir, nə də qarşısında ilan kimi qıvrılıb açılan yarıçılpaq həbəş qızının göbək rəqsinə tamaşa edirdi. Onu ancaq bu qara mirvaridən neçə kam almaq düşündürürdü. Bu rəqs həbəş qızının son oyunuydu. Yezid onu hərəmxanaya göndərmək barədə qərarını vermişdi. Artıq o, Həbəş gözəli ilə çəkəcəyi ləzzətin keyfini xəyalən duyur və bədənində axan isti qanın hərarətini hiss edərək xoşhallanırdı.

Qulamın qapıdakı pərdə arxasından boylanması Yezidin nəzərindən yayınmadı. Bu görüntü və baxış onun ovqatını korlasa da, hiss etdi ki, onu hər an narahat etməyə icazəli olan qulam adi bir işdən ötrü belə cürət etməz. Taxt-tacının daim təhlükədə olduğunu bilən Yezid nə isə fövqəladə bir işin baş verdiyini duyub ayağa qalxdı. Elə həmin an musiqi kəsildi. Rəqqasə yerə sərilib Yezidin ayaqları önündə diz çökdü və donub qaldı. Qırmızı tülə bürünmüş həbəş qızı bu halında sanki özü boyda od idi.

Taxtında əyləşən Yezid Kufədən gələn qasidi qəbul etməyə hazır idi. Son vaxtlar o, Kufə, Mədinə və Məkkə

şəhərləri ilə bağlı hər hansı xəbəri dinləməyi bütün işlərindən vacib hesab edirdi. Bu üç şəhər onun ən zəif yeri idi. Qiyama hazırlaşan İmam Hüseyn bu şəhərlərin əhalisinə daha çox arxalanırdı.

Qasidlə birlikdə dəvlət işlərində xüsusi təcrübəsi olan vəzir Sərxun da içəri daxil oldu. Kufədən Yezidin yaxın adamları Əmmar ibn Vəlid və Ömər ibn Səd tərəfindən yazılmış məktub oxunduqca Yezid haldan-hala düşdü. Məktubu sona kimi dinləməyə səbri çatmadı. Qəzəblə qasidin üstünə qışqırdı:

- Bəs Nüman ibn Bəşir nə işlə məşğuldur orda?

- Qibleyi-aləm...

Qəzəblənmiş Yezid üzünü vəzir Sərxuna tərəf tutaraq:

- Nümanın namizədliyini atam Müaviyyəyə sən vermişdin. Tərifləyirdin, dil-boğaza qoymurdun. Deyirdin, onu vali təyin etsək, Kufədən arxayın ola bilərik. Hanı bəs?....

Təcrübəli vəzir təmkinini pozmadan :

- Narahat olmağa dəyməz, qibleyi-aləm. Siz səbr edin, hər işi qaydasına qoyarıq.

- Səbr, səbr, səbr... Nə qədər səbr etmək olar. Vəlid bin Ütbə maymaqlıq eləyib Hüseynin Məkkəyə getməsinə mane ola bilmədi, dedin səbr et. İndi cavab ver. Müslüm ibn Əqil Kufədə Hüseyn ibn Əliyə 18 min nəfərdən beyət toplayıb. Budur, bax. Yazırlar ki, bundan ruhlanan Hüseyn Kufəyə hücum çəkməyə hazırlaşır.

Yezidin qəzəblə əsib çoşması vəzir Sərxunu qətiyyən narahat etmirdi. O bilirdi ki, təcrübəsiz Yezid onun məsləhəti olmadan heç bir iş görə bilməz. Ona görə də yenə təmkinlə asta-asta dilləndi:

- Qibleyi-aləm, hər işin öz məqamı var. Səbirli olun. Və onu da bilin ki, mən Əli övladlarına sizdən az kin bəsləmirəm. Onlar mənim qan düşmənimdir.

Yezid əlini yelləyərək vəzirin sözünü yarımçıq kəsdi.

- Bunların hamısını bilirəm. Artıq səbr etməyə nə hövsələm var, nə də vaxtım. Təcili tədbir tökmək lazımdır. Kufə əldən gedə bilər.

Gecədən xeyli keçməsinə baxmayaraq, Yezid və vəziri Sərxun hələ də yatmamışdı. Onlar Kufədə baş verən hadisələrlə bağlı məsləhətləşirdilər. Artıq Yezidin qəzəbi soyumuş, hiyləgər və tədbirli vəzirin qarşısında müəllimindən dərs öyrənən bir uşağa çevrilmişdi.

- Nüman ibn Bəşiri Kufəyə vali təyin etməyimiz bizim səhvimiz deyil. Hüseyn ibn Əlinin nüfuzunun böyüklüyü, Müslüm ibn Əqilin çalışqanlığı sayəsində o, acizləşib. Günü sabahdan Kufəyə daha qəddar adamı vali təyin etmək lazımdır, - deyə Sərxun adəti üzrə asta-asta danışdı.

Kiçilib, cılızlaşan Yezid vəzirin səsinə uyğun tərzdə acizanə soruşdu:

- Kimi məsləhət bilirsən?

- Bəsrə valisi Übeydullah ibn Ziyadı.

Yezid bu cavabdan diksinən kimi oldu. Və yenə asta bir ahənglə:

- Axı, aldığım məlumata görə, Bəsrədə də vəziyyət yaxşı deyil. Hüseynin tərəfdarları orda da fitnə-fəsad törədirlər.

- Mən Übeydullah ibn Ziyadı yaxşı tanıyıram. İnanmıram ki, Hüseyn Kufədəki kimi Bəsrədə də beyət toplaya. Bir də Hüseynin ikinci Müslümü yoxdur ki, Bəsrəyə göndərsin.

- Onda İbn Ziyada təcili məktub yazıb göndərmək lazımdır ki, Kufəyə vali təyin olunursan. Bəsrəyə isə özü kimi istəyirsə onu da təyin etsin, deyə Yezid qəti fikrini bildirdi.

Yezid və vəziri söhbət edə-edə həyətə çıxdılar. Ayıq-sayıq dayanmış mühafizəçilər və nəzarətçilər onların hər addımını izləyirdilər. Mühafizəçilərin təzə rəisi Xəlil ibn Vahab öz sədaqət və etibarını göstərmək üçün Yezidi addım-addım izləyir, hər sözünə yalandan gülümsünür, əmr gözləyən qul kimi bəzən heykəl kimi lal-dinməz olurdu.

Sağ əli qılıncın dəstəyində farağat dayanmış ucaboy mühafizəçi daş döşəməyə bitili sal qayanı xatırladırdı. O, gözünü belə qırpmadan daş kimi hərəkətsiz dayansa da, Yezid və vəzirin heç bir hərəkətini nəzərdən qaçırmırdı. Məkkədə, Həcc ziyarətində İmam Hüseynə (ə) qarşı törədiləcək sui-qəsdin iştirakçılarının tərkibinə daxil edilmiş mühafizəçi iki gün idi ki, özünü çox rahat hiss edirdi. O, gizli yolla törədiləcək sui-qəsd barədə İmam Hüseynə (ə) məktub göndərmiş, onu işdən hali etmişdi. Artıq gördüyü işin üstü açılsaydı belə, o, narahat deyildi. Çünki üzərinə düşən vəzifəni yerinə yetirmişdi. Atasının etdiyi səhvi düzəltmişdi. Müqəddəs Məkkədə, ziyarətgahda töküləcək qanın qarşısını almışdı.

Ovqatı yaxşılaşmış Yezid mühafizə rəisini yanına çağırdı.

- İşlərin necə gedir, ey Xəlil?

O bu sualla sui-qəsdçilərin Həcc ziyarətinə necə hazırlaşdıqlarına işarə edirdi. Sui-qəsd məsələsi Yezidin vəziri Sərxundan gizli saxladığı yeganə sirr idi.

Hiyləgərlikdə mahir olan mühafizə rəisi çox ustalıqla cavab verdi:

- Qibleyi-aləmin sayəsində bütün işlərimiz qaydasındadır.

Yezid bu sirri istədi vəzirə də açsın. Ancaq nə fikirləşdisə sözləri dilinin ucundan qaytardı. Qara dərili rəqqasə xəyalında canlandı. Vücudunu vəhşi bir şəhvət çulğadı. Bir yırtıcı ehtirası ilə döyünən ürəyindən öz ovunu parçalamaq keçdi. O bu vəhşi istəyin təsiri altında ayaq saxlayıb gecə gəzintisinin sona yetdiyinə işarə etdi.

***

Məkkədəki süst və sakit həyat İmam Hüseyni (ə) artıq darıxdırırdı. O, həcc ziyarətinin başlanmasını gözləməklə bərabər, həm də əmisi oğlu Müslümün çağırış məktubunun intizarındaydı. Həcc mərasiminə o qədər də çox vaxt qalmamışdı. Zəvvarlar müqəddəs torpağa toplaşmaqdaydılar. Onların sayı artdıqca İmamın asudə vaxtı azalırdı. İndi ziyarətə gələnləri bir-bir yox, dəstə ilə qəbul etməyə başlamışdı. Son günlər isə zəvvarlarla görüşünü məsciddə keçirirdi. İmam yaxşı bilirdi ki, onu ziyarət edənlərin arasında Yezidin əlaltıları, xəfiyyələri də var. Bu bədxah adamların istənilən an bir fəsad törədəcəyindən ehtiyat edib mühafizəsini gücləndirmişdi. Oğlu Əli-Əkbər, qardaşı Həzrət Əbülfəzl Abbas, qulamı Firuzan İmamı bir an belə nəzarətsiz qoymurdular. Belə həyəcanlı günlərin birində bütün bunlara baxmayaraq, Şamdan gələn bir qasidin onu təklikdə qəbul etmək xahişini də rədd etmədi. Əli-Əkbərin nəzarəti ilə hücrəyə daxil olan ucaboy, görkəmindən

döyüşçüyə bənzəyən zəvvar İmama təzim edib əlindən öpdü. Çox gizlin saxladığı məktubu ona verib:

- Mənim vəzifəm bu məktubu sizə çatdırmaqdır, deyərək otağı tərk etdi.

İmzasız yazılmış bu məktub İmam Hüseyni dəhşətə gətirdi. Məktubda elə Həcc ziyarətinin birinci günü ona Yezidin əlaltıları tərəfindən sui-qəsd ediləcəyi xəbər verilirdi.

İmam Hüseyn (ə) gözləmədiyi bu xəbərdən sarsıldı. Məktubu bir kənara qoysa da fikrən onda yazılan sətirlərin üzərinə qayıdırdı. «Yox, bu Yezid artıq heç bir hədd, sədd tanımaq istəmir. Müqəddəs Ramazan ayında Kəbədə qan tökməyi günah bilmir». Öz-özünə pıçıltı ilə danışan İmam başını yuxarı qaldıranda oğlu Əli-Əkbərin məsum baxışları ilə qarşılaşdı. Bir andaca oğlunun narahatlığına son qoymaq üçün heç nə olmayıbmış kimi zorla gülümsündü. Ancaq Əli-Əkbər məktubun məzmunu ilə artıq tanış idi. Ata və oğul şam işığında bir-birinə baxıb susdular. Əli-Əkbər atasının haldan-hala düşdüyünü görüb sükutu pozdu:

- Bəlkə uydurmadır. Bəlkə bu da bir hiylədir.

- Yox, əziz oğlum. Hiylə deyil. Yezid də atası Müaviyə kimi bizim qanımıza susayıb. Onun sui-qəsd hazırlayacağını mən duymuşdum. Sadəcə bu işi Həcc ziyarəti zamanı müqəddəs Kəbə evinin yanında yerinə yetirmək istəməsi məni hövsələdən çıxardır. Məkkə bizim ulu nəslimizin məskənidir. Burda mən qan tökülməsinə, nifaq yaranmasına razı ola bilmərəm. Bura müqəddəs torpaqdır. Bizim ətimiz, qanımız da bu torpaqla bağlıdır. Bir də ki...

İmam qəhərlənib sözünün ardını deyə bilmədi. Yanağında gilələnmiş göz yaşlarını oğlundan gizlətmək

üçün üzünü yana çevirdi. Ancaq Əli-Əkbərin sual dolu məsum baxışlarını cavabsız qoymağa da qıymadı. Əvvəlki sözünün üstünə qayıdaraq dedi:

- Bir də ki, qəzavü-qədərin karvanı bizi başqa səmtə çəkir.

- Əmim Müslümdən bir xəbər gəlsəydi, - deyə Əli-Əkbər dərindən köks ötürüb söhbətin axarını dəyişdi.

- Gələr inşallah. Ürəyimə damıb. Bu günə, sabaha Kufədən şad bir xəbər alacağıq.

«Şad xəbər» gəlməsini İmamın dili desə də, ürəyi qəbul etmədi. Bəla və müsibət şərtlərini qəbul etmiş İmam üçün indi şadyanalıqdan danışmaq heç də yerinə düşmürdü. Ancaq oğlunu ovundurmaq, ona təsəlli vermək üçün başqa nə deyəydi ki. «Hər şey Böyük Yaradanın məsləhəti ilə olacaq. Onun əmrindən kənarda heç bir hadisə baş verə bilməz. Bizə yalnız Ulu Tanrının göstərdiyi yol məqbuldur» - deyə İmam Hüseyn (ə) öz-özünə düşündü.

Əli-Əkbər getmişdi. İmam Hüseyn (ə) yenə hücrədə tək qalmışdı. Son vaxtlar o, tənha qalmağa daha çox meyl edirdi. Belə anlarda İmam xatirələri ilə, fikir və düşüncələri ilə birlikdə olur, öz-özüylə söhbət edirdi. İndi də o, Müaviyə ibn Əbu Süfyanla görüşünü xatırladı. Mədinədə olan bu görüş zamanı hiyləgər Müaviyə özünü çox qayğıkeş, səmimi və mehriban göstərdi. Ancaq bu zahiri ədəb-ərkan İmamı aldatmadı. Ürəyindən keçənlərin hamısını bütün sərtliyi ilə Müaviyənin üzünə vurdu. Müaviyə isə heç nə olmayıbmış kimi yenə İmam Hüseyndən (ə) vəliəhd Yezid üçün beyət etməyi xahiş etdi. Bütün bunlardan sonra Müaviyənin ondan bu cür rica etməsi İmam Hüseyni (ə) heyrət və dəhşət gətirdi. Bu cür yaltaq və riyakar adamların İslama rəhbərlik

etdiyinə acıdı. İmam Hüseyn (ə) bilirdi ki, Yezidlə də qarşılaşsa, o da atası Müaviyə kimi onunla ədəb-ərkanla görüşəcək, qarşısında təzim edəcək, üzdə gülüb, arxada ayağının altını qazacaq. Ancaq Yezid kimi bir din düşməni ilə İmam Hüseyn (ə) nəinki görüşməyi, heç rastlaşmağı da özünə rəva bilmirdi.

«Gör bu Yezid yolunu nə qədər azıb ki, Həcc ziyarəti zamanı mənə sui-qəsd hazırlayır. Yox-yox burda təəccüblənməli heç nə yoxdur» - deyə İmam Hüseyn (ə) öz-özünə düşünürdü, - Məgər atam Əliyyəl-Mürtəza məsciddə namaz qılan vaxt qılıncla zərbətlənmədimi? Qardaşım İmam Həsən öz evində, ocağının başında öz qadını tərəfindən zəhərlənmədimi? Bütün bunlar Əbu-Süfyan nəslinin əməlləri deyildimi? İndi Yeziddən başqa nə gözləmək olar. Mən öz ata-babamın tutduğu yolu davam etdirdiyim kimi, o da öz ata-babasının əməllərini təkrar etmək istəyir... Daha yetər. Bu müqəddəs torpaqda qan tökülməsinə, hərc-mərclik yaranmasına yol verə bilmərəm».

Gecədən xeyli keçməsinə baxmayaraq, İmamın zənci qulamı Firuzan çöldə qapının ağzında sakitcə dayanmışdı. Onun sifətindəki səmimiyyət, menribanlıq İmamı fikir və xəyallar aləmindən ayırıb ona toxtaqlıq verdi. İmam Hüseyn (ə) Firuzana heç bir söz demədən onun yanından ötüb çölə çıxdı. Firuzan təbəssümlə baş əyib İmama yol verdi. Gecənin qaranlığında zəncinin təbəssümü ay işığına bənzədi. Elə İmamı çevrilib arxaya baxmağa sövq edən də bu təbəssüm oldu.

- Ey Firuzan yaxın gəl, - deyə İmam səsləndi.

Uca boylu, dəmir əzələli Firuzan bir göz qırpımında İmamın qarşısında dayandı.

- Səndən bir söz soruşacam, - deyə İmam Hüseyn (ə) Firuzanın səmimiyyətlə dolu olan çöhrəsinə baxıb bir qədər fikrə getdi.

- Buyruq sizindir, ya İmam, - deyə Firuzan təbəssümlə dilləndi.

- Mən səni azad edəndə niyə çıxıb getmədin öz diyarına?

Bu qəfil suala Firuzan həmin an cavab tapa bilmədi. Başını aşağı salıb bir qədər fikrə getdi. Bu bir neçə anın içərisində bütün olub keçənlər bir şimşək çaxımı sürətilə gözləri önündən gəlib keçdi. Sonra başını yuxarı qaldırıb nəzərlərini İmamın nurlu çöhrəsinə dikdi. Ağır-ağır və zorla eşidiləcək bir səslə dilləndi:

- Siz məni azad edəndən sonra İslamı qəbul edib ömrümün axırına kimi sizə xidmət edəcəyimə and içmişəm.

İmam Hüseyn (ə) həmin hadisəni yaxşı xatırlayırdı. Firuzanın da onun ən yaxın adamlarından biri olduğunu bilirdi. Sadəcə gecənin bu vaxtında təzədən bu söhbətə qayıtmaqla öz qulamının sədaqətini bir daha görmək və onun xoş sözlərini dilindən eşitmək istəyirdi. İmam Hüseyn (ə) adamlarda sədaqət və etibar görəndə gücü daha da artırdı. Nankorluq və riyakarlıqla qarşılaşanda isə əlini bu dünyadan üzürdü. İndi Firuzanın dediyi son sözlər, onun sifətindəki inam və iman onun gərilmiş əsəblərinə bir sığal çəkdi. İmam Hüseyn (ə) tam yəqinliklə inandı ki, bu dünyada onun ən doğma, yaxın adamlarından biri də zənci xidmətçi Firuzandır. Əgər şəhidlik mərtəbəsinə ucalıb, cənnətdə ali bir məkan bulsa, Firuzan da onun yanında olacaq.

***

Gecənin qaranlığında üzü rübəndli atlını görən kufəlilər İmam Hüseynin (ə) şəhərə təşrif gətirdiyini zənn edib hamılıqla küçəyə çıxmışdılar. Onlar atlıya yaxınlaşır, üzlərini atın üzəngisinə sürtür, sevinclərini gizlətmirdilər. Alqış və dua sədaları bütün şəhəri başına götürmüşdü. Öz tərəfdarları ilə məşvərət edən Müslüm ibn Əqil bu xəbərdən heyrətləndi. Bu tezliklə göndərdiyi məktubun Məkkəyə gedib çatmasını, İmam Hüseynin (ə) Kufəyə gəlməsini gözləmirdi. O, yaxşı bilirdi ki, İmam Hüseyn (ə) onun razılıq məktubunu almayınca hərəkət etməyəcəkdi. Buna baxmayaraq, Müslüm yenə dostları ilə birlikdə küçəyə çıxdı. Onun qırğı gözləri şəhər əhalisinin əhatəsində olan atlını həmin andaca gördü. Bəli, o, zəndində yanılmamışdı. Üzü rübəndli atlı İmam Hüseyn (ə) deyildi. O, adamları yara-yara vali sarayına tərəf getdi. Atlının da həmin isqirамətə tərəf gəldiyini artıq o, duymuşdu. Sarayın qarşısında da qələbəlik idi. Buna baxmayaraq, şəhər hakimi Nüman ibn Bəşir hələ sarayın darvazasını açdırmamışdı. Müslüm ibn Əqil ora çatar-çatmaz Nüman ibn Bəşirin uca səsi bura toplaşmış adamların hay-küyündən daha aydın eşidildi. Atlının gəlişindən vahiməyə düşən Nüman ibn Bəşir uca səslə bildirdi:

- Ey peyğəmbər övladı, gəl sən törədiləcək fitnə-fəsada bais olma. Və heç də inanma ki, Yezid Kufəni sənə bağışlaya. Mən onsuz da sarayın qapısını sənin üzünə açmayacağam. Yaxşısı budur burdan uzaqlaşıb səhəri gözlə.

Saray darvazasının üstünə çıxıb qışqıra-qışqıra danışan Nüman ibn Bəşirin səsi bu sözlərdən sonra eşidilməz oldu. Təlatümə gəlmiş insan dalğası şəhər hakiminin sözünü kəsərək onu hədələməyə başladı.

Özünü darvazanın yanına çatdıran Müslüm ibn Əqil hündür bir yerə çıxıb üzünü camaata tutdu:

- Ey camaat! Hiyləyə uymayın. Təntənə ilə gətirdiyiniz bu atlı Hüseyn ibn Əli deyil.

Gözlənilməyən bu bildiriş getdikcə dalğası güclənən səs axınını yavaşıtdı. Adamların şadlıq təbəssümü dodaqlarında dondu. Əlləri havada qaldı.

- Bu kimdir? Nə danışır? Rədd eləyin o mürtədi ordan! - Müslüm ibn Əqilin üstünə hücumlar başlandı. Qaranlıq olduğundan kufəlilər onu tanıya bilmirdilər.

Müslüm ibn Əqil vəziyyətin gərginləşdiyini görüb yenə gücünü səsinə verdi:

- Mən Müslüm ibn Əqiləm. İmamın səfiriyəm. İnanmırsınız mənə? Onda ona deyin rübəndini açsın.

Müslüm ibn Əqilin dediyi axırıncı sözlər yenə adamların əl-qolunu boşaltdı. Bir anlıq tərəddüddən sonra baxışlar atlıya zilləndi. «Doğru deyir, aç rübəndini», «yəbnə rəsulullah, rübəndini üzündən götür, düşmənlər xar olsun».

Camaatın hücüm və təkidindən çaşqınlaşmış atlı çıxış yolu tapmayıb üzündəki rübəndi götürdü. Meydanı uğultu bürüdü. Şəhər hakimi Nüman ibn Bəşir Übeydullah ibn Ziyadı tanıyıb cəld sarayın darvazasını açdırdı. Camaatın ona bir xətər yetirməməsi üçün saray mühafizəçiləri atlını əhatəyə alıb içəri apardılar.

Çox qısa müddətdə vəziyyətin belə gözlənilməz halda dəyişilməsi Kufə əhalisini haldan-hala saldı. Əvvəlcə onlar

Müslüm ibn Əqilin ətrafına toplaşıb elə bu gecə qiyam etmək istədilər. Sonra nə fikirləşdilərsə məsələnin həllini sabaha saxladılar.

Müslüm ibn Əqil artıq vəziyyətin gərginləşdiyini hiss etdiyindən gecəni yatmayıb yollar aradı. O, İmam Hüseynə (ə) razılıq məktubu göndərməkdə tələsdiyini duymuşdu. Bu gecə onun sözündən çıxıb qəti hərəkət etməkdən ehtiyatlanan kufəlilərə sabah üçün də bel bağlamırdı.

Yezidin fərmanı ilə İbn Ziyadın Kufəyə vali təyin olunması xəbəri sübh tezdən bütün şəhərə yayıldı. Çox keçmədi ki, hökumət divanında əyləşən İbn Ziyad özü öz valiliyini Kufə əhlinə xəbər verdi.

***

Müslüm ibn Əqil meydanda tək qalmışdı. Onun ən yaxın dostları Hani ibn Ürvə, Məhəmməd ibn Kəsir və başqaları həlak olmuş, Muxtar əbu Übeydə, Süleyman Sürəd-Xüzai öz qoşunu ilə şəhərdən çıxmışdı. O nə bacarırdısa etmişdi. İki dəfə böyük qoşun toplayaraq İbn Ziyadın sarayına hücum etmiş, qələbəyə yaxın olduğu bir vaxtda kufəlilərin hərdəmxəyallığı üzündən fürsəti əldən vermişdi. Yezidin Şamdan göndərdiyi qoşun İbn Ziyadın köməyinə çatandan sonra isə topladığı dəstənin adamları ondan üz döndərərək qaçıb gizlənmişdilər. İndi Müslüm son döyüşə hazırlaşırdı. Sığınacaq tapdığı evin sahibi tərəfindən satıldığını duymuşdu. Bilirdi ki, bir azdan ölüm-dirim savaşına girəcək. İki günlük yuxusuzluq onu taqətdən salmışdı. Qılınc çalmaqdan əlləri qabar olmuş, qolları heydən düşmüşdü. Ağır dəmir zireh indi ona əlavə bir yük

kimi görünürdü. Bütün bunlara baxmayaraq Müslüm ibn Əqil özünü döyüşə hazırlayırdı.

Atların nal səsləri küçədə eşidilirdi. Müslüm ibn Əqil əllərini göyə açıb üzü Məkkəyə dayandı.

- Ya Rəbbim, bağışla bu günahkar qulunu. Mən əlimdən gələni etdim.

Müslümün pıçıltı ilə dediyi bu sözlərdən sonra gözləri yaşardı. Uşaq kimi hönkür-hönkür ağlamağa başladı. Sonra hıçqırıqlı səslə:

- Ya Rəsulullah, yanına günahkar kimi gələcəm. Qoruya bilmədim sənin əziz xələfini... Ya Hüseyn, ya Əlinin gözünün nuru, ya bütün müsəlmanların başının tacı, əfv et məni. Tələsdim sənə məktub yazmaqda. Gəlmə, ya Hüseyn, Kufəyə gəlmə. Bu hərdəmxəyallar, əqidəsizlər səni də güdaza verəcəklər.

- Hanı? Harda gizlənib o məlun? - Bağırtı ilə deyilmiş bu sözlər Müslüm ibn Əqili xəyaldan ayırdı.

Bayaqdan kövrəlmiş Müslümün sifəti bu səsdən sonra ciddiləşdi. Baxışları itiləşdi, sərt bir görkəm aldı.

- Ya Rəbbim, İmamımız Hüseyn ibn Əli yolunda bir qoşunla təkbətək döyüşə gedirəm. Sən özün İmamımızı hifz elə.

Müslüm ibn Əqil «Allah, Məhəmməd, Ya Əli» deyib qılıncını çəkərək qapıya sarı şığıdı. Onun bir zərbəsindən sonra içəri daxil olmaq istəyən üç əsgər qapı ilə birlikdə yerə sərildi. Həyətə çıxaraq düşmən əsgərlərinin üstünə hücum çəkdi. Əsl qanlı döyüş başladı. Kiçik həyətdə əsgər cəsədindən tərpənməyə yer yox idi. Vahiməyə düşən dəstə başçısı Məhəmməd Əşəs əlavə qüvvə üçün İbn Ziyadın yanına adam göndərdi. 300 nəfərlik dəstə Müslüm ibn Əqillə

döyüşdə qalib gələ bilmirdi. Kiçik həyətə hamılıqla daxil ola bilməyən əsgərlər bu minvalla Müslümü məğlub edə bilməyəcəklərini görüb damlarının üstünə çıxdılar. Buradan onu oxla vurmaq çətin deyildi.

Qoşun başçısı Məhəmməd Əşəs xeyli canlı qüvvə itirdiyini görüb döyüşü dayandırdı. Uzaqdan Müslümü səslədi:

- Ey Müslüm, tək-tənha bir qoşunla döyüşdə nə hasil edə biləcəksən? Silahını at yerə. Özünü mənə təslim et. Mən səni İbn Ziyadın yanına aparıb ondan aman istəyərəm.

Arxasını divara söykəyib üstünə gələn əsgərlərin qılınc zərbələrini dəf edən Müslüm Məhəmməd Əşəsin səsini eşitmirdi. O araya sakitlik çökdüyünü, daha üstünə hücum edilmədiyini görüb, yenə əmisioğlu İmam Hüseyni (ə) xatırladı. Onun hesablamasına görə, göndərdiyi məktub bu gün Məkkəyə çatmalı və İmam Hüseyn (ə) ordan çıxıb Kufəyə hərəkət etməli idi. Susuzluqdan yanan dodaqları bu sözləri pıçıladı: «Sən özün İmama, Əhli-beytə kömək ol, ya Rəbbim!»

- Niyə cavab vermirsən? Dinsənə?! - deyə Məhəmməd Əşəs yenidən bağırdı.

- Lənət sənə də, sənin qoşununa da, sənin hökumətinə də! - deyə Müslüm bütün gücü ilə qışqırdı, - Lənətə gələsiniz hamınızı. Məlunlar, riyakarlar, alçaqlar. Onsuz da qiyamət günü Allah-Təala hamınızın cəzasını verəcək.

Artıq dam üzərinə çıxmış əsgərlər Müslümü oxa tutdular.

Müslüm iki əli ilə qılıncın dəstəyindən tutub yenə döyüşmək istəyir, yaralarından qan sıza-sıza deyirdi:

- Gəlin, hamınızı qıracam, məlunlar.

Məhəmməd Əşəs uzaqdan qışqırıb əmr verdi:

- Yetər, daha ox atmayın, öldürməyin, diri tutun onu!

Müslümün artıq qılınc çalmağa taqəti qalmamışdı. Dizləri qatlanmasın deyə, qılıncı yerə sancıb ona söykəndi. Nəfəsi də ağır-ağır gəlirdi. Bunu görən Məhəmməd Əşəs cəld onu tutmaq işarəsi verdi. Beləliklə, hər tərəfdən hücum çəkib Müslümü tutdular. Onun üstünə hücum çəkənlər arasında döyüşçülərdən əlavə şəhər sakinləri də var idi. O sakinlər ki, bir neçə gün əvvəl onun əlini öpüb beyət edirdilər. Elə Müslüm ibn Əqili ağrıdan, incidən də qan sızan yaralarından daha çox bu idi.

Alçaq tavanlı salonda bir neçə şam yanırdı. Ancaq salonu bu şamlardan daha çox divarlardan asılmış çıraqlar işıqlandırırdı. Gecədən xeyli keçməsinə baxmayaraq Kufənin yüksək mənsəb sahibləri bura toplaşmışdılar. Əyanlar divar boyu yerə döşənmiş döşəkçələrin üstündə əyləşmişdilər. Yalnız İbn Ziyad salonun boş tərəfində qoyulmuş taxtın üstündə oturmuşdu. Taxtın üstünə atılmış pələng dərisi bu taxt sahibinə ovunu parçalamağa hazır olan vəhşi bir görkəm verirdi. Başları əmmaməli, əyinləri əbalı saqqallı əyanlar isə ov səhnəsinin başlanmasını gözləyən çaqqallara bənzəyirdilər.

Ağır addım səsləri yaxınlaşdıqca salondakıların da həyəcanı artırdı. İki nəfər əsgərin müşaiyəti ilə gələn Müslüm ibn Əqil qollarının arxadan bağlı olmasına baxmayaraq qamətini düz tutmuşdu. Hiss olunurdu ki, sifətindəki qılınc çapığı, sinəsindəki ox yaraları onu haldan salır. Ancaq Müslüm ibn Əqil başdan ayağa al qan içərisində olmasına baxmayaraq bütün gücünü toplayıb düşmən qarşısında mərdanə dayanmağa çalışırdı.

- Hə, necəsən Müslüm ibn Əqil? İmamın niyə köməyinə çatmır?

Taqətdən düşmüş Müslüm qollarının bağlı olmasına təəssüf etdi. Onun bir addımlığında dayanmış, çəkdiyi qəh-qəhədən gözləri hədəqədən çıxmış İbn Ziyadın üzünə tüpürməkdən başqa ayrı çarəsi qalmamışdı. Amma son anda əsəblərini cilovlayıb fikrindən daşındı. Bunun əvəzinə kəlmeyi-şəhadətini pıçıldadı.

Müslümün kəlmeyi-şəhadətini oxuması İbn Ziyadın da gülüşünü sifətində dondurdu. Sonra nə fikirləşdisə qılıncını çıxarıb Müslümün boğazına dirədi. Qeyzli bir səslə dedi:

- Aç qulağını eşit ey Müslüm. Zəmanənin imamı Yeziddir.

Müslüm bütün gücünü toplayıb, qılınc zərbəsindən yaralanmış dodaqlarını zorla açaraq:

- Ey İbn Ziyad. Zəmanənin İmamı Hüseyn ibn Əlidir. Mən də onun fərmanı ilə bu şəhərə gəlmişəm. Onun yolunda ölüm də mənim üçün şərəfdir. Bilirəm ki, məni qətl edəcəksən. Çünki zülümkarsan, - dedi. - Ancaq səndən bir iltimasım var. Vəsiyyətimi dinləyin və onu mən istədiyim yerə çatdırın.

Müslümü məğlub etdiyinə görə içdiyi şərabın təsirindən haldan-hala düşən İbn Ziyad tez qəzəbləndiyi kimi, tez də yumşaldı. Ömər ibn Sədə onun vəsiyyətini dinləməsini əmr etdi.

Müslüm ibn Əqil dedi:

- Ey Ömər, sənə üç vəsiyyətim var. Biri budur ki, bu şəhərdə 700 dirhəm borcum var və mənim atım Nüman ibn Haciddədir. Alıb borcumu verərsən. İkinci vəsiyyətim: məni qətl edəndən sonra cəsədimi dəfn edərsən. Üçüncü

vəsiyyətim də budur ki, başıma gələn əhvalatı yazıb Həzrəti İmam Hüseynə göndərərsən ki, bu tərəflərə gəlməsin.

Quduzlaşmış İbn Ziyad carəsiz Müslümün qətli ilə də ələnmək istəyirdi. O, üzünü məclisdəkilərə tutub həvəslə dedi:

- Kim Müslüm ibn Əqili qətlə yetirmək istəyir?

İntiqam hissindən alışıb yanan Bəkr ibn Həmran irəli çıxdı:

- Bu dünən mənim atamı qətlə yetirib.

Müslüm pıçıltılı səslə dilləndi:

- Atan elə ölməli köpək idi!

- Onu öldürmək mənim işimdir, - deyə Bəkr ibn Həmran Müslümün səsini eşitmirmiş kimi üzünü İbn Ziyada tutdu.

Müslüm ibn Əqili qətlə yetirmək üçün qəsrdən kənara çıxartdılar. İbn Ziyad əllərini göyə açıb dedi: «Şükürlər olsun ki, Allahın və dövlətimizin böyük düşmənlərindən birini aradan götürdük». Sonra bu hadisədən Yezidin necə məmnun olacağını düşünüb özündən razı halda gülümsədi. Artıq o, Kufənin sahibi idi. Qardaşının idarə etdiyi Bəsrə də əslində ona tabe idi.

İbn Ziyad xoş xəyallarda ikən Bəkir ibn Həmran həyəcanla geri qayıtdı:

- Ya əmir, bunlar qəribə nəsildir. Qılıncı çəkib başını üzmək istəyirdim, qeybdən bir səs gəldi, - dedi, - Qorxdum. Mən onu öldürməkdən imtina edirəm.

İbn Ziyad qeyzlənib başqa birisinə əmr etdi. Bir azdan o da gəlib həmin sözləri valiya dedi. Axırda Şamdan gəlmiş qoşunun əsgərlərindən bir nəfər Müslümü qətlə yetirdi. Müslüm ibn Əqil Əhli-beytin ilk şəhidi oldu.

***

Müslüm ibn Əqilin imzası ilə Kufədən gələn məktub İmam Hüseynin (ə) - intizarına son qoymuşdu. Müslüm on səkkiz min nəfərdən çox adamın İmama beyət etdiyini, təcili olaraq Kufəyə gəlməsinin vacibliyini bildirirdi. Artıqləngimək olmazdı. İmam Hüseyn (ə) özü qədər inandığı Müslümün cavabını artıq almışdı. Bir tərəfdən də Şamdan göndərilən məktub onu Məkkə torpağını tərk etməyə tələsdirirdi.

İmam Hüseynin (ə) Kufəyə hərəkət edəcəyini eşidən Məkkə əyanları dəstə-dəstə onun yanına gəlir, İmamı düşdüyü fikirdən çəkindirməyə çalışırdılar. İş o yerə gəlib çatmışdı ki, İmam Hüseyn (ə) hətta Həcc ziyarətini gözləməyib onu Ümrəyə çevirmişdi.

Dəvə karvanın zınqırov səsləri bütün Məkkəni bürümüşdü. İmam Hüseyn (ə) at belində hər tindən, döngədən keçdikcə köks ötürür, bir daha görməyəcəyi doğma ata-baba yurdu ilə vidalaşırdı. İmamın yola düşməsindən xəbər tutan məkkəlilər küçələrə çıxır, karvana qoşulur, böyük bir izdiham yaradırdılar.

Karvan Məkkədən xeyli uzaqlaşsa da İmamla birlikdə şəhərdən çıxanlar hələ ondan ayrılmamışdılar. Buna səbəb bir gün əvvəl oxuduğu və sonralar tarixin yaddaşına həkk olunmuş «Xüttəl-mout» adı ilə məşhur olan xütbəsi idi. İmam bu xütbənin axırında buyurmuşdu ki, hər kəs istəsə ki, öz ürəyinin qanını bizim yolumuzda qurban etsin və bizimlə yola düşməyə hazırdırsa Allah qoysa mən sabah hərəkət edəcəyəm.

Bu sözlər çoxlarını riqtətə gətirmiş, onları İmamla birlikdə getməyə ruhlandırmışdı. Bu gün isə İmam Hüseyn (ə) Əhli-beytə qoşulanları son dəfə sınaqdan keçirmək qərarına gəldi. Ona görə də Məkkədən bir az uzaqlaşandan sonra karvanı dayandırıb hamıya müraciətlə dedi:

- Ey buraya cəm olan mənim əzizlərim. Mən bir müsibət səhrasının səyyahıyam. Getdiyim yolda mənim başıma çox işlər gələ bilər. Bu dünyanın ləzzəti mənim üçün heç nədir. Ona görə də bütün müsibətlərə dözməyə hazıram. Mənə inanın, əzizlərim. Söhbətim hiylədən uzaqdır. Sizin heç birinizi dünya nemətləri müjdəsi ilə öz tərəfimə çəkmirəm. Heç kimə söz vermirəm ki, məlun Yezidi devirəndən sonra ona vəzifə, rütbə verəcəm. Mənim bayrağım altına toplaşanlar vəzifə, var-dövlət təmənnasındadırlarsa, elə buradan geri qayıtsalar yaxşıdır. Bu gecəlik sizə möhlət verirəm. Məndən utanıb üzümə söz deyə bilməyənlər bu gecə heç nə demədən ayrılıb gedə bilərlər.

O gecə İmam Hüseyn (ə) səhərə qədər yatmadı və şam yandırılmasına da icazə vermədi. Səhər açılanda İmam Hüseyn (ə) ətrafına baxıb adamların çoxunun gecə ikən getdiyini görəndə qətiyyən narahat olmadı. Əksinə, ən etibarlı dostlarını yanında görüb xoşhal oldu. Və onların bu sədaqəti onun gözlərini yaşartdı. Gözünə ilk dəyən Müəzzin Həccac ibn Məsruq oldu. Onun şirin avazla başladığı səhər əzanı İmam Hüseynin (ə) əsəblərini yumşaltdı. Artıq neçə illər idi ki, o, Həccac ibn Məsruqun səsinə yuxudan oyanır, sübh namazını qılırdı.

İmam sübh namazından sonra oğlu Əli-Əkbəri yanına çağırdı. Adamların çox hissəsinin gecə ikən onları tərk

etməsi Əli-Əkbəri qəzəbləndirmişdi. Bunu oğlunun baxışlarından hiss edən İmam təmkinlə dilləndi:

- Narahat olma, oğlum. Getdiyimiz yolun ağırlığına hamı tab gətirə bilməzdi. Eşitmədinmi, dünən mən özüm onlardan çıxıb getmələrini xahiş etdim.

- İnsanları tanımaq olmurmuş. Deməli, bu bir qoşun adamın hamısı vəzifə, mənsəb almaq üçün bizə qoşulubmuş! - deyə Əli-Əkbər ürəyindəkiləri gizlətdmədi. - Deməli, bu adamlar Allah yolunda, din yolunda yox, mənsəb, var-dövlət yolunda qanlarını axıtmağa hazır imişlər.

- Sən dediyin mənsəb, var-dövlət, səltənətin insanların çoxlarına hakim kəsilib. O bədbəxtləri qınama. Onlar həyatın mənasını onda görürlər. Ancaq bilmirlər ki, ən böyük sərvət, mənsəb Böyük Yaradanın buyurduğu siratəl-müstəqim yolu ilə getməkdir. Bizim mübarizəmizin də mənası bundadır. Biz insanlara Allahın buyurduğu düzgün yolu göstərməliyik. Yolunu azıb Allaha, onun peyğəmbərinə, peyğəmbərin ətindən-qanından törəyən övladlarına qarşı, müqəddəs dinimizə qarşı çıxanları Allah-Təala özü cəzalandıracaq. Biz cəmiyyətimizi kafirlərdən, dinsizlərdən təmizləməliyik, ya bu yolda şəhid olmalıyıq. Bizim işimizin çətinliyi ondadır ki, yer üzünü riyakarlıq, haqsızlıq, dinsizlik bürüyüb. Bizim üstünlüyümüz ondadır ki, qələbəmiz də Allah tərəfindən yüksək qiymətləndiriləcək, şəhidliyimiz də. Bizim qələbəmiz də İslamı xilas edəcək, şəhidliyimiz də. Yadında saxla, oğlum. Bizim damarlarımızda ali qan axır. Biz ulu Tanrının nəzarətindəyik. Bizim qismətimizdə məğlubiyyət yoxdur. Bizim yaşamağımız da qələbədir, ölməyimiz də.

Bir kənardan bu söhbəti diqqətlə izləyən Zeynalabdin (ə) atasının sözlərindən sonra kövrəldi. Bədəni tir-tir əsməyə başladı.

Bu halı görən İmam Əli-Əkbərlə birlikdə ona yaxınlaşdı. Zeynalabdinin (ə) məsum sifətində bir ilahi nurun işartısını gördü.

- Ağlama, oğlum. Biz döyüşə yollanırıq. Dinimizi xilas etməyə gedirik. Adamların çoxunun bizdən ayrılması sənə də pis təsir etməsin. Təki Allah bizimlə olsun. Ulu cəddimizin ruhu bizimlə olsuna.

Artıq karvan bir neçə mənzil yol qət etmişdi. Sabah adlı bir yerdə İraqdan gəlib Hicaza gedən şair Fərəzdəq Əhli-beytin karvanı ilə rastlaşanda İmam Hüseynlə (ə) görüşdü. İmam ondan İraq tərəfin vəziyyətini soruşduqda Fərəzdəq heç nə gizlətmədən Kufədə gördüklərini Həzrətə danışdı. Bu o vaxtlar idi ki, Müslümün ətrafında on səkkiz min nəfərdən çox İmam Hüseyn (ə) tərəfdarı var idi.

«Yəbnə rəsulullah, Kufə camaatının ürəkləri sizinlə olsa da qılıncları sizə qarşıdır» - deyə Fərəzdəq qəti fikrini bildirdi.

***

Artıq ikinci həftə idi ki, Yezid bərk narahat idi. O, nə nədimlərini - piyalə dostlarını başına yığıb kef məclisi qurur, nə rəqqasələrə tamaşa edir, nə ova çıxır, nə də bir kimsəni qəbul edirdi. Bütün gününü vəziri Sərxunla və sarayın digər mühüm vəzifə tutan əyanları ilə keçirir, Kufədə baş verəcək hadisələri ölçüb-biçir, İmam Hüseyni (ə) zərərsizləşdirmək üçün yollar axtarırdı.

Müslüm ibn Əqilin Kufədə peyda olması və çox qısa vaxtda İmam Hüseynə (ə) on səkkiz min nəfərdən çox adamın beyətini toplaması onun yuxusunu ərşə çəkmişdi. İndiki halda Müslüm ibn Əqil onunçün Hüseyn ibn Əlidən (ə) daha qorxulu idi. İbn Ziyadın Kufəyə gəlişindən sonra ondan cəmi iki məktub almışdı. Təzə valinin vədlərlə dolu sözlərini o, hələ təsəlli kimi qəbul edirdi. Onun hakimiyyətdən üz döndərmiş Kufə əhalisini ram edəcəyinə o qədər də inanmırdı.

«Bu İbn Ziyad niyə məktubların arasını kəsdi? Yoxca... Yox-yox...» - deyə Yezid beyninə dolmuş fikirləri özündən kənarlaşdırmağa çalışdı. Ancaq nə qədər elədisə onlardan yaxa qurtara bilmədi. «Bəs qoşun necə oldu? Mənim ümidim bu qoşuna idi, Müslüm əgər bu qoşunu məğlub edib Kufəni ələ kecircə, mənim burda taxtda oturmağıma dəyməz. Kufəni əldən versəm, bütün vilayətlər üstümə ayaq açacaq» - Yezidin özünün-özünə verdiyi bu suallar onu haldan salıb üzürdü. O, vahimə və qorxu içərisində otaqda var-gəl edir, nə edəcəyini, çıxaracağı qərarı müəyyənləşdirə bilmirdi. Artıq Sərxun da şəhərin adlı-sanlı əyanları da onu bezdirmişdi. Yezid ilk dəfə idi ki, belə çıxılmaz vəziyyətə düşmüşdü. İlk dəfə idi ki, hakimiyyətə gəldiyi üçün peşmançılıq hissi keçirirdi. O özü də bilirdi ki, hakimiyyət adamı deyil. Ondan olsaydı həyatını başqa cür qurardı. Gözəl qadınlarla əylənməkdən, kef məclisi qurmaqdan, nədimləri ilə yeyib-içib söhbət etməkdən, lətifə danışmaqdan və bütün gecəni xəyala dalıb şeir yazmaqdan, hərdən-birdən ova çıxıb havasını dəyişməkdən başqa heç bir iş görmək istəmirdi. Elə həyatın mənasını da kef məclislərində və gözəl qadınlarda, eşqyanə şeirlərdə

görürdü. Dünyada ən xoşladığı iş isə qumar oynamaq idi. Ancaq atası Müaviyə onun həyat yolunu dəyişdi. İstəməyə-istəməyə onu hakimiyyətə gəlməyə məcbur etdi. İndi bu gün Yezid düşdüyü sıxıntılar içərisində atasını da, onun dostlarını da lənətləyirdi. O, İmam Hüseynin (ə) hakimiyyəti ələ aldıqdan sonra özünün aqibətini gözləri önünə gətirdikcə dəhşətə gəlirdi. Yezid adamları pulun, şərabın gücünə özünə dost eləmişdi. Yaxşı bilirdi ki, səhərdən axşamacan onu tərifləyən əyyaşlar İmam Hüseynin (ə) üstünlük qazanacağını eşidən kimi ondan üz döndərəcəklər.

Qulamın qapıda görsənib «Məkkədən gələn var» deməsi Yezidi xəyallardan ayırdı. Eşidəcəyi xəbərin onu sıxıntıdan qurtaracağı ümidi ilə qasidi təcili qəbul etdi.

Ancaq oxuduğu məktubun məzmunu onu nəinki sıxıntıdan qurtardı, bütün vücudunu qorxu və dəhşətə saldı. Məkkədə törədiləcək sui-qəsd baş tutmamışdı. Həcc mərasimi başlamamış İmam Hüseyn Məkkədən çıxaraq Kufəyə yollanmışdı.

Artıq Yezidə elə gəldi ki, hər şey məhv olub. «Hüseyn Kufəyə yollanıbsa, deməli, şəhər Müslümün əlinə keçib». Ağlına gələn bu fikrin təsirindən var səsi ilə qışqırdı: «Yox, ola bilməz».

Eşitdikləri qışqırığa içəri daxil olan mühafizəçilər Yezidi çox pəjmürdəhal görsələr də, ondan bir söz soruşmağa cəsarət etmədilər. Mühafizəçilərin içəri keçməsi tələyə düşmüş vəhşi kimi çırpınan Yezidin halını özünə qaytardı. Onun gözləri böyüyüb hədəqədən çıxmış, rəngi kağız kimi ağarmışdı.

- Sərxunu çağırın gəlsin.

Yezidin düşdüyü halı görüb heyrət və təəccübdən donub yerlərində qalan mühafizəçilər deyilən əmri eşitsələr də, yerlərindən tərpənmədilər.

- Sizinlə deyiləm, məlunlar, nə gözlərinizi döyürsünüz?

Yezidin bu çağırtısından sonra mühafizəçilər ildırım sürəti ilə otaqdan çıxdılar.

«Əbləhlər, burnunuzdan gəlsin yeyib-içdiyiniz. Məni arxayın saldılar. «Hər şey yaxşı olacaq, axı Hüseyn ibn Əlinin nə qüvvəsi var ki, ondan qorxursan?» - deyib başımın altına yastıq qoydular. Şeirlərimi tərifləyib «sən Şərqin dahi şairisən» deyib məni dövlət işlərindən ayırdılar. İndi budur, uzağı bir həftəyə - on günə Hüseyn Kufəyə çatıb Müslümlə birləşib üstümə qoşun yeridəcək».

- Qibleyi-aləm, Kufədən gələn var. Hüzurunuza təşrif gətirmək istəyir, - qulamın qapının ağzında dayanıb çox ehtiyatla, qorxa-qorxa dediyi bu sözləri Yezid eşitsə də ilk anda dərk edə bilmədi.

- Necə? - deyə o, hədəqədən çıxmış gözlərini qapının ağzında büzüşüb yumağa dönmüş və dediyi sözə peşman olmuş qulama zillədi.

- Kufədən gələn var, qibleyi-aləm. Hüzurunuza gəlmək istəyir,- deyə qulam yenə qorxudan titrək səslə diləndi.

- Kufədən? - deyə Yezid qulamın üstünə şığıyıb ikiəlli onun yaxasından tutdu.

Nələr baş verdiyini anlamayan qulam:

- Bəli, qibleyi-aləm, - deyə zorla cavab verdi. Artıq onun qorxudan danışmağa taqəti qalmamışdı.

- Bəs nə durmusan, əbləh oğlu əbləh? Təcili onu gətir hüzuruma.

Müslüm ibn Əqilin mis sinnidəki başı Yezidin ovqatını tamamilə dəyişmişdi. O, qəh-qəhə çəkərək gülür, sevincindən az qalırdı çırtıq çalıb oynasın.

- Görürsən ibn Ziyadın şücaətini? - deyə bayaqdan onun hərəkətlərinə göz qoyan, dodaqaltı gülümsəyən vəziri Sərxuna tərəf çevrildi.

- Görürəm, qibleyi-aləm. Sənin bütün dostların İbn Ziyad qədər şücaətli və sədaqətlidir. İnşəallah, böyük düşmənimizə də beləcə qalib gələrik.

- Yox, Sərxun. Sən bilmirsən. Bizim ən böyük düşmənimiz elə bu idi, - deyə Yezid şəhadət barmağı ilə Müslümün sinidəki başını göstərdi. Sonra sözünə əlavə etdi:

- Hüseyn ibn Əlinin gücü bunda idi. O, Müslümə görə qürrələnib bizə hədə-qorxu gəlirdi. Cəmi bir neçə gün ərzində on səkkiz min adamdan beyət toplamaq bilirsən nə demək idi? Ey Sərxun, sən bilirsənmi ki, bu müddətdə mən neçə dəfə ölüb-dirilmişəm?

- Qibleyi-aləm, deməli, İbn Ziyadı Kufəyə vali təyin etməkdə yanılmamışıq, - Sərxun söhbətin səmtini dəyişib özünün də bu işdə xeyli xidməti olduğunu Yezidin nəzərinə çatdırmaq istədi.

Yezid Sərxuna tərəf gəlib əlini onun çiyninə qoydu. Sonra gülümsəyərək dedi:

- Bilirəm nə demək istəyirsən. Əhsən sənə, vəzir. Xidmətini qiymətləndirəcəm. İndi isə Müslümün başını nizəyə keçirt. Əmr ver ki, bütün Şam əhlinə göstərsinlər. Sonra şəhər darvazasının üstündən asdır ki, düşmənlərimizə görk olsun.

Vəzir cəld dilləndi:

- Baş üstə qibleyi-aləm!

Yezid:

- Hə, az qalmışdı yadımdan çıxa. Axşam məclisi qur. Adımızı uca tutan bütün əyanları dəvət elə. Musiqi də öz yerində. Görərsiniz necə gözəl şeirlər oxuyacam.

Vəzir Yezidin kefinin durulduğunu görüb gülümsünərək dilləndi:

- Qibleyi-aləm, siz Şərqin dahi şairisiniz. Ərəb dünyası ikinci belə bir dahini görməyəcək. Bu gecə həbəş qızının odlu rəqsi çəkdiyiniz bütün əziyyətləri sizə unutduracaq, yeni qəzəllər yazmağa sövq edəcək.

- Yox, - deyə Yezid tərs bir baxışla vəziri süzdü. Sonra sözünə əlavə edərək - Həbəş qızının adını bir də dilinə gətirənin... Həmişə danışanda həd-sədd bilməyən Yezid bu dəfə nədənsə sözünün ardını demədi. Bir neçə anlıq sərtlikdən sonra onun sifət cizgiləri yenə qaydasına düşdu. Təmkinlə sözünə davam etdi:

- Həbəş qızı dünəndən mənim hərəmxanamdadır. O, artıq rəqqasə deyil.

Bu işdən xəbərsiz olan vəzir səhv etdiyini bilsə də, üzürxahlıq eləməyə yer qalmadığını gördü. Otaqdan çıxmaq istəyən vəziri Yezid yenidən səslədi:

- Hara gedirsən, bəs Kufəyə, İbn Ziyada məktub göndərməyəkmi?

- Özünüz belə buyurdunuz, qibleyi-aləm. Necə məsləhətdir elə də edək.

- Yaxşı, get əmrini ver, qayıt gəl bura. Tapşır ki, axşam, camaatı məscidə toplasınlar. Hadisədən onları xəbərdar edək.

«İndi qaldı Hüseyn ibn Əli. O, Kufəyə gəlib çıxsa təzədən iş qəlizləşə bilər. İbn Ziyada yazmaq lazımdır ki,

Hüseyni yolda qarşılasın. Ya beyət, ya qətl. Üçüncü yol yoxdur. Vəssalam» - deyə Yezid öz-özünə pıçıldadı. Sonra mizin üstündəki boş qalmış mis siniyə baxdı. «Hüseyn ibn Əlinin də başını bu sinidə görsəm, dərdim olmaz» - dedi.

***

İmam Hüseyni (ə) Müslümdən başqa heç kim düşündürmürdü. O, cəsur əmisi oğluna, onun şücaətinə arxalanıb Kufəyə gedirdi. Şair Fərəzdəqdən aldığı məlumat onu ruhlandırsa da, qəlbinin dərinliyində qara bir nöqtəyə dönmüş nisgil ona rahatlıq vermirdi. Böyük bir müsibətlə, bəla ilə qarşılaşacağı fikri beynindən çıxmırdı. «Hər şey Allahın hökmü ilədir. Hər şey o Böyük Yaradanın əlindədir. Necə məsləhətdirsə, elə də olacaq» - deyə İmam Hüseyn (ə) yol boyu onu çulğamış qara fikirlərə sanki nöqtə qoydu. İlk mənzildə qoşunundan adamların azalması İmamı məyus etməsə də sevindirməmişdi. İndi hiss edirdi ki, qoşunun sayını artırmaq, hər ehtimala qarşı daha çox döyüşçüylə Kufəyə getmək lazımdır. Ancaq bu qoşunun hər bir doyüşçüsü İmama sədaqətli olmalı, baş verə biləcək əzabdan, bəladan qorxmalı, müqəddəs İslamın paklığı uğrunda qılınc çalmağı bacarmalı, dünya malına, sərvətə, mənsəbə göz yummalı idi.

İmam bu fikrini lap əvvəldən bəyan etmişdi. Yaxın, uzaq şəhərlərə, əyalətlərə yazıb göndərdiyi məktubların məzmununu da bu fikirlər təşkil edirdi. O, qoşununa həm döyüşçü toplamağa, həm də ona qoşulmuş təsadüfü adamları, dünya malına uyanları uzaqlaşdırmağa çalışırdı. Dünən Dürud adlı yerə çatanda Züheyr ibn Qeys Nəhayi ilə

də söhbəti açıq-aşkar aparmış, Məkkədən qayıdan bu mömin insanı öz qoşununa cəlb edə bilmişdi. Züheyr bütün əzablara, bəlalara hazır olduğunu, İmamla birlikdə olarkən özünü səadətə qovuşan bir insan kimi hiss etdiyini söyləmişdi.

Karvan Şüqut adlı mənzilə çatanda İmamın işarəsi ilə hamı istirahət etmək üçün dayandı. Namaz qıldıqdan sonra gecənin sərinliyində istirahət edən İmam oğlu Əli-Əkbərin bir nəfər naməlum şəxslə ona tərəf gəldiyini gördü. Ay işığında Əli-Əkbərin əyilmiş qaməti və ağır yerişi İmamın diqqətindən yayınmadı.

«Əli-Əkbərə nə olub belə? Bu qəmginlik nədəndir onda?» - deyə Həzrəti İmam öz-özünü suala tutdu.

Göz yaşları içində boğulan Əli-Əkbər qəhərdən danışa bilmirdi.

Son vaxtlar övladları və qardaşları ilə daha mehriban rəftar edən İmam Hüseyn (ə) adətinin əksinə olaraq sərt halda dilləndi:

- Nə olub sənə? Nə hadisə baş verib? - İmam Hüseyn (ə) sual dolu baxışlarını Əli-Əkbərin göz yaşlarından islanmış üzünə dikdi.

- Dilim gəlmir, ya əbəta. Dilim gəlmir deməyə, - deyə Əli-Əkbər hönkür-hönkür ağlamağa başladı. Sanki dolmuş bulud leysan tökürdü. Sonra iki kəlmə - «Əmim Müslüm» - deyib göz yaşlarından islanmış üzünü əlləri içində gizlətdi.

İmam Hüseyn (ə) qulaqları uğuldadı. Səhrada külək səsinə bənzəyən bu uğultu artıq başqa sözlə eşitməyə ona imkan vermədi. İstədi dikəlib ayağa qalxsın, ancaq ona elə gəldi ki, ayağa qalxsa eşitdiyi xəbərin ağırlığı onu yenidən

torpağa sıxacaqdı. Qeyri-ixtiyari dodaqlarından bu sözlər qopdu: «İnna lillahi və inna iləyhi raciun».

Müslümün şəhid olması xəbəri hamını sarsıtmışdı. Əhli-beyt qadınlarının qışqırıq və şivəni ürək parçalayırdı.

Tək-tənha oturub fikrə getmiş İmam başını qaldıranda ən doğma adamlarının ona tərəf gəldiyini gördü. Qadınlar İmama çatar-çatmaz and verdilər ki, Kufə səmtinə getmək fikrindən əl çəksin və əhli-əyalına əzab verməsin.

İmam Hüseyn (ə) Müslümün şəhid olması xəbərini eşidəndən sonra elə süstləşmişdi ki, başını qaldırıb əhli-əyalından kiməsə cavab verməyə belə taqəti qalmamışdı. Bu vaxt Müslümün qızı cəsarətlə irəli yeriyib onun qarşısında dayandı. Çox qəti bir halda dedi:

- Ya İmam. Kufa əhlindən Müslümün qanını almayınca biz geri qayıda bilmərik. Ya intiqam alarıq, ya da şəhid olarıq.

İmamın qanı qaçmış, səhra küləyində bozarmış dolaqlarına kədərli bir təbəssüm qondu. Baxışlarını asta-asta qızdan yana çəkib fikrin qətiləşdirdi:

- Bu sözlərdən sonra daha mən yaşamaqda heç bir məna görmürəm.

Artıq «qəm karvanı» əvvəlki sürətlə getmirdi. Dəvələrin də, atların da elə bil yerişi ağırlaşmışdı. Hərdən Kufə səmtindən əsən isti külək səhranın qumunu göyə sovuraraq karvanın qarşısını boz bir divar kimi kəsir. Əhli-beyti, İmamın qoşununu hərəkətdən saxlayırdı. Ancaq karvan ağır-ağır irəliləyirdi.

Malə adlı mənzildə karvan yenidən dayandı. Yas içində olan Əhli-beyt öz təziyəsini susmaqla, dərin xəyallara dalmaqla keçirirdi. İmam Hüseyn yenə bir tərəfə çəkilib

tənha oturmuşdu. Müslümün ölümün dən sarsılan Həzrət təklikdə için-için ağlayırdı ki, əhli-əyalı, sədaqətli dostları onun bu halını duyub pərişan olmasın. Qadınlar olan xeymədən gələn ağlaşma səsi ürəkləri parçalayırdı. Hamıdan çox özünə sitəm edən cənabi Zeynəb idi. O, Müslümün ölüm xəbəri gələn andan susmaq bilmir, elə hey nöhə söyləyib ağı deyirdi.

İmam Hüseynin (ə) xəyalında yenə babası Rəsulullah (s) ilə, atası Əmirəl-möminin Əli (ə) ilə, qardaşı Həsəni Müctəba (ə) ilə keçirdiyi günlər canlanırdı.

İmam bu müqəddəs şəxsləri xatırladıqca salavat çevirir, dodaqaltı Quran ayələrini zikr edirdi. O, babasının, atasının və qardaşının tutduğu yola haqq qazandırır, onların yolunu davam etdirəcəyinə and içirdi.

Uzaqdan gələn atlı İmamın diqqətindən yayınmadı. Əli-Əkbər onu xeymələrin yanında qarşıladı. Onların etdikləri söhbət uzaqdan eşidilməsə də qasidin Kufədən gəldiyini və heç də xoşxəbər olmadığını duydu. Bir azdan qasid Əli-Əkbərlə birlikdə onun hüzuruna gəlib Ömər ibn Sədin göndərdiyi məktubu ona təqdim etdi.

«Ya Hüseyn, məlumun olsun ki, sən inandığın Kufə əhli öz vədinə xilaf çıxdı. Böyük ümid bəslədiyin Müslüm indi yoxdur. Onun mənə etdiyi vəsiyyəti olduğu kimi sənə çatdırıram. O buyurdu ki, mənim ölümümdən sonra Hüseyn ibn Əliyə çatdır ki Kufəyə gəlməsin».

Məktub İmam Hüseynin əlində titrədi. «Kufədən qasid gəlib» xəbərini eşidən döyüşçülər İmamın ətrafına toplaşmışdılar. İmam bu xəbəri də sükutla qarşıladı. Artıq onun deməyə sözü qalmamışdı. Döyüşçülər Müslümün

vəsiyyətindən xəbərdar olandan sonra kənara çəkilib bir-birləri ilə pıçıldaşdılar.

Gün batmış, qaranlıq çökmüşdü. Göylərin dərinliyində ulduzlar işıldayırdı. Xeymələrdən azacıq aralıda bir yerə toplaşan atlıların qaraltısı görünürdü. İmam Hüseyn (ə) bilirdi ki, bu gecə də onun dəstəsi seyrələcək, mal-mülk həvəsində olanlar onu tərk edəcəklər. Ancaq nə İmam onlara bir söz dedi, nə də onlar İmamın yanına məsləhətə gəldilər. Gecənin qaranlığında qəfildən at nallarının səsi eşidildi. Onlar qoşunu tərk edib geri qayıdan döyüşçülər idi.

«Bunlar da belə getdi. Sadiq dostlar ələnib-ələkdən keçəndən sonra tanınırmış...» - deyə İmam Hüseyn öz-özünə düşündü. Sonra ayağa qalxaraq karvanın hərəkət etməsi barədə göstəriş verdi.

İmam kiçik saylı qoşunun get-gedə azalmasından bərk narahat idi. Onun məktub göndərdiyi vilayətlərdən heç bir soraq gəlməmişdi. Əslində heç Müslümün qətlindən sonra heç kimdən nicat gözləmirdi.

«Adamları sınamadan tanımaq olmur» - deyə İmam düşündü. Sonra astadan öz-özünə pıçıldadı: «Mənə elə gəlir ki, hələ də qoşunun içərisində üzə düşüb, yalandan sədaqət göstərən adamlar var. Bu gecə onlara son sözümü deyəcəm».

Bir daha ətrafındakı adamları bir yerə toplayıb onlara son sözünü demək fikri İmamı rahat buraxmırdı. Karvan Qət-qətanə deyilən yerə çatanda Həzrət dəstəsində olan bütün adamları bir yerə topladı. Bəlağətli bir səslə nitq söylədi:

- Ey mənim qohumlarım, ey mənim dostlarım! Sizə məlum olduğu kimi bizim böyük ümid çırağımız olan Müslüm Kufədə qətlə yetirilib. Yezid Kufəyə böyük qoşun

göndərib. Təzə vali İbn Ziyad mənə beyət edənləri öz ətrafına toplayıb bizə qarşı yönəldib. Bundan sonra şücaət göstərib qələbə qazanmaq mümkün deyil. Ancaq mən tutduğum yoldan geri qayıdası deyiləm. Sizin isə düşəcəyimiz bəladan yaxa qurtarmağa hələ ki imkanınız var. Mən razı ola bilmərəm ki, sizə zərərim dəyə və mənim ucbatımdan zərər çəkəsiniz. Ona görə də gecənin bu vaxtı sizdən geri qayıtmağı, öz evlərinizə dönməyi rica edirəm. Gördünüzmü? Keçən dəfə də belə bir söhbət elədim. Və məndən ayrılıb geri qayıdanlara heç bir irad tutmadım. Yenə təvəqqe edirəm, bu gecə kim istəyirsə geri qayıtsın.

İmam Hüseyn (ə) gecə yenə şamları söndürməyi əmr etdi. Yenə gecənin bir vədəsində at nallarının səsləri eşidildi. Yenə dünya malı təmənnasında olanlar İmamı tərk etdilər.

At nallarının səsinə oyanan Əhli-beyt və İmamın sədaqətli dostları yenidən onun ətrafına toplaşdılar. Artıq bu dəfə İmamın yanında qalanlar onun ən sədaqətli dostları, pak əqidəli, din uğrunda hər bir əzaba hazır olan mömin adamlar idi. Onlar İmama təsəlli verərək son nəfəslərinə kimi onunla birlikdə olacaqlarına söz verdilər. Dəstəyə təzə qoşulan Züheyr İmama daha yaxın gələrək onun qəmgin çöhrəsinə baxa-baxa dedi:

- Ya Hüseyn, dəstəmizin azalması yox, sənin belə kadərli olmağın bizi üzür. Bir də ki, əqidəsiz çoxluqdansa, ətrafında bir nəfər sədaqətli dostunun olması daha yaxşı deyilmi? Biz kəfənimizi boynumuza dolayıb sənə qoşulmuşuq. Sayca az olmağımız səni narahat etməsin.

Züheyr kövrəldi. Qəhər onu boğurdu. Sözünün arxasını deyə bilmədi, əlləri ilə üzünü tutub hönkürdü.

İmam Hüseyn (ə) ayağa qalxıb nəvazişlə əllərini onun çiyninə toxundurdu. Sonra üzünü ətrafındakılara tutaraq kövrək bir səslə dedi:

- Siz dünyanın ən mömin, saf ürəkli müsəlmanlarısınız. Çünki müqəddəs islam uğrunda döyüşə atılmısınız. Çünki Allahın göstərdiyi yolla gedirsiniz. Rəsulullahın (s) vəsiyyətinə əməl edirsiniz. Onun ətindən-qanından törəyən övladlarının köməyinə gəlmisiniz. Gözlərinizə baxanda görürəm ki, bu riyakar, namərd dünyanın əzab və işgəncələri sizi qorxutmur.

İmam Hüseyn (ə) danışdıqca kövrəkliyi azalır, səsi də, sifətinin cizgiləri də sərtləşirdi.

- Eşidin və bilin. Bu dünya bizim dünyamız deyil. Bu dünya bizlər üçün yaddır. Bizim dünyamız şəhadətlikdən sonra qovuşacağımız məkandır. Əbədi bir məkan. Həzrət Rəsulun (s), Əmirəl-möminin Əli (ə) qovuşduğu Behiştdir, Cənnətdir. - İmam Hüseyi (ə) bir anlığa sözlərinə ara verdi. Yenə yadına atası Əliyyəl-Mürtəzanın sözləri düşdü. Sonra nitqinə davam edərək dedi:

- Atam Əliyəl-Mürtəza buyurmuşdu: «Mən bu dünyaya üç dəfə təlaq vermişəm». Bu namərd dünyaya mən də bu gündən təlaq verirəm. Bizim məqsədimiz insanları düzgün yola çəkmək idi. Lakin Yezid kimi şeytanlar, İbn Ziyad kimi iblislər insanları elə qorxu və ehtiyac içərisində saxlayırlar ki, onları düçar olduqları bəladan xilas etmək mümkün deyil. Biz bu şeytanları məhv etsək də, kökünü kəsə bilməyəcəyik. Dünya durduqca onlar da duracaq, Allah yolunun pak ürəkli, saf əqidəli yolçularına nisbətən daha çox olacaqlar. Çünki pislərdən pis törəməklə yanaşı, yaxşılardan da pislər törəyəcək. İnsanları bu şeytanların əlindən xilas etmək,

onların şüurunda çevriliş yaratmaq üçün tək bir yolumuz qalıb. Bütün əzab və işgəncələrin ağırlığını öz üzərimizə götürüb şəhadətə yetişmək. Çəkəcəyimiz əzablar bütün bəşəriyyətin çəkə biləcəyi işgəncədən ağır ola bilər. O Qadir Allah bizim üçün hansı yolu buyursa, o yolla da gedəcəyik. İndi deyin görüm razısınızmı mənimlə?

İmamın bu sözlərindən sonra dirçəlib çoşmuş adamlar yerbəyerdən «razıyıq» dedilər.

***

Kufədə səs-səmir gəlmirdi, elə bil qurbağa gölünə daş atılmışdı. Hərdən bir xəyala düşən şəhər əhalisi Müslümün qətlindən sonra bir az əsib-çoşsa da, yalançı qeyrət nümayiş etdirsə də sakitləşmiş və süstləşmişdi. Artıq İbn Ziyad onlardan yox, onlar İbn Ziyaddan qorxurdular. Bir vaxt İmam Hüseynin (ə) gəlişini səbirsizliklə və hədsiz həyəcanla gözləyən şəhər əhalisi artıq İmamın kiçik bir dəstə və öz əhli-əyalı ilə Kufəyə gəlişini mənasız bir iş sayırdılar. Onlar indi İbn Ziyadın adamlarını görəndə əyilib ikiqat olaraq təzim edir, bir-birini casuslara İmam Hüseyn (ə) tərəfdarı kimi satırdılar. Hiyləgər İbn Ziyad İmam Hüseynlə (ə) bağlı hər bir məlumatı çox diqqətlə dinləyir, bir-birini satan, günahlandıran adamları həvəslə qəbul edir, satqınlıqla bağlı onların bütün dediklərini yerinə yetirir, özünü ədalətli vali kimi göstərirdi. Bütün bunlarla yanaşı o, əsas diqqətini İmam Hüseynin (ə) gəlişinə yönəltmişdi. O, İmamın az qala hər addımını izləyən xəfiyyələrin verdiyi məlumatları, bu barədə bütün eşitdikləri və bildiklərini ardıcıl olaraq yazıb Yezidə göndərirdi. Yezidin göndərdiyi məktublarda yazılan

təriflər İbn Ziyadın əl-qolunu xeyli açmışdı. O, artıq özünü xəlifənin ən yaxın adamı hesab edir, uşaq vaxtı hər dəfə eşidəndə acıqlandığı sözlərlə bu gün fəxr edirdi. Bəli, o, hələ uşaq ikən nənəsinin Əbu Süfyanla yaxın olduğunu və əslində atası Ziyadın Əbu Sufyanın qeyri-qanuni oğlu olduğunu eşitdikcə əsəbləşirdi. Zinadan törənmiş İbn Ziyad bu gün özünü Əməvi nəslinə calamaq üçün əldən-ayaqdan gedirdi.

Yezidin İmam Hüseynlə (ə) bağlı İbn Ziyadın qarşısında qoyduğu «ya beyət, ya qətl» şərti onu ciddi tədbirlər görməyə məcbur etmişdi.

Sonuncu məlumatı alan İbn Ziyad artıq qəti addım atmağın vaxtı çatdığını hiss etdi. Ona görə də məşhur sərkərdə Hürr ibn Yezid Riyahini yanına çağırıb onu qoşuna başçı təyin etdi və dedi:

- Ey Hürr, səni qoşuna başçı təyin edirəm. İmam Hüseyni yolda qarşılayıb Kufəyə yetişənə kimi onun dəstəsini müşayiət etməlisən. Başqa səmtə dönməyinə imkan vermə. Müqavimət göstərsə, hamısını qılıncdan keçir. İmam Hüseynin başını səndən istəyirəm.

Hürr bir qədər susub cavab vermədi. İstədi etiraz eləsin. Ancaq ibn Ziyadın qəzəbinə düçar olacağından ehtiyat edib bir söz demədi. Son vaxtlar İbn Ziyad o qədər azğınlaşmışdı ki, sözünün üstündən söz deyəni də cəzalandırırdı. Buna görə də razılıq verib təzim etməkdən başqa çarəsi qalmırdı. Ancaq son dərəcə sayıq və hiyləgər olan, gözündən tük belə yayınmayan İbn Ziyad Hürrün tərəddüd etdiyini sifətindən oxuyub rişxəndlə dedi:

- Nədir, yoxsa sən də axirət cəzasından qorxursan?...

Hürr dinməsə də nə isə deməliydi. Ancaq ürəyində «lənət şeytana» deyib qəzəbini boğdu, çox mülayim halda dedi:

- Ya Əmir, axirət qorxusu bütün müsəlmanlar üçün var. Ancaq mən indi sizin əmrinizi yerinə yetirməkdən başqa heç nə fikirləşmirəm.

İbn Ziyad qəh-qəhə çəkib güldü:

- Bax, indi xoşum gəldi səndən. Tez ol, min nəfər süvari götürüb yola çıx. Hüseyn ibn Əlini addım-addım izlə. Bir yerə çapar göndərməsinə icazə vermə. Ona qoşulmaq istəyənləri cəzalandır.

***

İntəhasız qum səhrası... Sanki bütün dünya dəyirman daşından keçərək üyünüb quma çevrilmişdi. «Qəm karvanı» bu intəhasızlıqda ağır-ağır irəliləyirdi. Qarşı tərəfdə səhranın dərinliyində bir qaraltı göründü. Sonra bu qaraltı böyüyüb sürünə-sürünə onlara yaxınlaşan nəhəng bir ilana bənzədi.

Qarşıda çoxsaylı bir qoşun dayandığını İmam Hüseynə (ə) xəbər verdilər. İmam Hüseyn (ə) təcili bir atlı göndərib onların kim olduğunu öyrənmək istədi. İmam Hüseyn (ə) hələ də ümidini itirməmişdi. Hər an, hər dəqiqə göndərdiyi məktubların nəticəsi kimi ona dəstə-dəstə pak əqidəli, müqəddəs din uğrunda döyüşə hazır olan adamların qoşulmasını gözləyirdi. Çox keçmədi ki, göndərdiyi atlının ucaboylu, qiyafəsindən sərkərdəlik hiss olunan ikinci bir atlı ilə bərabər ona tərəf gəldiyini gördü. Atlı İmamın hüzuruna çatıb təzim etdi. Onun üzünü görmək şərəfindən özünü xoşbəxt saydığını bildirdi.

Edilən təzimdən, deyilən sözlərdən İmam xoşhal oldu. Müslümün şəhadət xəbərini eşidən gündən bəri ilk dəfə olaraq üzünə təbəssüm qondu.

- Sən kimsən, ey cəngavər? Hamının məndən üz döndərdiyi bir vaxtda, din düşmənlərinin bizi üstələdiyi bir məqamda belə tərifə, təzimə ehtiyac vardırmı? - deyə İmam Hüseyn (ə) Hürrün günəşdən mis kimi qızarmış üzünə baxdı.

- Ya İmam, mənim adım Hürdür - Hürr ibn Yezid Riyahi. Sizin haqqınızda dediyim sözlər layiq olduğunuzun mində biridir.

- Ey Hürr, de görüm köməyə gəlmisən, yoxsa müharibəyə? - deyə İmam Hüseyn (ə) baxışlarını Hürrün üzündən çəkmədən soruşdu.

- Mən İmamın, Rəsuli-Əkrəmin əziz nəvəsinin, Əliyyəl-Mürtəzanın istəkli övladının hüzurundayam. Ona görə də sizdən heç nə gizlətməyəcəyəm, - deyə Hürr tam aydınlığı ilə fikrini bildirdi. Sonra sözünə əlavə edərək:

- Mən İbn Ziyadın əmri ilə bura gəlmişəm. Məqsəd sizin dəstəni tam nəzarətdə saxlayıb, müşayət etməkdir, - dedi.

Onu diqqətlə dinləyən İmam. Hüseyn (ə) buyurdu:

- Allahdan başqa güc və qüvvət sahibi yoxdur.

Hürr:

- Mən sizinlə şərikəm, ya Hüseyn.

Hürr mum kimi yumşalmış, körpə fidan kimi kövrəlmişdi. İmam Hüseyn (ə) Hürrün bu halını görub dedi:

- Ya Hürr, indi namaz vaxtıdır, gəl dəstələrimizi birləşdirib birlikdə namaz qılaq. Sonra hansı səmtə lazımdırsa gedərik.

- Siz necə deyirsinizsə elə də olmalıdır. Sən zamanın İmamısan. Ona görə də imamlıq et namaza başlayaq, - deyə Hürr bildirdi.

Hamının namaza hazır olduğunu görən İmam Hüseyn (ə) dua edib üzünü Hürrün qoşununa tutaraq dedi:

- Siz, Kufə əhli məni dəvət etdiniz. Çünki Yezidə beyət etmədiyimi bilirdiniz. İndi yanımda olan bu qalaq-qalaq məktubları siz kufəlilər mənə yazmışdınız. Bütün məktublarınızda «İmamımız, müqtədamız yoxdur. Bizim tərəfə təşrif gətir» - deyirdiniz. Bəs, nə tez əqidənizdən döndünüz? Müslümü nə üçün meydanda tək qoydunuz? İmam danışdıqca əsəbləri tarıma çəkilir, qeyzlənirdi. Axırda o, səsini yavaşıdaraq yumşaq bir halda dilləndi.

- İndi əgər peşmansınızsa heç olmasa mənim qarşımı kəsməyin. - İmam əli ilə Hürrü göstərərək: - Sizin sərkərdəniz çox ağıllı və qorxmaz bir adamdır. Mən onunla ətraflı danışmışam. Əlavə qan tökülməsinə nə o razı olar, nə də mən.

İmam danışdıqca yerində qurcalanan Hürr dözə bilməyib dedi:

- Ya Hüseyn, mənim o namələrdən xəbərim yoxdur.

İmam Hüseyn (ə) buyurdu:

- Sənin xəbərin yoxdursa da qoşunun içərisində xəbəri olan yoxdur. - Əlinin işarəsi ilə məktubların gətirilməsini istədi. - Bax, budur o məktublar. Görürsünüz? Bunların hamısını siz kufəlilər yazmısınız. Mən sizin bu dəvətlərinizi qəbul edib bura gəlmişəm. Onu da bilin ki, əqidəsizlik və hərdəmxəyallıq bağışlanmaz günahlardandır.

Əsgərlər dinməyib sakitcə başlarını aşağı saldılar. Elə bu vaxt Kufə tərəfdən bir neçə atlının gəldiyi göründü.

Qasidlər qoşundan xeyli aralıda Hürrlə qısa söhbət edib, tələsik atlarını geri çapdılar.

Namazdan sonra İmam Hüseyn (ə) Hürrü xeyli qəmgin və kədərli görüb soruşdu:

- Nə olub ya Hürr? Yoxsa mənimlə xoş rəftar etdiyinə peşimansan?

Bu sözdən alınan Hürr xırıltılı və yorğun bir səslə dilləndi:

- Xeyr, ya Hüseyn. Məsələ tamamilə başqadır. Məlun İbn Ziyad məni bura göndərəndən sonra ağlına nə gəlibsə, arxamca əlavə məktub da göndərib. Bayaqkı qasidlər həmin məktubu gətirmişdilər. Məni kədərləndirən odur ki, İbn Ziyad da, Yezid də sənin qanına susayıb. Bax, gör məktubda nə yazır, - deyə Hürr əlində bükmələdiyi məktubu acaraq yenə həmin kədərli səslə oxudu. Sonra dərindən köks ötürüb əvvəlki sözünə qayıdaraq: - Görürsənmi o məlunu? Onun fikri-zikri sənsən. Sizin dəstəni susuz bir yerdə saxlatdırıb beyət almayınca buraxmamağı tapşırır. İndi mən nə edim, bilmirəm. Səni müdafiə etsəm İbn Ziyad və Yezid məni cəzalandıracaq. Sənə qəsd etsəm, Allah tərəfindən cəzalanacam - dedi.

Aralığa dərin sükut çökmüşdü. Nə İmam Hüseyn (ə) danışırdı, nə də Hürr. İmam Hüseynin (ə) daha Hürrə deyiləsi sözü yox idi. Nə lazımdırsa bildirmişdi. Ona görə də Hürrün qəti qərarını gözləyirdi.

«Yenəmi zəndimdə yanılmışam? Axı Hürr namərd adama oxşamır. Yəni bu Kufədə bir nəfər də olsun əqidəli adam qalmayıbmı? Yəni bu şeytanın nökərləri hamınınmı gözünə pərdə çəkib, ürəyini ovsunlayıb, ağlını əlindən alıb?» - deyə fikirləşən İmam gözaltı baxışlarını yerə dikib kədərli

dayanan Hürrü süzdü. «Yox-yox, bu insanda hiylədən, məkrdən əsər-əlamət yoxdur. Mən sənə inanıram Hürr. Atam Əliyyəl-Mürtəzanı da, qardaşım Həsəni-Müctəbanı da hamı insanlara inanmaq üstündə qınayıb. Və o adamlar dərk etməyiblər ki, inam ən yüksək insani keyfiyyətdir. İndi günah məndədi, yoxsa kufəlilərdə? Mən səhv eləmişəm, yoxsa kufəlilər? Gələcək nəsil məni kufəlilərə inandığım üçün qınayacaq, yoxsa onları öz əqidələrindən döndükləri üçün lənətləyəcək?..»

- Yəbnə rəsulullah, sizin bircə an belə kədərlənməyinizi bütün dünya malına dəyişmərəm. Qəm eləməyin. Qoymaram başınızdan bir tük də belə əskik olsun deyən Hürrün səsi İmam Hüseyni (ə) xəyaldan ayırdı.

İmam Hüseyn (ə) gözləri yaşarmış halda, dodaqları titrəyə-titrəyə, qəhərdən boğula-boğula danışan Hürrü süzüb əlini onun çiyninə toxundurdu.

Gövrəlib coşmuş Hürr İmamın bu sözsüz minnətdarlığından vəcdə gələrək dedi:

- O əl qələm olsun ki, sənin kimi şahzadəyə qılınc çəkə. Dağılsın o igidin yurdu ki, dünya malından ötrü sənin kimi pak, müqəddəs bir vücuda qəsd edə. Ancaq müşayətimi də davam etdirəcəm. Təzədən geriyə Məkkəyə qayıtmağınıza imkan verə bilmərəm.

...İmam Hüseyn də (ə), Hürr də sakitləşmişdi. Artıq qaranlıq düşmüş, səmada ulduzlar görünməyə başlamışdı. Xəfif səhra mehi onların ruhunu oxşayırdı. Hürr artıq özünə gəlmişdi. O, indi İmam Hüseyni (ə) xilas etmək üçün yollar axtarırdı.

- Ya Hüseyn, mən belə fikirləşirəm ki, sizin dəstə əsgərlərdən aralansın. Mən sizi kənardan da izləyə bilərəm. -

Hürr nədənsə qəlbində tutduğu gizli fikrini - imamı xilas etmək istəyini bildirmədi.

İmam Hüseyn (ə) Hürrün məsləhətini bəyənib ondan ayrıldı, Hürrün dediyi kimi, öz dəstəsini qoşundan aralı çəkdi. Gecə yarısı yenə yolu davam etməyi bildirdi. Ancaq nədənsə dəstənin bütün üzvlərindən fərqli olaraq İmam Hüseyn (ə) yolunu dəyişdiyindən heç də sevinmirdi. O, atına minib «Allah necə məsləhət bilirsə elə də olacaq», - dedi.

Karvan yolun səmtini dəyişib hərəkətə gəlməsinə baxmayaraq, İmam Hüseyn görünmürdü. Adətən dəstənin önündə gedən İmam Hüseyn bu dəfə hamıdan arxada qalmışdı. Əli-Əkbər və Həzrət Abbas narahat olub atlarını geri çapdılar.

Onlar İmam Hüseynə (ə) çatarkən qəribə bir mənzərənin şahidi oldular. İmam Hüseyn (ə) atı qamçılayıb irəli getməsini məcbur etsə də, at şahə qalxıb kişnəyir, sonra dırnaqları ilə qumu göyə sovurur, geri çevrilməyə can atırdı. Artıq karvan dayanmışdı. İmamın ləngidiyini görən süvarilər nəsə bir hadisənin baş verdiyini güman edib geriyə qayıtmışdılar.

İmam Hüseyn (ə) atın hərəkət etmədiyini görüb yerə atıldı. Əli ilə tərləyib köpük içində olan atın boynunu sığalladı. Bayaqdan bəri dırnaqları ilə qumu göyə sovuran, kişnəyib şahə qalxan, yerə mıxlanıb hərəkət etməyən at İmam Hüseynin (ə) bu əl təmasından sonra sakitləşdi. Həyatında ilk dəfə idi ki, Zülcənah adlı bu at onun sözünə baxmırdı. İmam Hüseyn (ə) artıq atı incitməyə qıymırdı. İmam atın mülayimləşdiyini görüb yenidən ayağını üzəngiyə qoymaq istədi. Lakin Zülcənah yenə fınxırıb kənara çəkildi.

Heç kim gözlərinə inanmaq istəmirdi. Zülcənahın İmamla bu cür rəftarını onlar ilk dəfə idi ki, görürdülər.

Əli-Əkbər bu hala dözməyib dilləndi:

- Başqa at gətirin....

- Yox, lazım deyil, - deyə İmam Hüseyn (ə) Əli-Əkbərin sözünü kəsdi. Sonra üzünü bələdçilərə tutaraq soruşdu:

- Bu yerin adı nədir, bilmirsiniz?

- «Bura Mariyə torpağı deyərlər» - deyə bələdçilər bildirdilər.

İmam Hüseyn (ə) bir qədər fikrə gedib yenidən bələdçilərdən soruşdu:

- Bəlkə buranın başqa adı da var?

Başqa bir bələdçi etinasız bir halda yerindən dilləndi:

- Hə, bir adı da Kərbəladır, ya İmam.

İmam Hüseyn (ə) bu sözlərdən diksinən kimi oldu. Gecənin qaranlığında ətrafa boylanıb baxışları ilə nə isə, kimi isə axtardı. Sonra heç kimin gözləmədiyi bir halda əllərini göyə açıb uca səslə dilləndi:

- La ilahə illəllah! - sonra - Aman Allahım, bura dərd və bəla torpağıdır, dedi.

İmam Hüseynin (ə) yadına Mədinədə babası Rəsul-Əkrəmin (s) mübarək qəbrini son dəfə ziyarət etməsi düşdü. Orda yuxuya gedərkən bu bəlalı torpaq onun gözünə görünmüşdü. İmam Hüseyn (ə) bir də yaddaşının dərinliyinə getdi. Axı, həmin yuxudan əlavə də bu torpağın cizgiləri onun yaddaşına həkk olunmuşdu. Bu yerin havası da, ayaq basdığı hər qarışı da ona tanış idi. Yaddaşını vərəqləyən İmam Hüseyn axır ki, axtardığını tapdı. Bu çoxdankı bir əhvalat idi. Onda atası Əliyyəl-Mürtəza (ə) ilə «Siffeyn» döyüşünə gedirdi. Əmirəl-möminin (ə) bu yerə çatanda

atdan düşüb dincəldi. Mübarək başını İmam Həsənin (ə) dizi üstünə qoyub yuxuya getdi. Və qəflətən yuxudan oyanıb ah çəkdi. İmam Həsən (ə) ondan narahatlığının səbəbini soruşanda Əliyyəl-Mürtəza (ə) dedi:

- Səni gördüm yuxuda Hüseyn. Gördüm ki, bu səhra dönüb olub qan dənizi. Sən də bu dənizdə boğulur, nicat istəyirsən. Nə qədər edirəmsə imdadına yetişə bilmirəm. Sonra sınayıcı bir nəzərlə Hüseyni süzüb, - Ya Hüseyn, yuxuda gördüklərim sənə üz versə nə edərsən? - soruşdu.

Onda İmam Hüseyn (ə) Qurandan bir ayə misal gətirmiş, sonra isə «Ya Əli, səbr edərəm, Və səbr ilə əcr istərəm» - deyə cavab vermişdi.

Ətrafdakıların ona diqqətlə baxdığını görən İmam Hüseyn (ə) qılıncını sıyırıb yerə sançdı. Sonra üzünü Əli-Əkbərlə, Həzrət Abbasa tərəf tutaraq dedi:

- Daha heç hara gedəsi olmadıq. Karvanı dayandırıb düşərgəni burada salın.

***

İmam Hüseynin (ə) qasidinin tutulduğunu eşidən İbn Ziyad bu xəbəri gətirən əyana ənam verib, təcili onu görmək istədiyini bildirdi. O, otaqda var-gəl edir, İmam Hüseyni (ə) məğlub etdikdən sonra Yezidin onu necə tərifləyəcəyini, bütün İraqı onun ixtiyarına verəcəyini xəyalında canlandırırdı. O, yumruqlarını düyünləyib havalanmış adamlar kimi öz-özünə danışmağa başladı. «Bütün İraq mənim olacaq. Kufənin də, Bəsrənin də, Bağdadın da hakimi özüm olacam...»

Mühafizəçilərin Qeys ibn Müsəhhəri otağa gətirmələri İbn Ziyadı xəyaldan ayırdı.

İbn Ziyad qolu bağlı olmasına baxmayaraq, qarşısında şax dayanmış tutqun sifətli, ucaboy cavanı başdan-ayağa süzüb yenə otaqda var-gəl etdi. İkinci dəfə ona yaxınlaşanda xəncərini sıyırdı. Qeys İbn Ziyadın bu hərəkətindən gözünü də qırpmadı. O, ürəyində dua oxumaqla məşğul idi. Hamıya elə gəldi ki, İbn Ziyad xəncərlə Qeysi qətlə yetirəcək. Ona görə də nəfəslərini belə dərmədən bu mənzərəni seyr edirdilər. Ancaq İbn Ziyad Qeysin arxa tərəfinə keçib xəncərlə onun qollarının kəndirini kəsdi. Hamını təəccüb və heyrət bürümüşdü. İbn Ziyad yenə otaqda var-gəl etməyə başladı. Qəfildən Qeysni qarşısında dayanıb çox mülayim bir səslə dilləndi:

- Cırdığın məktub kimdən idi və sən onu kimə verməli idin?

Qeys hiss etdi ki, indi İbn Ziyada İmam Hüseynin haqlı olmasından danışmaq kor adama rəngləri təsvir etmək kimi bir şeydir. Ona görə də cavabı ləngidib İmamla son söhbətini xatırladı. «Ya Qeys, bu mənim Kufəyə sonuncu məktubumdur. Bil ki, Əhli-Beytin taleyi bizim gələcək hər hansı bir uğurumuz bu məktubla bağlıdır». İmam Hüseyn bu sözlərdən sonra Kufədəki dostlarına ünvanladığı məktubu ona vermişdi. İndi Qeysi ölüm cəzası deyil, məktubu ünvana çatdıra bilməməsi narahat edirdi. Qeys qətlə yetiriləcəyini duymuşdu. Ona görə də İbn Ziyadın bu xoş rəftarına aldanmadı. Əksinə, daha kəskin şəkildə cavab verdi:

- Dost sirri düşmənə gizli gərək.

Hiyləgər İbn Ziyad Qeysin bu cür kəskin danışmasından qeyzlənmək əvəzinə şaqqanaq çəkib güldü. Axırda Qeysi ram etmək məqsədilə dedi:

- Ey Qeys, görürəm cəsarətli cavansan. Hüseynin adamı olduğunu da bilirəm. Səni öldürməyə əlim gəlmir. Əfv olunmaq üçün iki şərtə əməl etməlisən. Ya məktubun məzmununu və kimə göndərildiyini deməlisən, ya da minbərə çıxıb Hüseynə və onun ailəsinə nasəza söyləyib, Yezidə itaət etdiyini bildirməlisən.

İmam Hüseynə (ə) öz sədaqətini daha qabarıq bildirmək arzusunda olan Qeys İbn Ziyadın ona verdiyi son fürsətdən istifadə edəcəyinə sevinərək dedi:

- Ey İbn Ziyad, namənin məzmununu özümdən də uydurub sənə deyə bilərəm. Ortada əşyayi-dəlil olmadığına görə sən inana da bilərsən, inanmaya da bilərsən. Ancaq minbərdən Hüseynin əleyhinə danışmaq təklifini daha məqbul hesab edirəm. Əmr ver camaat toplaşsın.

Nə isə təzə bir xəbər eşitmək arzusunda olan Kufə camaatı məscidin qarşısına toplaşdı. Heç onların ağlına da gəlməzdi ki, İmam Hüseynin (ə) göndərdiyi adam minbərdən yenidən onlara müraciət edib Yezid hakimiyyətinə qarşı çıxmağa çağıracaq. Onlara elə gəlirdi ki, Müslümün qətlindən sonra İmam Hüseyn yenidən Məkkəyə qayıdacaq və bununla da ara sakitləşəcəkdi.

Qeys minbərdən əvvəlcə şəhəri süzdü. Sonra üzünü Kərbəla istiqamətinə tutub dodaqaltı pıçıldadı: «Ya Hüseyn, sənin yolunda ölümə getməyi əbədi səadət sayıram. İndi kufəlilərə dərs verəcəm. Bəlkə bundan sonra onlar hidayət yoluna qayıdalar. Sən naməni bir nəfərin üstünə yazmışdın. Mən sənin sözünü bütün şəhər əhlinə çatdıracam... Əlvida,

ya Hüseyn. Tapşırığını yerinə yetirib Rəsulullahın, Əliyyəl-Mürtəzanın hüzuruna gedirəm!» - Qeys hamının onun danışmasını gözlədiyini görüb, düşüncədən ayrılıb uca səslə dedi:

- Ey Kufə əhli. Mən bura Hüseyn ibn Əli tərəfindən göndərilmişəm. Gəlmişəm sizi xəbərdar edəm ki, o, Kərbəlada düşərgə salıb sizin yolunuzu gözləyir. O, vədinə əməl edərək gəlib. Bəs sizin verdiyiniz söz hanı? Siz niyə vədinizə xilaf çıxdınız? İbn Ziyadın da, Yezidin də hakimiyyəti müvəqqətidir. Əbədi səadətə çatmaq istəyirsinizsə, Hüseynə kömək edin. Zəmanənin İmamına yardımçı olun!

Sonra Qeys əsgərlərin oxla onu nişan aldığını görüb var səsi ilə qışqırdı:

- Ey İbn Ziyad, lənət olsun sənə və sənin böyüyün Yezidə. Onsuz da Allah siz zülmkarların cəzasını verəcək. Ey Kufə əhli, niyə dayanmısınız? Niyə daş-qalaq edib öldürmürsünüz o məlunu? O da, Yezid də peyğəmbərimiz Həzrəti Rəsulullahın ətindən, qanından törəyən övladlarının düşmənidir. O, müsəlman deyil, kafirdir...

Sinəsinə, boğazına sancılan oxlar Qeysin sözünü yarımçıq kəsdi. Qeys son nəfəsində kəlmeyi-şəhadətini söyləyib, Allahın rəhmətinə qovuşdu.

Qeysin bəlağətli nitqindən, onun minbərdə oxlanmasından sonra həyəcanlanan camaat dəniz kimi dalğalandı. Qorxuya düşən İbn Ziyad qoşuna adamları sakitləşdirmək əmri verdi. Həmişə olduğu kimi, bu dəfə də tez qızışan kufəlilər əli qılınclı, nizəli qoşunla qarşılaşanda boşalmış tuluğa bənzədilər.

İbn Ziyad Hüseyn ibn Əlinin Kərbəlada qərar tutduğunu bilirdi. Qeysin bu xəbəri təsdiq etməsindən sonra yenidən vahiməyə düşdü. Ömər ibn Sədi, Şimr Zilcövşəni, Sinan ibn Ası və digər əyan və sərkərdələri məşvərət üçün yanına çağırdı.

- Nə deyirsiniz, ey Kufənin əyanları? Budur, Hüseyn ibn Əli gəlib Kərbəlada qərar tutub. Kufəlilərin də xasiyyətinə yaxşı bələdsiniz. Bir də gözümüzü yumub açsaq, görəcəyik ki, bütün şəhər əhli Hüseyn ibn Əlinin pişvazına gedir. O mürtəd Qeysin nitqindən sonra gördünüz camaat necə coşmuşdu? - İbn Ziyadın bu sözlərindən sonra həmişə olduğu kimi, bu dəfə də əyanlar danışmaq üçün Ömər ibn Sədə işarə etdilər. O irəli çıxıb dedi:

- Ya əmir, sən bizim hamımızdan ağıllısan. Sənin məsləhətlərindən, gördüyün işlərdən sonra şəhərdə bir az əminamanlıq yaranıb. Sizdən əvvəl Müslüm adamları necə başdan çıxarmışdısa, heç kimi tanımaq olmurdu. İndi də siz necə məsləhət bilirsinizsə, elə də edin. Biz də amin deyək.

İbn Ziyad əsəbi halda:

- Yox, Ömər ibn Səd, bu məsləhət olmadı.

Şimr Zilcövşən ibn Ziyada yarınmaq üçün özünü irəli verdi:

- Ya əmir, Hüseynin ətrafında cəmi bir ovuc adam toplaşıb. Məndən olsa onları elə Kərbəlada məhv edərik qurtarıb gedər.

Ömər ibn Səd:

- Sən Hüseyn ibn Əlini yaxşı tanımırsan, ya Şimr. Onu bil ki, Hüseynin bu kiçik dəstəsi hər gün böyüyüb qarşısıalınmaz bir qoşuna çevrilə bilər.

İbn Ziyad onların sözünü kəsərək:

- Ömər ibn Səd düz deyir. Hüseyn ibn Əlinin başı bədənindən ayrılmayana qədər o, qorxulu və təhlükəlidir. Ona görə də qərara gəlmişəm ki, Şamdan yenə qoşun dəvət edim. Birinci ona görə ki, Şamda Əliyə və Əli övladlarına nifrət daha güclüdür. Rəhmətlik Müaviyə onları elə tərbiyə edib ki, Əlini və onun övladlarını düşmən sayırlar, onların qanını axıtmağa həmişə hazırdırlar.

Ömər ibn Səd Şimri Zilcövşənin onu üstələdiyini görüb bu dəfə yeni təkliflə danışmağa başladı:

- Ya əmir, deyirəm bəlkə Hüseyn ibn Əliyə əvvəlcə bir məktub yazasınız. Bəlkə fikrini dəyişib Yezidə beyət edəcək. Belə halda artıq əziyyətə, qan tökməyə dəyərmi?

İbn Ziyad taxtından qalxıb yenə otaqda var-gəl etdi. Sonra İbn Sədin qarşısında dayanaraq: «Mən də bu fikirdəyəm» - dedi. Üzünü katibə tutaraq uca səslə dilləndi:

- Yaz ki, ey Hüseyn, səndən beyət almaq Yezidin qəti fikridir. Beyət etməsən, Yezid səni qətlə yetirməyi tapşırıb, gəl sözə qulaq as. Özünə yazığın gəlsin. Əgər Yezidin beyətini qəbul etməsən müharibəyə hazır ol.

***

İbn Ziyad narahat idi. Nə gecəni rahat yatır, nə də gündüz dincələ bilirdi. İmam Hüseynlə döyüşmək üçün 20 min nəfərlik qoşun toplamasına baxmayaraq, yenə hansı bir gözə-görünməz qüvvəsə onu içəridən oyur, ruhunu sanki məngənə arasında sıxırdı. Qara bir qorxu onun bütün varlığını sarmışdı. Bütün bu iztirabların, əzab və işgəncələrin hansı bir xəstəlikləsə bağlı olduğunu zənn edən

İbn Ziyad Kufəyə gəldiyi gündən indiyə kimi ilk dəfə olaraq şəhər həkimini hüzuruna çağırtdırdı.

- Bilmirəm nə bəladır məni sarıb? Əllərim od tutub yanır, qulaqlarım kürə kimi qızarır. Hamı gözümə cin-şeytan şəklində görünür, - deyə İbn Ziyad onu səbrlə dinləyən təbibə bütün başına gələnləri danışdı.

Təbib uzun çəkən müayinədən sonra dedi:

- Ya əmir, elə bir ciddi xəstəliyiniz yoxdur. Ürəyinizin döyünməyi də, tənginəfəs olmağınız da əsəblə bağlıdır. Sizə rahatlıq və dinclik lazımdır. Qəzəblənmək, kiminləsə mübahisə etmək səhhətinizə mənfi təsir edə bilər.

İbn Ziyad əsəblərinin pozulmasını yüngül mərəz sayıb gülümsündü:

- Çox arxayın adama oxşayırsan, təbib. İlin-günün bu vaxtında sakit dayanmaq olar? Eşitməmisən, Hüseyn ibn Əli öz dəstəsi ilə gəlib dayanıb Kərbəlada. Yezidin və mənim ünvanıma yüz cür nalayiq sözlər söyləyir. Deyir siz taxtdan düşün, mən çıxım. İndi buna necə qəzəblənməyəsən?

- Mən sizin davanıza qarışmıram. Ancaq onu deyim ki, Həzrət Rəsul-Əkrəmin əziz övladının, Əhli-beytin üstünə bu qədər qoşun göndərib onlarla cənk etmək günaha batmaqdır. Peyğəmbərimizə səcdə edib, onun övladlarına əzab vermək....

- Dayan, ey təbib. Həddini aşma, - deyə İbn Ziyad əlini qılıncının dəstəyinə atdı. Sonra ona yaxılaşdı:

- Bəxtin onda kəsdi ki, təbibsən. Yoxsa... - İbn Ziyad sözünün ardını gətirməmiş təbib çox təmkinlə dilləndi:

- Ya əmir, mən sizi istəyib belə dedim. Sizin dərdinizin əlacı İmam Hüseynlə münaqişədən əl çəkməyinizdədir. Yaxşı bilirsiniz ki, müqəddəslərə əl qaldırmağın cəzası

böyük olur. Bir də ki, Allahın barmağı yoxdur ki, adamın gözünü çıxartsın. O öz günahkar bəndəsini dərd və bəlayla, xəstəlik və mərəzlərlə cəzalandırır, - deyən təbib İbn Ziyadın fikrə getdiyini görüb daha da ürəklənərək, - Ya əmir, mənim sözlərimin saflığına inana bilərsiniz. Allaha and olsun ki, riyakarlıq eləmir və sizi istədiyimdən bu sözləri deyirəm. Əl çəkin bu münaqişədən. Yoxsa daha ciddi dərdlərə mübtəla olarsınız.

Allah xofu İbn Ziyadın ürəyinə azacıq yol tapdığından və xəstəliyinin daha da güclənməsindən qorxaraq həkimə daha bir söz demədi. Sadəcə əli ilə ona otağı tərk etməyi işarə etdi. Sonra otaqda var-gəl edə-edə xeyli fikirləşdi. Öz hərəkətlərini, əməlini ölçüb-biçdi. Dünya malı, vəzifə və mənsəblə əbədi dünyadakı səadəti, pak vicdanı, həqiqəti, müqəddəsliyi müqayisə etdi. Şeytanın göstərdiyi yol daha cazibəli göründü gözlərinə. İbn Ziyad gülümsünüb əlini-əlinə vurub öz-özünə danışaraq dedi: «Bu adamlar niyə bu qədər əbləh və sadəlövdürlər. Nəqd işi qoyub, nisyə dalınca gedirlər... Ay səni həkim, əməlli-başlı ənam hazırlamışdım onunçün. Özü-öz əli ilə çırağını söndürdü. Belə xatalı adamları birdəfəlik rədd eləmək lazımdır».

Kufənin əyanları darul-əmarəyə toplaşmışdı. İbn Ziyad İmam Hüseyidən (ə) aldığı cavabla əlaqədar onları bura dəvət etmişdi. Həkimlə söhbətindən əsəbləri tarıma çəkilmiş vali yenə qeyzli idi. O, üzünü məclis əhlinə tutub dedi:

- Ey Kufənin böyükləri, Şamdan gəlmiş sərkərdələr, müharibəyə hazırlaşın. Bilirəm, bu, ağır döyüş olacaq. Ancaq kim bu döyüşə rəhbərlik etsə, İraqın hansı böyük vilayətini istəsə ona verəcəm.

Heç kimdən cavab gəlmədi. Məclisdəkilər başlarını aşağı salıb sakitcə dayandılar. İbn Ziyadın vücudunu yenə vahimə bürüdü. Öz-özünə: «Bu nədir, heç kim dillənmir? Bəlkə mənim son hadisələrdən xəbərim yoxdur? Bəlkə Hüseyn ibn Əli ətrafına yeni qoşun toplayıb? Yoxsa heç kim günaha batmaq istəmir? Yox, elə şey yoxdur. Bu döyüşdə hamı iştirak etməlidir. Deməli, bunlar yaxasını qırağa çəkib məni irəli vermək istəyirlər. Ay siz öləsiniz. Hüseyn ibn Əlinin qanına hamımızın əli batmalıdır. Gör nə sakitcə dayanıblar, məlunlar. Hamısı müftə yem axtarır, vəzifə arzulayır, mənsəb istəyir, amma bir ovuc adamın qarşısına çıxmağa cəsarət tapmırlar. Yox, elə şey yoxdur. Daha xəzinədə var-dövlət də qoymadınız. Bütün dəmirçixanalar sizə işləyir. Havayı qılınc, nizə hazırlayır. Yaraşıq üçünmü götürəcəksiz onları? O qılınclar Hüseyn ibn Əlinin başını kəsmək üçün düzəldilir. Havayı mindiyiniz atlar Hüseynin və onun adamlarının cəsədini ayaqlamaq üçün bəslənib... Bunlara bax, mənimlə oyun oynayırlar,» - deyə fikirləşdi. Bir qədər də var-gəl etdikdən sonra gəlib Ömər ibn Səd Vəqqasın qarşısında dayandı. Əsəbi bir səslə:

- Sənin atan Kufənin bünövrəsini qoyanlardan biri olub, İranı dinə gətirib. Nə vaxtdır ki, özün də Rey və Təbəristan arzusundasan. O mülkü verdim sənə, ey İbn Səd. Öz şücaətinlə xəlifəmiz Yezid ibn Müaviyyənin etimadını doğrultmalısan. Səni qoşuna başçı təyin edirəm. Hüseyn ibn Əlinin üstünə sən getməlisən. Çünki xilafətdə səndən cəsur döyüşçü yoxdur. Get və xəlifə Yezid ibn Müaviyyəyə Hüseyn ibn Əlidən beyət al. Qəbul etməsə, Hüseynin və onun əhli-əyalının, əshabəsinin başlarını kəsib bu otağa gətir.

Məclisə ölü bir sükut hakim kəsilmişdi. Hamı nəfəsini dərmədən İbn Ziyadın havalı adamlar kimi etdiyi söhbəti dinləyir və Ömər ibn Səd Vəqqasın nə cavab verəcəyini gözləyirdi. Xəcalət, qorxu və iztirab tərindən islanmış Ömər ibn Səd İbn Ziyadın onu vəcdə gətirəcək sözlərindən və vədindən sonra xəyalən özünü hakimlik taxtında hiss etdi. Kef məclislərini, rəqqasələri, təzə hərəmxanasını gözləri önündə canlandırdı. Sonra Kərbəlanı, susuz səhranı gözü önünə gətirdi. Bir tərəfdə dünya malı, bir tərəfdə saf əqidə, paklıq, müqəddəslik. O hansına üstünlük verəcəyini müəyyənləşdirə bilmirdi. İbn Ziyadın ondan cavab gözlədiyini duyub xəyaldan ayrıldı, ancaq yenə bir söz demədi.

- Eşidirsənmi, ey Ömər?! Rey və Təbəristan - Bu o mülklərdir ki, onları sənin atan fəth etmişdi. - deyə İbn Ziyad bir az da yaxına gəlib müsahibini vəcdə gətirəcək bir tərzdə dilləndi. Sonra sözünə əlavə edərək: - Mən həmin mülkləri başqalarına da təklif edə bilərəm, - dedi.

Ömər ibn Səd Şimrin və başqa əyanların gözlərindəki paxıllıq parıltısını görüb İbn Ziyadın təklifinə razılıq verdi.

***

Xeymələri qurub dərd və bəla torpağında öz gələcək taleyini gözləyən İmam Hüseyn (ə) günorta namazından sonra istirahət edirdi. O, düşünür, yollar axtarırdı. Ruhu onu səmanın ənginliklərinə cəlb etsə də, vücudu, ağlı ona hələ mübarizə aparmağı, döyüşməyi tövsiyə edirdi. Onun səmaya meyl etməsi ali bir qandan yaranmasından, mələksima olmasından irəli gəlirdisə, maddi aləmə bağlılığı bir bəşər

övladı kimi torpağı sevməsi ilə əlaqədar idi. İmam Hüseynin (ə) ruhu nə qədər cənnət eşqi ilə qanad açırdısa, qəlbi yaşamaq, müqəddəs islamı yaşatmaq, insanlara həqiqəti söyləməyi öyrətmək, dinin və Allahın düşmənləri ilə mübarizə aparmaq eşqi ilə çırpınırdı. Ancaq nə yaşamaq fərmanını vermək onun əlində idi, nə də göylərə çəkilmək istəyi özündən asılı idi. Özünü taleyin ağuşuna atan İmam Hüseyn (ə) cənab Haqqın buyruğunu gözləyirdi. «Allah necə məsləhət bilirsə, elə də olacaq», - deyə səbr edirdi.

- Yəbnə rəsulullah, Kufə tərəfindən səhranı bürümüş bir qara duman görünür, - deyə Əli-Əkbər xurma ağacının kölgəsində fikrə getmiş atasına yaxınlaşdı.

Öz ülvi aləminin seyrinə dalmış İmam başını yuxarı qaldırıb oğluna baxdı. Bu baxışlardan ətrafa nur saçıldı. Baş verəcək hadisələr ona bəlli olduğundan təmkinini pozmadan dedi:

- Yəqin İbn Ziyad təzə qoşun göndərir. - Sonra gözlərini qıyaraq qaraltı görünən səmtə baxdı.

Bu bir kəlmə söz bir anın içində bütün düşərgəyə yayıldı. Döyüşçülər silahlanıb hazır vəziyyətdə dayandılar. Qadınlar və uşaqlar xeymələrinə çəkildilər.

İmam Hüseyn (ə) qardaşı Həzrət Abbas tərəfə çevrilərək soruşdu:

- Ehtiyat su varmı?

Onun əvəzinə Əli-Əkbər cavab verdi:

- Var, ancaq azdır. Hürrün əsgərlərinə və atlarına verdik.

İmam Hüseyn (ə) Əli-Əkbərin məsum və səmimi gözlərinə baxıb dərindən bir ah çəkdi. Onun iztirablı çöhrəsi gələcək bəlalardan soraq verirdi, Onlar İmama gün kimi

aydın idi, ancaq indi əziz oğluna, istəkli qardaşına necə deyəydi ki, düşmən bizi qılıncla yox, bu odlu səhrada susuzluqla imtahana çəkəcək.

İmam Hüseyn (ə) Hürlə olan söhbətdən sonra başına gələn hadisəni xatırladı. Axı, Müslümün ölüm xəbərini eşidəndən sonra, bu hadisədən əvvəl də geriyə - Məkkəyə qayıtmağa imkan var idi. «Deməli, Allah özü belə məsləhət bilib» - deyə İmam Hüseyn (ə) özü-özünə təskinlik verdi.

Çox keçmədi ki, at nallarının tappıltısı bütün Kərbəla düzünü bürüdü. Ömər ibn Sədin başçılıq etdiyi 5 min nəfərlik qoşun düşərgədən bir az kənarda dayandı. Rey və Təbəristanın hakimi olmaq həvəsi ilə döyüşə gələn Ömər ibn Səd ilk əvvəl İmam Hüseynə (ə) belə bir məzmunda məktub yazıb göndərdi: «Ey Hüseyn, bu diyara gəlməkdə qərəzin nədir?» Hər an döyüşə hazır olan Ömər ibn Səd İmam Hüseynin cavab məktubunu oxuyanda təəccübləndi. «Bu ki, bizimlə müharibə eləmək fikrində deyil. Sözlərinin hamısı həqiqətdir. Məkkədə oturub ibadətini eləyirdi. Biz kufəlilər qalaq-qalaq məktublar yazıb onu çağırdıq. İndi də...»

Ömər ibn Səd bu sözləri öz-özünə pıçıldayıb əllərini göyə açdı. «Ya Rəbbim, elə et ki, arada heç bir hadisə baş vermədən Hüseyn ibn Əli öz diyarına qayıtsın!» - Öz-özünə hirslənən Ömər ibn Səd qamçısını yerə döyub yenə öz-özünə danışdı: «Yox, yox, mən bu günaha bata bilmərəm». Sonra nə isə düşünərək: «İbn Ziyadın ağzını bir də sınayacam. Kaş sülhə razı ola» - dedi.

Artıq qasidlərin gediş-gəlişi, Ömər ibn Sədlə İbn Ziyadın məktublaşması qurtarmışdı. Ömər ibn Sədə acığı tutan İbn Ziyad Həsən ibn Tamiri, Şis ibn Rəbini və Şimr Zilcövşəni 10 min nəfər döyüşçü ilə Kərbəlaya göndərdi.

İmam Hüseynin düşərgəsi üzük qaşı kimi dairəyə alınmış, Fərat çayına gedən yol kəsilmişdi. Məhərrəm ayının yeddinci günündə Həzrət Abbas ibn Əli əlli nəfər süvari ilə mühasirəni yararaq düşərgəyə bir qədər su gətirə bildi. Bu hadisə İmam Hüseynin (ə) dəstəsi ilə İbn Ziyadın qoşunu arasında baş verən ilk döyüş idi.

Su yolunun kəsilməsi İmam Hüseyni (ə) sarsıtmışdı. O, əlacsız qalıb Ömər ibn Sədlə görüşmək istədiyini bildirdi. Onlar qoşunlardan xeyli kənarda bir neçə nəfərin iştirakı ilə görüşdülər. İmam Hüseyni (ə) oğlu Əli-Əkbər və qardaşı Həzrət Abbas müşayiət edirdi.

İmam Hüseyn (ə) diqqətlə onu süzəndən sonra hiss etdi ki, bu cavan sərkərdə var-dövlət və vəzifə hərisidir. Gözlərinin dərinliyində isə hansısa bir tərəddüd, peşmançılıq odu sönmüşdür.

- Ey Ömər, sənin atan Səd ibn Vəqqas xilafətin sayılan igidlərindən olub. İranda yolundan azanları o, imana gətirib. Atəşgahları uçurub, yerində məscidlər tikib. Sən məgər məni tanımırsan ki, üstümə qoşun çəkib gəlmisən? Axı, mən sənə məktubumda yazmışdım. Məni bura siz kufəlilər dəvət edibsiniz. Siz mənə beyət edib İmam seçibsiniz, mən sizə yox. Bəs indi vədə xilaf çıxmağınız bir yana qalsın, Əhli-beyti su ilə imtahana çəkmək nədir?

İbn Səd günahkar adamlar kimi başını aşağı salıb bir qədər fikrə getdi. Sonra çox qəmgin halda dilləndi:

- Yəbnə rəsulullah, buyurduqlarınızın hamısı haqqdır. Açığını deyim ki, heç sizinlə qarşılaşıb yanınızda özümü bu qədər günahkar aparmaq istəməzdim. Görüşə sizin xahişinizlə gəldim, - deyən İbn Səd sözünə ara verdi. Bir

qədər tərəddüddən sonra sifəti tamamilə dəyişdi. Baxışlarında gözərən peşmançılıq qığılcımı yox olub getdi:

- Mənim ayrı yolum yoxdur, ya Hüseyn. Fərmanı yerinə yetirməsəm, İbn Ziyad qəzəblənib malımı-mülkümü dağıdar, əhli-əyalımı əsir götürər. O ki, qaldı su məsələsinə... O da göstərişlədir.

İmam Hüseyn (ə) bir daha Ömər ibn Sədin ürəyində peşmançılıq hissi yaratmaq məqsədi ilə buyurdu:

- Belə mal-mülk həvəskarısansa, Mədinədəki malikanəmi və mənzilimi bağışlayıram sənə. Sən İbn Ziyaddan yox, axirət əzabından qorx, ey Ömər! Bu dünyaya məgər etibar varmı?

Ömər ibn Sədin artıq bəhanəsi kəsilmişdi. O, baxışlarını İmam Hüseyndən (ə) gizlədib yalnız susmaqla kifayətləndi. Həmişə susmağı razılıq əlaməti bilən İmam Hüseyn (ə) bu dəfə Ömər ibn Sədin cavab verməməyini onun etirazı kimi qiymətləndirdi və qəzəblənərək buyurdu:

- Ey zalım, inan ki, bu əməllə muradına yetişməyəcəksən. Mən gedirəm, səni isə Ulu Yaradanın ixtiyarına buraxıram. Necə məsləhətdirsə, elə də etsin.

***

Kufədə qarışıqlıq idi. İbn Ziyadın adamları evbəev düşüb şəhər əhalisini İmam Hüseynlə (ə) müharibə etməyə təhrik edir, onlara ənam, at, qılınc, nizə vəd edirdilər. Yezid Şamda xəzinənin ağzını açdığından, İbn Ziyad da «səxavətli» olmuşdu. Yeni səfərbər etdiyi on minnəfərlik qoşunu Ömər ibn Sədin köməyinə göndərəndən sonra İbn Ziyad bir qədər sakitləşsə də, Kərbəla məsələsini nəzərindən

bir an da olsun yayındırmırdı. Şimr Zilcövşənin gətirdiyi son xəbər İbn Ziyadı yenidən hövsələdən çıxartdı.

- Necə? Nə görüş ola bilər Ömərlə Hüseyn arasında? Bu nə cəsarətdir belə? - deyə o, Şimrin üstünə qışqırdı. Sonra bir az mülayimliklə:

- Elə indi qayıdırsan Kərbəlaya. İbn Sədə məktub da yazacam, əgər müharibədən imtina etsə, Rey və Təbəristan mülklərinin fərmanını ondan geri alıb orduya da özün rəhbər olursan, - dedi.

Sevincdən göm-göy gözləri işım-işım işıldayan Şimr bir neçə dəfə təzim edib «Baş üstə, Ya Əmir» - deyə dilləndi. Sonra istədi İbn Ziyada bildirsin ki, gərək əvvəldən bu fərmanı mənim adıma yazaydın, onda görərdin mən nələr edirəm. Ancaq dilinin ucundan qaytardı bu sözləri. Artıq onun başında Rey və Təbəristan havası vardı. Bu cür böyük mülklərə sahib olmaqdan ötrü Şimr doğma övladını da qətlə yetirməyə razılıq verərdi.

***

Məhərrəm ayının səkkizinci günü Kərbəlada qərar tutan İmam Hüseyn döyüşün labüdlüyünə zərrə qədər də şübhə etmirdi. Qoşun sərkərdələri tərəfindən ona göndərilən məktubların hamısının məzmunu bir idi: «Yezidə beyət et».

Ondan hər gün yeni bir söz, məsləhət gözləyən əshabələri bu gün də sakitcə dayanıb İmam Hüseyndən (ə) nəsə eşitmək intizarındaydılar. Susuzluqdan dodaqları cadar-cadar olmuş, sifətlərinə səhranın tozu hopmuş bu sədaqətli, möhkəm əqidəli insanlara baxdıqca İmam Hüseynin (ə) qəlbi şan-şan olurdu.

- Mənim igidlərim, cəngavərlərim. Sizin əqidə birliyiniz, mübarizliyiniz məni riqqətə gətirir. Siz qorxmaz və cəsarətli adamlarsınız. Ancaq görün bir ətrafımıza nə qədər kafirlər toplaşıb. Bu din düşmənləri bizi əqidəmizdən, tutduğumuz siratəl müstəqim yolundan döndərmək istəyir. Din düşmənlərinin hücumuna tab gətirə biləcəyikmi? - deyə İmam Hüseyn (ə) sual dolu baxışlarını mücahidlərin üzünə dikdi.

- Bu qoşuna çox demə, ya Əmi. Bir belə də gəlsə sizin gücünüz müqabilində çox azdır. Yezid və İbn Ziyad hiyləgər, dinsiz və əxlaqsız olsalar da, sizin gücünüzü bilirlər. Ona görə belə vahiməyə, qorxuya düşüblər, - deyə Həsəni-Müctəbanın (ə) oğlu Abdullah irəli çıxıb İmam Hüseynin (ə) qarşısında dayandı. Qəhərdən boğulduğundan sözünün ardını deyə bilmədi. Üzünü yana çevirib göz yaşlarını dolmuş bulud kimi boşaltdı. Bir qədərdən sonra yenidən əmisinin qarşısında diz çöküb danışmağa başladı:

- Ya Əmi, bircə xahişimiz var səndən. Susuzluq hamımızı əldən salıb. Əmim Abbasın bir dəfə su gətirməsindən sonra düşmən bütün gücünü bizi sudan məhrum etməyə yönəldib.

- Yəbnə rəsulullah, göstər gücünü. Dua et, ya İmam. Böyük Allaha dua et ki, ulu cəddimiz xatirinə yox yerdən bizə su var eləsin.

- Göstər qüdrətini, ey zəmanənin İmamı.

- Bizə su, ya Hüseyn!

- Bir udum suyumuz olsa kafirlərdən zərrə qədər qorxumuz olmaz.

Mücahidlər arasından qopan bu nidalar İmam Hüseyni (ə) vəcdə gətirib ruhuna qanad verdi. Artıq o, heç nə eşitmir

və görmürdü. Əvvəlcə pıçıltı ilə Qurandan dediyi ayələr getdikcə bəlağətli, ilahi kəraməti olan bir səsə çevrilirdi. Əllərini göyə açıb ucadan dua oxuyan İmamın bu qeyri-adi mələklərə bənzər görünüşü onun ətrafına toplaşanları heyrətə saldı. Onlar hansısa bir möcüzəni baş verəcəyinə tam yəqinliklə inanırdılar. İmam Hüseyn (ə) maddi dünyadan bir anlığa təcrid olmuşdu. Bütün baxışlar İmamın baxdığı səmtə yönəlmişdi. Orda isə mavi səma və ulduzlardan başqa heç nə yox idi. Birdən bu ulduzlardan birinin işığı bir andaca artdı, çoxaldı və bir anda ətraf mavi bir nura büründü. Hamı nəfəsini içinə çəkib yerindəcə donub qalmışdı.

- Min şükür sənə, İlahi, min şükür! Sübhənallah, əlhəmdullah, la ilahə illəllah və Allahu-Əkbər.

Hamı bir ağızdan bu ilahi kəlmələri təkrarladı. Bir müddətdən sonra İmam:

- Şükr edin, duamız müstəcab oldu, - deyib bir neçə addım kənara çəkildi. Yerdə nəsə axtarırmış kimi ayağının ucu ilə qumluqda bir çuxur yaratdı. Sonra çox təmkinli bir səslə buyurdu, - Qazın buranı!

Heyrətdən donub qalmış döyüşçülər qılınc və nizələrinin ucu ilə həmin yeri bir qədər qazdılar. Göz yaşı kimi şəffaf olan su tapılmasına hamı uşaq kimi sevindi. Bir qədər ehtiyat götürdükdən sonra çeşmə qeyb oldu.

***

İmam Hüseyn (ə) yenə dərin fikirlərə dalaraq bir qədər kənardan onun dəstəsini mühasirəyə almış qoşuna baxıb təəssüflənirdi. «Bunlar necə də bədbəxt və günahkar

adamlardırlar. Bir az bundan əvvəl namaz qılıb peyğəmbərin adına salavat çevirən bu məlunlar namazları başa çatan kimi peyğəmbər övladına yüz cür nalayiq söz söyləyir, qılınclarını çəkib onu hədələyirlər».

İmam Hüseynin (ə) yadına atası Əliyyəl-Mürtəzanın (ə) Xəvricilərlə döyüşü düşdü. O vaxt Əliyyəl-Mürtəzaya qarşı çıxan bu adamlar zahirdə abid və zahid idilər. Hətta onlar o qədər səcdə edirdilər ki, alınlarında möhürün izi qalırdı. Ancaq onlar nə etdiklərini bilmirdilər. Əliyyəl-Mürtəza (ə) onlar haqqında buyurmuşdu: «Onlar haqqı batilin zülmətlərində axtarırlar».

İmam Hüseyn (ə) yenə öz atları və silahları, say çoxluğu ilə onun qəlbində qorxu və vahimə hissi yaratmaq istəyənləri süzüb acı-acı gülümsündü. «On bu qədər də yığışsanız, yenə məni əqidəmdən döndərə bilməzsiniz. Yezid kimi əxlaqsız və pozğun adama beyət etmək mənim əsil və nəcabətimə yaraşmaz».

Şeypur və təbil səsləri İmam Hüseyni (ə) xəyaldan ayırdı. Bir anın içindəcə şəhidliyini qəbul etmiş əsgərləri İmam Hüseynin (ə) ətrafında cəm oldu. Bu şeypur və təbil səsləri qarşıdakı qoşunun «Müharibəyə başlayıram» deməyi idi.

İmam Hüseyn (ə) yaşına uyğun olmayan bir çəldliklə ayağa qalxdı. Diqqətlə əshabələrini gözdən keçirdi. Hər an İmamın əmrinə müntəzir olan bu cəsur insanlar indi də onun bir işarəsini gözləyirdilər. Gözləyirdilər ki, üstlərinə gələn qoşunu qarşılasınlar. İmam Hüseyn (ə) də dəyişmişdi. Müslüm ibn Əqilin ölümündən sonra çox fikirli görünən İmam indi cənk meydanına atılmaq istəyən bir cəsur sərkərdəyə oxşayırdı.

İmam Hüseyn (ə) üzünü Həzrət Abbasa tutaraq:

- Ya Abbas, çıx onların qarşısına, kör bu nə hay-küydür. Əgər döyüşə gəlirlərsə, bir gecəlik möhlət alıb onları geri qaytarmağa çalış, - dedi.

Əmrə müntəzir dayanan Həzrət Abbas iyirmi nəfərlə qoşuna tərəf at çapıb müqabil bir məsafədə dayandı.

Həzrət Abbasın ürəyindən özünü qoşunun içərisinə vurub döyüşmək, İmamın qanına susamış bu adamları cəhənnəmə vasil eləmək keçirdi. Ancaq İmam Hüseynin əmrindən çıxa bilmədiyindən uca səslə buyurdu:

- Allahın Rəsulunun övladı sizdən bir gecəlik məhlət istəyir.

Qoşunun qarşısında gələn Ömər ibn Səd sərkərdələri ilə məsləhətləşdikdən sonra var səsi ilə bağırdı:

- Sizə aman yoxdur. Müharibəyə hazır olun.

Həzrət Abbas əlini qılıncın dəstəyində sıxaraq istədi hücum çəkib Ömər ibn Sədin üstünə şığısın. Ancaq yenə indiyə kimi bir sözünü iki eləmədiyi qardaşı İmam Hüseynin verdiyi əmr onu bu cəsarətli hərəkətdən çəkindirdi.

Çarəsiz qalıb üzünü yenidən qoşuna tərəf tutdu:

- Ey zalımlar, biz sizinlə döyüşdən çəkinmirik. İmamımızın əmrindən çıxa bilmirəm. Yoxsa qanınıza qəltan eyləyərdim sizi. Siz gör nə qədər zalımlaşıbsınız ki, Rəsulullahın övladına bir gecəlik möhlət vermirsiniz. Siz necə müsəlmansınız? Siz necə ibadət edirsiniz? Qorxmursunuzmu axirət əzabından? Qorxmursunuzmu Allah başınıza daş yağdırar, od ələyər?

Qoşun əhli nəfəsini dərmədən hünərini çox eşitdikləri Abbas ibn Əlinin sözlərini dinləyirdi. Ömər ibn Səd Abbas ibn Əlinin sözlərinin əsgərlərə təsir edəcəyindən, onları haqq

yoluna qaytaracağından qorxub döyüşü səhəri günə saxlamağa razılıq verdi.

***

O gecə Kərbəla düzünə elə bil qəm ələnmişdi. Həmişə parlaq şöləsi ilə səhranı nura qərq edən gümüşü ayın üzünü kədər tozu bürümüşdü. Ulduzlar xəcalətdən kiçilib iynə gözü boyda olmuşdu. O gecə hər tərəf qara geyinmişdi. Sıra-sıra uzanan qum təpələri çadra örtüb ağı deyən qadınlara bənzəyirdi. Heç nədən xəbərsiz sakit-sakit axan Fərat çayı sanki təbiətin göz yaşlarıdı.

Havadan ölüm iyisi gəlirdi, hər tərəf qan qoxuyurdu. Səhranın bugecəki ölü sükutunu yenə at kişnərtiləri, əsgərlərin dəmir zirehlərinin, qılınc və nizələrinin cinkiltisi pozurdu. Hər şey, hətta İbn Ziyadın qoşunu tərəfdə yandırılan məşəllər də müdhiş bir qorxu duyğusu təlqin edirdi.

Mücahidlər səhərki döyüşə hazırlıq işlərini başa çatdırmışdılar. Xeymələri əhatə edən dairəvi xəndək qazılmış, döyüş üçün yalnız bir yol qoyulmuşdu. Kimin hansı istiqamətdə vuruşacağı müəyyənləşmişdi.

İmam Hüseyn (ə) əsgərlərə baxdı. Susuzluqdan dodaqları cadar-cadar olmuş bu adamlar öz sədaqət və dözümləri ilə Həzrət İmamı heyrətə salırdılar. «Bu müqəddəs möminlər məndən ötrü bu qədər əzaba düçar olurlar. Axı nə üçün? Bəlkə hələ başımıza gələcək bəla tam aydınlığı ilə onlara məlum deyil». Bu sözləri fikrindən keçirən İmam Hüseyn (ə) oğlu Əli-Əkbəri yanına çağırıb,

bütün əshabələri bir yerə yığmağı əmr etdi. Son dəfə onlarla söhbət etmək qərarına gəlmişdi İmam.

- Ey əzizlərim, deyə İmam Hüseyn (ə) üzünü əshabələrinə tutub buyurdu: - Sizə məlum olduğu kimi bu kafirlərin işi təkcə mənimlədir. Bu qədər qoşunu yığıblar ki, mən Yezidə beyət edəm. Bu isə mümkün deyil. Məni nə gözlədiyini bilirsiniz. Gördüyüm röyalar da, Rəsulullahla yuxuda etdiyim söhbətlərdə sabahkı gün nişan verilib. Sabah aşura günü məni səbirsizliklə gözləyən cəddimə qovuşacam. Bu sirri sizə açmaqda və düşməndən bir gecəlik möhlət almaqda məqsədim sizi sabahkı hadisədən hali etməkdir. Onu da bilin ki, sabaha kimi mənimlə kim burda qalsa onu dərd və bala gözləyir. Çıxın gedin evinizə. Gecənin qaranlığında iki bir üç-bir qoşunun gözündən yayınıb mühasirədən çıxmaq olar.

İmam Hüseyn (ə) sözlərini sona yetirəndə Müslüm ibn Əqilin oğlu Abdullahın gözləri yaşara-yaşara ona zəndlə baxdığını gördü.

- Ey Abdullah! - deyə İmam Hüseyn (ə) ona yaxınlaşıb nəvazişlə dilləndi, - Biz Kufə camaatının yalançı dəvətinə inanıb atan Müslümü ora göndərdik. O fəsad əhli Müslümü şəhid etdi. İndi məsləhət budur ki, ananızı da götürüb Mədinəyə gedəsiniz.

İmamın ətrafına toplanan adamlar dəniz kimi dalğalandı. Onların etiraz səsi ucaldı. Abdullah irəli yeriyib ağlaya-ağlaya dilləndi:

- Ya Əmi, daha bu qədər sınaq olmaz. Siz də inanın ki, din və həqiqət yolunda şəhid olmağı özümüzə şərəf bilirik. Bizi əbədi səadətdən məhrum etmə yəbnə rəsulullah. Hər birimiz düşmənin yüz əsgərinə cavab verəcəyik. O ki qaldı

mənə, anama və bacılarıma Müslümün intiqamını almayınca bu qılıncı qınına qoymayacağam.

Bu sözlərdən sonra İmam Hüseyn (ə) kövrəlib onu bağrına basdı. Sonra üzünü yenə əshabələrinə tutaraq buyurdu:

- Hamınıza əbədi səadət üçün zəmanət verirəm. Bilirəm ki, qarşımızı kəsən bu quduzlara qarşı son nəfəsinizə kimi döyüşəcəksiniz. Onu da bilin ki, siz dünyanın ən mömin müsəlmanları, ən güclü insanlarısınız.

- Yəbnə rəsulullah, bir susuzluq dərdindən başqa bu dünyada ayrı təmənnamız yoxdur, - əsgərlərdən kiminsə dediyi bu söz İmam Hüseyni yenə sarsıtdı. Əsgərlərin dilindən təkrar qopan «Ya İmam, su!» nidalarından sonra İmam Hüseyn (ə) başını aşağı salıb bir qədər fikrə getdi. Hiss etdi ki, susuzluqdan alışıb yanan bu insanlar ondan yenə bir möcüzə gözləyirlər.

- Möcüzəmi istəyirsiniz? - deyə İmam Hüseyn qəhərini zorla boğaraq kədərli halda dilləndi. Sonra heç kimdən səs gəlmədiyini görüb öz sualına özü də cavab verdi, - Möcüzə sabah baş verəcək. Tale bizim üçün artıq şəhadət şərbətini hazırlamışdır. Əbədi səadətə, cənnətə qovuşmaq istəyiriksə, sabaha qədər dözməliyik. Mən sizə su əvəzinə dözüm bəxş edirəm.

- Yəbnə rəsulullah, dünyanın ən güclü adamı biz yox, sizsiniz, deyə Həzrət Abbas dilləndi. Sonra sözünə əlavə etdi:

- Siz təkcə bizim yox, zəmanənin İmamısınız. Nə deyirsinizsə bizim üçün məqbuldur. Bəli, susuzluğa dözməliyik. İbn Səd kimi riyakara, məluna əl açıb su

istəməkdənsə, əqidəmizə, inamımıza sığınıb dözməliyik. Susuzluq bizi yox, biz susuzluğu yandırmalıyıq.

Artıq gecədən xeyli keçmişdi. İmam Hüseyn (ə) Əhli-beytlə vidalaşmaq üçün hansı xeyməyə ayaq basdısa yalnız susuzluq dərdi ilə qarşılaşdı. Onlar bu dərdərini ona izhar etməsələr də, İmam hər şeyə görur və duyurdu. Göz yaşları içində olan bacısı Zeynəbi, Gülsümü, qızları Səkinəni, Fatiməni, Zeynəbi, dinləmək onun üçün daha ağır idi.

- Ümidimiz sənə idi yəbnə rəsulullah. İmam Həsəndən (ə) sonra Rəsulullahın (s), Əliyyəl-Mürtəzanın (ə) çırağını sən yandırırdın. Səndən sonra biz neyləyəcəyik? - deyə Həzrəti Zeynəb göz yaşlarını sel kimi axıtdı.

- Taleyin qisməti belədir, əziz bacım. - Razı olarsınızmı mən Yezid kimi bir din düşməninə beyət edəm.

Ümmü Gülsüm bacısı Zeynəbi qabaqlayaraq dedi:

- Yox, yəbnə rəsulullah, yox!..

İmam Hüseyi:

- Onda bircə iltimasım var sizdən. Məndən sonra ağlayıb saçınızı yolmayın. Sizi incitsələr də işgəncələrə mətanətlə dözün. Bilin ki, bütün müqəddəs peyğəmbərlərin ruhları mənim ruhumun yolunu gözləyir. Bir də ki, hər şey Allahın əlindədir. O, necə istəyirsə elə də olacaq.

İmam Huseyn (ə) bacılarından ayrılıb öz xeyməsinə gəldi. Zeynalabdin huşunu itirmişdi. Susuzluq onun bu xəstə övladını daha çox əldən salmışdı. İmam yenə onun solğun çöhrəsində bir nur işartısı gördü. Və hiss etdi ki, bu gecə vəziyyətinin ağır olmasına baxmayaraq Zeynalabdin daha çox yaşayacaq, peyğəmbər nəslinin davamçısı olacaq. Bütün seyidlər onun nəslindən artıb törəyəcəklər. Ancaq hələ imamlıq sirrini ona açmaq tez idi.

Yuxusuzluğa adət etmiş İmam Hüseyn (ə) adətinin əksinə olaraq səhərin açılmasının intizarında deyildi. Əksinə bu əzablı gecənin daha da uzanmasını arzulayırdı. Ancaq vəfasız dostlar kimi gecə də öz köçünü çəkməkdə idi. Dan yeri sökülməkdə idi. Buna baxmayaraq, Əhli-Beytin xeymələrindən nöhə və ağlaşma səsi gəlməkdə idi. Səhərə kimi yatmayıb əhli-əyalına təsəlli verən, sonra da ibadətlə məşğul olan İmam Hüseyn (ə) xeyməsindən çıxar-çıxmaz bütün əshabəsi hüzurunda hazır oldu. Su olmadığından səhra qumu ilə dəstəmaz almış bütün dəstə İmam Hüseynin (ə) işarəsi ilə sübh namazına dayandı. Artıq səhra günəşi qum təpələrinin arxasından boylanmağa başlayırdı. Elə bil hansı qüvvəsə günəşi aşağı çəkir, İmam Hüseynin (ə) son duasını qurtarmasına şərait yaradırdı. Ancaq düşmən qoşunu tərəfdən gələn ney və təbil səsləri İmamın son sözlərini eşidilməz etdi. Dəstə-dəstə meydana dolan atlıların tozanağı hər tərəfi bürüdü. Bu hay-haraylı, vahiməli hücum İmam Hüseyni (ə) və onun ətrafına toplaşanları əsla qorxuzmadı. O ayağa qalxıb xeyməsinə getdi. Rəsuli-Əkrəmin (s) mübarək əmmaməsini başına qoydu. Zirehini, əbasını geyindi. Atasının Zülfüqar qılıncını belinə bağladı.

İmam Hüseynin (ə) dəstəsi döyüşə tam hazır vəziyyətdə idi. Züheyr sağ cinaha, Həbib ibn Məzahir sol cinaha rəhbərlik edirdi. Bayraq Abbas ibn Əliyyəl-Mürtəzanın əlində idi. İmam Hüseyn (ə) atını cövlan etdirib öz qoşununun qarşısına gəldi. Mərkəz hissəyə özü başçılıq etməyə başladı. Düşmən qoşunun qarşısında Ömər ibn Səd, onun sağ tərəfində Ömər ibn Həccac, sol tərəfində isə Şimr Zilcövşən dayanmışdı.

Əyninə zireh geyinib, belinə qılınc bağlamış İmam Hüseyn (ə) indi pak, məsum bir abiddən daha çox din yolunda, zülmə qarşı ölüm-dirim savaşına girişən yenilməz bir sərkərdə idi. Ona görə də ərəb müharibə qaydalarına əməl edərək atını irəli sürdü. Bəlağətli bir nitqlə düşmən qoşununa müraciət etdi:

- Ey rəhimsizlər, ey Allahın bədbəxt və günahkar bəndələri. Mən Rəsuli-Əkrəmin (s) istəkli övladı, Fatimeyi-Zəhranın əziz xələfiyəm. Başımdakı əmmamə, əynimdəki əba Rəsulullahındır. Bilin və agah olun ki, ata və babam kimi mən də heç vaxt yalan və böhtan danışmamışam. Məni bura siz kufəlilər dəvət etdi. Ey Ömər ibn Səd, ey Ömər ibn Həccac, ey Şis ibn Rəbi, ey Sinan ibn Ənəs, bu nə qəddarlıqdır?

İbn Ziyadın qoşunu tərəfdən etiraz dalğaları ucaldı. İmam Hüseyn (ə) onlardakı bu naxələfliyi görüb üzünü arxaya oğlu Əli-Əkbərə tərəf çevirdi.

- Gətirin o xurcundakı məktubları bura. İndi ki bunlar öz vədlərinə naxələf çıxırlar, gözlərini qabağındaca od vurub yandırın onları, - sonra yenidən üzünü düşmən qoşununa tərəf çevirdi:

- Biz Əhli-beytik. Rəsulullahdan (s) törəyən bütün nəsil burdadır. İndi məqsədiniz nədir? Peyğəmbər nəslini qırıb qurtarmaqmı istəyirsiniz?

Ömər ibn Səd atını qamçılayaraq irəli çapdı. Sonra vəhşi bir səslə bağırdı:

- Ey Hüseyn, artıq kecdir. Bu söhbətlər bir nəticə verməz. Qarşında dayanan bu qoşunun hər bir əsgərin Yezid, İbn Ziyad tərbiyəsi görüb. İki yolun var. Ya Yezidin beyətini qəbul etməlisən, ya da həyatına vida söyləməlisən.

İbn Səd bu sözləri dedikdən sonra İmam Hüseyn (ə) tərəfə bir ox ataraq üzünü qoşuna tərəf çevirdi:

- Ey kufəlilər, şahid oldunuzmu ki, Hüseynə qarşı müharibəni mən başladım. - Ömər ibn Səd əslində bu sözləri onun hər bir hərəkətinə göz qoyan Şimrə eşitdirirdi.

İmam Hüseyn (ə) atını cövlan etdirib yenidən dilləndi:

- Ey Ömər ibn Səd, bil ki, mən də Əliyyəl-Mürtəza tərbiyəsi görmüşəm. Və məlumun olsun ki, Yezid kimi din düşməninə heç vaxt beyət etmərəm. Ey kufəlilər, yəhudilərə Allahın qəzəbi o vaxt yetişdi ki, onlar Üzeyrə Allahın oğludur dedilər. Sizə də Allahın qəzəbi Ali-Rəsula qəsd etdiyinizə görə artıq yetişib. Əfsuslar olsun ki, mən sizi bu günahdan xilas edə bilmədim. İndi isə Yezid qoşunun sayını on qat artırsa da, fikrimdən dönən deyiləm.

Döyüşə əmr almış düşmən qoşunu İmam Hüseynin (ə) sözlərini eşitmirdi. İmam Hüseyn (ə) qarşı tərəfdən ox yağışına tutulduğunu görüb geriyə qayıtdı və əshabələrinə buyurdu:

- Ey Allahın sadiq bəndələri səfər vaxtı yetişməklədir. Qan tökülmək əyyamı gəlir. Şəhidliyi qəbul edirsinizsə, əbədi səadətə qovuşmaq istəyirsinizsə sıyırın qılınclarınızı. Bu nadan insanları mən sözlə başa sala bilmədim. Görünür, müqəddəs dinimizi yaşatmaq üçün bizim şəhidliyimiz vacibdir. Qarşınızda dayanan bu yalançı, riyakar insanların dəmir zirehləri, polad qılıncları qorxuzmasın sizi. Bilin ki, Allah bizimlədir. Biz onun nəzarətindəyik. Bizim din uğrunda şəhid olmağımız, susuzluq əzabına dözməyimiz Ulu Tanrının məsləhətidir. Biz bu əzab və işgəncələrə, zülmlərə sinə gərib dözməklə əbədi bir ömür qazanırıq. Axirət gününə kimi, dünya durduqca bütün müsəlmanlar sizi yad edib

qəlblərində yaşadacaq, 61-ci ilin Məhərrəm ayının 10-nu - Aşura gününü qanlı bir tarix kimi göz yaşları ilə qeyd edəcəklər. Bu bədbəxtlər isə bu gündən dünyanın sonuna kimi lənətlənəcəklər.

***

Öz qoşununu səhrada dolandırıb İmam Hüseynin (ə) xilas olmasına şərait yaradan Hürr geri qayıdırdı. O, Kərbəla düzünə çatanda ordakı toplantını, qoşunu görüb vahiməyə düşdü. Əsgərlərinə sürətlə irəliləmək əmri verdi. Onun heç ağlına da gəlməzdi ki, İmam Hüseyn (ə) Kərbəlada qalmış ola. Vəziyyəti öyrənən Hürr ibn Yezid Riyahi atını birbaşa Ömər ibn Sədin yanına çapdı. Artıq o, özündə deyildi. Bu qədər qoşunun İmam Hüseynin (ə) kiçik dəstəsini qətlə yetirmək üçün bura toplaşması onu sarsıtmışdı. Səhranın tozu hopmuş saç-saqqalı günəşin hərarətindən qaralıb qızarmış rəngi ona sərt bir görkəm vermişdi. Hürrün uzaqdan gəlişini izləyən Ömər ibn Səd bu igid sərkərdənin saymazyana qoşunun içərisindən çıxıb ona tərəf gəlməsini yaxşı əlamət hesab etmədi.

Tozun-tərin içində olan, əzələləri gərilmiş, baxşılarından od yağan Hürr ibn Yezid Riyahi atını düz Ömər ibn Sədin qarşısına sürub salam belə vermədən qəzəblə soruşdu:

- Ey Ömər ibn Səd, İmam Hüseynlə (ə) müharibə etməyə artıq qərar verilibmi?

Ömər ibn Səd əvvəlcə istədi baş sərkərdə səlahiyyətindən istifadə edib onun indiyə kimi haralarda olduğunu soruşsun. Ancaq qarşısında sərt qaya kimi dayanan

Hürrü başdan ayağa süzüb fikrindən daşındı. Onu dolayı yolla daha da sarsıtmaq, ürəyindəkiləri bilmək üçün Hürrü də bu işə həvəsləndirəcək bir tərzdə dilləndi:

- Vaxtında özünü yetirdin, ey Hürr. Sıyır qılıncını. Artıq döyüş başlayıb. Bu gün burda başlar kəsiləcək, qanlar töküləcək, böyük mükafatlar, ənamlar almaq istəyirsənsə atını meydana sür.

Hürrün sifəti qaraldı. Beynində elə bil ildırım çaxdı. Qəzəbindən nəfəsi daraldı, qəlbi köksünə sığmadı. İti baxışlarını Ömər ibn Sədə tuşlayıb bir anlığa onu süzdü. İbn Səd bu baxışlara artıq tab gətirə bilmirdi. Hürrün baxışları onu sanki dəlib keçir, parçalayırdı. Hiss etdi ki, bir az da bu cür davam etsə bu baxışların odunda yanıb kül olacaq.

- Hə, niyə durmusan? Sıyır qılıncını igid Hürr, - deyə Ömər ibn Səd zorla dilinə gətirdiyi bu sözlərdən sonra elə zorla da gülümsədi.

- Bu günahına görə qiyamət günü nə cavab verəcəksən, ey Ömər ibn Səd?

Ömər ibn Səd Hürrün çox təmkinlə və sərrast dediyi bu sözlərdən diksinsə də, özünü eşitməzliyə vurdu. Artıq o, Hürrün fikrini oxuduğundan ona cavab verməyə ehtiyac duymadı. Hətta Hürrün üzünə baxmağa belə cəsarət etmədi. Görkəmindən qorxu və zəhm yağan sərkərdədən ehtiyat etdi.

Hürr ibn Sədin cavab vermək istəmədiyini, üzünü başqa səmtə çevirdiyini görüb atının çilovunu çəkdi. Qəfildən yanına gözləmədiyi qamçı zərbəsi alan at şahə qalxıb iki ayaq üstündə fırlandı. Dəli bir kişnərtiylə yerindən götürüldü. Ömər ibn Səd də, yanındakı yavərləri də Hürrün atının tozanağında bir müddət görünməz oldular.

Hansı bir qüvvənin təsiri iləsə Hürr vəcdə gəlmiş, çoşmuşdu. O, atını döyüş meydanından xeyli kənarda dayanmış öz qoşununa tərəf çapdı. Sonra nə fikir elədisə bir də geri qayıtdı. Atına daha bir-iki qamçı vurub ildırım sürətilə Ömər ibn Sədin qoşununun arasından qılınc qınından çıxan kimi sıyrıldı. Döyüş meydanından adlayıb İmam Hüseynin (ə) qoşununun dayandığı cəbhəyə keçdi. Atdan düşüb İmam Hüseynin (ə) hüzuruna yüyürdü. Onun ayaqlarını qucaqlayıb üzünü atının üzəngisinə sürtdü. Qəhrəman ərəb pəhləvanı hönkür-hönkür ağlayıb İmam Hüseynə (ə) üzürxahlıq elədi.

- Əfv et məni, yəbnə rəsulullah. Keç günahımdan. Mən gərək əvvəldən sənin yanında olaydım.

Hürr danışır, danışdıqca kövrəlir, baxışlarını İmam Hüseynin (ə) nurlu çöhrəsinə dikir, bircə kəlmə onun dillənməsini, razılığını istəyirdi. Sel kimi axan göz yaşları içərisində sanki Hürr paklanır, təmizlənirdi. İmam Hüseyndən (ə) ayrılandan qəm dəryasına batan, heç kiminlə söhbəti tutmayan Hürr təzə dil açan uşaq kimi tez-tez, sürətlə danışır və danışa bildiyi üçün ruhən sevinirdi. O, uzun müddət səhrada qalıb boş-boşuna fırlanan, nəhayət, həyat yolu tapan bir səyyaha bənzəyirdi.

- Ya Hürr, bizim lütf və ehsan qapımız üzr istəyənlər üçün həmişə açıqdır. Günahını etiraf edənlər hər zaman amandadır, - deyə İmam Hüseyn (ə) Hürrün qolundan tutub onu qaldırdı. Bütün ərəb dünyasında öz igidliyi ilə ad çıxaran bu cəngavərin paklanmış nurlu çöhrəsinə baxıb xoşhal oldu. Sonra baxışları ilə səmanınənginliyini göstərib. «Bütün günahları bağışlayan odur», - deyə astadan pıçıldadı.

- Yəbnə rəsulullah, günahımın elə-belə bağışlanmasını istəmirəm. Mənə mükafat ver, mənə ənam ver, ey zamanın İmamı. Rüsxət ver döyüşə birinci mən başlayım. Əbədi səadət yolunun ilk yolçusu mən olum. - Hürr yenə İmamın ayaqlarını qucaqladı. Yenə üzünü atının üzəngisinə sürtdü. İmam Hüseyi (ə) yenə onun qolundan tutub qaldırdı.

- Ya Hürr, halın çox pəjmürdədir. Bir az dincəl, istirahət elə. Qoy döyüşə başqa igidlərimiz başlasın, İmam Hüseyn (ə) nəvazişlə əlini onun polad zirehli çiyninə toxundurdu.

Vəcdə gəlib, coşmuş Hürr inadından dönmədi:

- Yəbnə rəsulullah, məni məhrum etmə bu mükafatdan.

İmam Hüseyn (ə) Hürrün təkid etdiyini görüb əllərini göyə açdı. Onun dua etməyi döyüşə razılıq verməsi demək idi. Hürr bir andaca dəyişib başqa bir adam oldu. Bayaqdan bəri uşaq kimi ağlayan, haldan-hala düşən bu igid cəngavər bir anın içindəcə böyüyub bərkidi, sərtləşdi. «Ya Allah!» deyib atını döyüş meydanına çapdı.

Ömər ibn Səd Hürrün meydanda cövlan edib pəhləvan istədiyini görəndə canına vəlvələ düşdü. Qoşunun içərisində böyük nüfuza və hörmətə malik olan Hürrün İmam Hüseynin (ə) tərəfinə keçib birinci döyüşə atılması hər şeyi alt-üst edib əməliyyatı pozmaq təhlükəsi yaradırdı. Böyük vədlər, mükafatlar və ənamlarla aldadılıb toplanmış qoşun döyüşdən imtina edib əks tərəfə də keçə bilərdi. O, gözləri ilə kimi isə axtardı. Yaxınlığında dayanmış Səfvan adlı bir döyüşçünün üstünə qışqırdı:

- Nə gözünü döyürsən? Tez ol özünü yetir meydana. Hürrü ələ al. Denən əbləhlik eləməsin. Gör nə istəyir, ürəyindən nə keçir, bir tövrlə aldadıb fikrindən daşındır onu.

Səfvan atını döyüş meydanına çapıb Hürrün müqabilində dayandı. Hürr onun döyüşməyə gəldiyini zənn edib əlini qılıncına atanda Səfvan bağırdı:

- Əl saxla, ey Hürr. Sənə nəsihət verməyə gəlmişəm. Dünya nemətindən özünü məhrum edib nə üçün əzab və zillət yolunu tutursan?

- Sən belə şeyləri anlamazsan, ey Səfvan. Dediyin var və dövlət sənin qəlbinin gözünü kor edib. Əzab və zillət yolunu sən tutursan, mən yox. Mənim yolum ilahi dincliyə doğrudur, - deyə Hürr özünü döyüşə hazır vəziyyətdə saxladı.

Səfvan Hürrü yola gətirə bilmədiyini görüb qəzəblə əlindəki nizəni ona tərəf atdı. Düşmənin hücumunu dəf edən Hürr qılıncını sıyırmaqla Səfvanı atdan salmağı bir oldu.

Döyüş başladı. Səfvanın ölümündən sonra onun üç qardaşı bir-bir meydana çıxıb Hürrün öldürücü zərbələri ilə məhv oldu. Ömər ibn Sədin qoşunundan Hürrün qarşısına çıxmağa heç kim cəsarət etmirdi. Qazandığı uğurdan çoşmuş Hürr düşmən tərəfdən heç kimin gəlmədiyini görüb İmam Hüseynin (ə) hüzuruna qayıtdı. Ondan xoş sözlər eşidib yenidən ruhlanaraq meydana döndü. Təkbətək döyüşə cəsarət etməyən qarşı tərəf danışılmış şərti pozaraq dəstə ilə Hürrün üstünə hücum çəkdi. Artıq Hürrün atı vurulmuş, o, piyada qalmışdı. Lakin buna baxmayaraq yenə hünərlə döyüşür, çaldığı qılınc zərbələri hədəfdən yayınmırdı. Hürrün döyüşünü diqqətlə izləyən İmam Hüseyn (ə) təcili ona iti yerişli bir at göndərilməsini əmr etdi. Hürr atlanandan sonra elə bil gücü ikiqat artdı. Vəhşi quzğun kimi dəstə-dəstə onun üstünə hücum eləyən düşmən əsgərləri Hürr atlanandan sonra yenidən pərən-pərən oldu.

Yorğunluq və susuzluq artıq özünü göstərirdi. Buna baxmayaraq Hürr nərə çəkərək qoşunun dəriliyinə yeriyir, dörd tərəfdən ona hücum edənləri cəhənnəmə vasil edirdi. Artıq onun qolunun taqəti azalmışdı. Aldığı yaralar əvvəlki kimi döyüşməsinə imkan vermirdi. Nizəsi sındığından, qalxanı düşdüyündən təkcə qılıncla vuruşurdu. O bu döyüşdə həlak olacağını bilirdi. Şəhidliyi özü qəbul etmişdi. Ona görə də zərrə qədər də olsun qorxu hissi keçirmirdi. Döyüşə başlayan andan gözü bayraqdarda idi. Yezidin bayrağını gəzdirən həmin məlunu məhv etmək üçün özü qəsdən o səmtə üz tutmuşdu. Ancaq sayı-hesabı bilinməyən əsgərləri yarıb-keçmək o qədər də asan deyildi. Ömər ibn Səd bu bayrağın ətrafına sanki ətdən qalın bir divar çəkmişdi.

Daha qolunun qalxıb qılınc çala bilməyəcəyini görən Hürr geri çevrilib İmam Hüseyni (ə) səslədi:

- Ya İmam, cəddinin xidmətinə gedirəm. Dua et, mənə güc və qüvvət gəlsin.

Hürr yenidən qızmış şirə çevrildi. Artıq o, bayraqdara yetişmişdi. Qarşısında dayanan iki-üç süvarini də məhv edə bilsəydi, Yezidin bayrağını atının ayaqları altına salardı. Bu səhnəni kənardan seyr edən Şimr çığıraraq Hürrün üstünə əlavə döyüşçülər göndərdi. Mühasirə daha da daraldı. Ətrafındakı adamların çoxluğundan Hürr istədiyi kimi atını cövlan etdirib döyüşə bilmirdi. Atdan salınan Hürr var səsi ilə qışqıraraq İmam Hüseyni (ə) köməyə çağırdı:

- Yəbnə rəsulullah, imdadıma yetiş!

Hürrün atdan salındığını görən və onun çığırtısını eşidən İmam Hüseyn (ə) qeyri-ixtiyari atını meydana çapdı. Bir

neçə döyüşçünün müşayəti ilə mühasirəni yarıb Hürrü xilas etdi.

- Ya İmam, məndən razı qaldınmı? - deyə Hürr ağır nəfəs ala-ala sönməkdə olan baxışlarını onun başı üzərində dayanan İmam Hüseynə (ə) zillədi. Ağuşunda yaralı aslan kimi çırpınan Hürrün sözləri İmamı kövrəltdi. O bu igid pəhləvanın yaralarından axan qanı silə-silə onun od-alovu sönməkdə olan baxışlarına, qana bulaşdığından qızarmış saqqalına, susuzluqdan cadar-cadar olmuş dodaqlarına baxdı. Dəsmalını çıxarıb alnındakı qılınc yarasına bağladı. Hiss etdi ki, Hürr onun danışmasına, cavab verməsinə möhtacdır. Artıq o, əbədi dincliyin astanasındadır.

- Mən razı oldum. Allah səndən razı olsun, - deyə İmam Hüseyn (ə) qəhərləndi. Göz yaşını saxlaya bilmədi.

Hürrün ölümü İmam Hüseyni (ə) də, onun döyüşçülərini də sarsıtmışdı. Hürr öz cəsarəti ilə elə bir nümunə göstərmişdi ki, indi hamı onu təkrar etməyə tələsirdi.

İmam Hüseyn (ə) nəzərlərini ona tuşlayıb döyüşə icazə almaq istəyən əshabələrinə baxa bilmirdi. Hər biri bir qoşuna bərabər olan bu igidləri qan göndərməyə qıymırdı.

Onların baxışlarındakı həyat eşqi, yaşamaq ehtirası İmam Hüseyni (ə) bir qədər düşünməyə vadar etdi. «Bütün bu işlər mənim üstümdədir. İndi neyləyim? Din düşməni olan Yezid kimi bir məluna beyət edib bütün həyatlarını mənə görə fəda edən bu cəngavərləri, qorxmaz insanları xilas edimmi?». İmam Hüseyn (ə) ağlına gələn bu fikri özündən tez uzaqlaşdırdı. «Əsla yox, hələ Mədinədə ikən mənə bir nəfər də olsun qoşulmasaydı, özüm tək başlayacaydım bu işə. Tək gedəcəydim Yezidin üzərinə. Atam Əliyyəl-Mürtəza iyirmi beş il ona görə susub səbr etdi

ki, onun öz haqqı tapdanırdı. İndi isə tək mənim yox, bütün müsəlmanların haqqı əlindən alınır. Tək mənim deyil, bütün müsəlmanların zülm edilir. Yezid mənə qarşı çıxsaydı, dözərdim. O, Allahın fərmanını pozur. Onun yaratdığı dinə xələl gətirir. Ona görə də mən susub səbr edə bilməzdim. Bəlkə yenə tək qalım? Əshabələrimi qorumaq üçün yenə İbn Sədə müraciət edim. Axı, bu dava mənim davamdır». - İmam Hüseyn (ə) qeyri-ixtiyari atın cilovunu çəkib meydana sürdü. Bayaqdan bəri onu çuğlayan fikirlər İmamı hərəkətə gətirmişdi.

Düşmən qoşunu ilə müəyyən məsafədə üzbəüz dayanan İmam Hüseyn (ə) uca səslə buyurdu:

- Ey özünü islam və iman əhli adlandıranlar. Mən Əhmədi-Muxtar nəvəsiyəm. Mən sahibi-Zülfüqaram. Elə hesab etməyin ki, ordunuzun çoxluğundan qorxuram. Əgər ilahi tərəfindən icazə verilsə, tək özüm döyüşərəm hamınızla. - İmam Hüseyn beyni dumanlanmış bu adamların onun sözlərinə məhəl vermədiklərini görsə də sözünə davam etdi. - Bilirəm, Yezidin və İbn Ziyadın vədləri sizin gözünüzü kor, qulağınızı kar etmişdir. Amma yenə nəsihətimə davam edərək deyirəm. Məbada dünya malı sizi aldatsın! Çünki dünya vəfasızdır, heç kimə vəfa etmir. Bu gün siz bura nahaq cəm olubsunuz. Niyyətinizə görə Allah sizə qəzəb edəcəkdir. Siz özünüz məni bura çağırıbsınız, indi özünüz də öldürməkmi istəyirsiniz.

İmam Hüseyn (ə) beyni dumanlanmış sərkərdələrin çığır-bağırını eşitsə də sözünə davam etdi:

- Ey camaat, Allahdan qorxub məndən əl çəkin. Məni öldürmək sizə şərəf gətirməyəcək. Mən sizin peyğəmbərinizin nəvəsiyəm. Nənəm peyğəmbərin həyat

yoldaşı Xədicədir. Peyğəmbərin sözünü xatırlayın: «Həsən ilə Hüseyn cənnət gəncləridirlər». Ey camaat, sözümü eşidin, məni öldürməyə tələsməyin. Mən bu sözlərlə borcumu ödəyirəm. Mən siz həqiqəti anlatmalıyam.

«Ey Hüseyn, başının üstünü almış bu təhlükədən sənə nicat yoxdur. Sən ya burda Yezidə beyət etməlisən, ya da qalxanını çəkib müdafiə olunmalısan. Əshabələrinin və Əhli-beytin xilası da sənin Yezidə beyətinlə bağlıdır». - Qarşı tərəfdən İbn Sədin yavərinin dediyi bu sözlər İmam Hüseyni sarsıtmaq əvəzinə, təəssüfləndirdi və hiss etdi ki, aldanıb buraya gətirilmiş bu insanları düçar olduqları günahlardan xilas etmək mümkün deyil. O, zamanın İmamı kimi son nəsihətlərini verir, onların kilidlənmiş qəlblərini açmağa çalışırdı. O, bilirdi ki, insanlar onun sözlərinə irad tutduqca, çağırışına məhəl qoymadıqca çəkəcəkləri əzablar birə on artır.

- Son iltimasımı edirəm sizdən, - deyə İmam Hüseyn (ə) üzünü yenə Yezid qoşununa tərəf tutdu. Adına salavat çevirdiyiniz Rəsulullahın (s) övladları gördüyünüz xeymələrdə susuzluqdan həlak olurlar. Çaya gedən yolu açın ki, əhli-əyal üçün su gətirək. Sonra yenə davamız dava olsun.

İmam Hüseyni (ə) bu son iltiması eləməyə övlad istəyi, ata məhəbbəti məcbur etdi. Körpə övladı Əli Əsğərin dünəndən bəri susuzluqdan ağlaması onun qəlbini didib parçalayırdı.

Ömər ibn Səd, Şimr və başqa sərkərdələr İmam Hüseynin son iltimasından yumşalıb rəhmə gəlmək əvəzinə törətdikləri əməldən məmnun olaraq bir-birlərinə baxıb iblisanə gülümsədilər.

- Bu, İbn Ziyadın ağlı şeytan ağlıdır. Susuzluqla Əli övladlarına əzab vermək hardan beyninə dolub onun, - deyə Ömər ibn Səd yaxınlığında dayanmış Şimrə müraciətlə astadan dilləndi. Cavab verib deyilən sözləri təsdiqləmək əvəzinə gülümsəyib başını bulayan Şimrin üzündəki ifadə Ömər ibn Sədin heç də ürəyincə olmadı. Və İbn Ziyadı şeytana bənzətməkdə səhv etdiyini başa düşdü. Bilirdi ki, onun hər hərəkətinə göz qoyan, hər sözünü yaddaşına köçürən Şimr burada bütün baş verənləri İbn Ziyada olduğu kimi, çatdıracaq. Ömər ibn Səd anladı ki, onun düşməni qarşısında, at üstündə mərdanə dayanıb ondan cavab gözləyən pak və məsum İmam Hüseyn (ə) yox, yanında onu qarabaqara izləyən Şimrdir. Çünki Rey və Təbəristanın hakimliyini təsdiq edən fərmana o da göz dikmişdi. Hər hansı bir səhv Ömər ibn Sədi bu fərmandan məhrum edə bilərdi. Elə buna görə də bütün qoşunun şahidliyi ilə İmam Hüseynə (ə) tərəf ilk oxu o atmış və döyüşün onun tərəfindən başlandığını bildirmişdi. İndi İmam Hüseynə (ə) verilən hər hansı bir yumşaq cavab, ona göstərilən hər hansı cüzi ehtiram, edilən kiçik güzəşt onun hakimlik fərmanını qüvvədən salmaq təhlükəsi yaradardı.

Ömər ibn Səd İbn Ziyad barədə etdiyi səhvi düzəltmək üçün üzünü ondan cavab gözləyən İmam Hüseynə (ə) tərəf tutaraq dedi:

- Ey Hüseyn, elə bizim məqsədimiz səni və dəstəni sudan məhrum edib zəiflətmək deyilmi? Deməli, bir az da gözləsək, susuzluq yanğısı səni zamanın İmamı, xəlifə Yezid ibn Müaviyyəyə beyət etməyə məcbur edəcəkdir.

- Ey bədbəxt, sən hələ də dərk etmirsən ki, heç bir işgənçə, zülm və əzab məni əqidəmdən döndərə bilməz.

Ölərəm, ancaq Yezid kimi bir sərxoşun, itgəzdirənin, qumarbazın hakimiyyətini qəbul etmərəm. Çünki xəlifəlik onun yox, mənim haqqımdır, - deyə İmam Hüseyn qəzəblə dilləndi. Sonra üzünü yenidən qoşuna tərəf tutaraq uca səslə sözünə davam etdi:

- Ey Kufə və Şam əhli, bilin və agah olun ki, Yezidin hakimiyəti qanunsuzdu. Müaviyə ibn Süfyan ilə qardaşım İmam Həsən-Müctəba arasına bağlanmış sülh müqaviləsinin şərtinə görə, Müaviyyədən sonra hakimiyyət yenidən İmam Həsənə qaytarılmalıydı. İmam Həsənin başına bir iş gələn təqdirdə, isə xəlifəlik mənə təhvil verilməliydi. - İmam Hüseyn (ə) bu sözləri deyib yenidən üzünü Ömər ibn Sədə tutdu, - Ey Ömər ibn Səd, Yezidi zamanın İmamı adlandırmaqda yanılır və günah edirsən. Bütün müsəlmanların İmamı secilmir, təyin olunmur. Onlar ilahi nurun daşıyıcılarıdır. Ona görə də ilahi qanunlarla müəyyən edilir. Allah-Təala bu şərəfə yalnız bizi - peyğəmbər və Əli övladlarını layiq görub. Zamanın İmamı mənəm. Mən Hüseyn ibn Əli ibn Əbu Talib. İmamlığın ilahi qanunlarını, gizli sirlərini məndən başqa bir Bəni-Adəm bilmir. Mənim İmam olmağım məndən asılı deyil, Allahın əmridir. Mənə qarşı çıxanlar Allahın əmrini pozurlar.

İmam Huseynin (ə) bəlağətli nitqindən, səsinin ilahi avazından Ömər ibn Sədin bütün vücudu titrədi. Daxilində qəzəb və iztirab duyğuları baş-başa gəldi. Nə qədər böyük günaha batdığını bir anlığa dərk etdi. İstədi Hürr kimi o da atını irəli sürüb İmamın qarşısında diz çöksün. Dəli bir ağlamaq, gözlərindən sel kimi yaş töküb öz günahlarını yumaq keçdi ürəyindən. Lakin nəzərləri Şimrə sataşanda bütün varlığını sarmış hiss yox olub getdi. «Lənət şeytana.

Bu iblis balası hara gedirəm gözümün qabağından çəkilmir ki, çəkilmir» - deyə düşündü. Və hiss etdi ki, artıq boğaza qədər batdığı günah girdabından xilas ola bilməyəcəkdir. Ona görə də başçılıq etdiyi bütün qoşunu bu girdaba salmaq, getdiyi cəhənnəm yolunda özünə daha çox yoldaş tapmaq kimi iblisanə bir fikir keçdi beynindən. Bu girdaba birinci Şimri çəkib salmaq istədi. Çünki son günlər ona ən çox əzab verən, rahatlığına mane olan Şimr idi. «Yaxşı Şimr, səni gərək elə günaha batıram ki, qiyamətə kimi ağrısını unutmayasan - deyə fikirləşdi. Sonra üzünü Şimrə tərəf çevirərək dedi:

- Niyə dillənmirsən, ya Şimr? Hüseyn ibn Əlinin iltimasına cavab versənə. Bəlkə onu sən yola gətirəsən? Axı, bizim hamımızın içərisində ona qohumluq əlaqəsinə görə yaxın olan sənsən. Niyə gedib bacın uşaqları ilə söhbət eləmirsən? Əbülfəzl Abbas ibn Əli sənin kimi qüdrətli dayısını qoyub, ogey qardaşınınmı sözünü eşidəcək?

Ömər ibn Sədin son sözləri Şimrə qılınc zərbəsi kimi dəydi. O cavab verməyib atını bir az irəli sürərək bağırtıya bənzəyən bir səslə dilləndi:

- Ey Hüseyi, sudan gözünü çək. Bil ki, qərarımız səni Kərbəlanın bu düzündə susuz qoyub odsuz, alovsuz yandırmaqdır. Ayrı iltimasın varsa, buyur.

- Daha heç bir iltimasım yoxdur. Allah da şahiddir ki, mən sizi qiyamət əzabından xilas etmək üçün çox çalışdım. Bilin ki, bu əzaba siz öz nadanlığınız, var-dövlətə, dünya malına hərisliyiniz ucbatından düçar olursunuz. Ancaq, əgər zərrə qədər də qeyrət hissiniz varsa, döyüş qaydalarını pozmayın, meydana bir-bir çıxın. - deyən İmam Hüseyn (ə)

daha heç bir cavab gözləmədən atını geri öz dəstəsinə tərəf çapdı.

Şimr İmam Hüseynə (ə) ürəyi istədiyi kimi cavab verdiyindən özündən razı halda geri qayıdıb Ömər ibn Sədə ötəri bir nəzər saldı. Və bununla bildirmək istədi ki, heç də Hüseyn ibn Əli ilə qohumluğumu başıma qaxma. Lazım olsa, nəinki onlara bir qətrə su verməərəm, hətta bacım oğlanlarının da, Hüseynin də başını öz əlimlə kəsərəm. Sənin hakimlik fərmanını qüvvədən salmaq üçün nə iş olsa görməyə hazıram.

Sonra o üzünü qoşuna tərəf tutaraq diləndi:

- Bir mübariz istəyirəm ki, meydana çıxıb bizim qüdrətimizi, özünün şöhrətini nümayiş etdirsin.

Hələ də İmam Hüseynin (ə) bəlağətli nitqinin təsirində olan əsgərlər dinmədilər. Başlarını aşağı salıb Şimrin və Ömər ibn Sədin baxışlarından sanki gizlənməyə çalışdılar. Bir tərəfdən də onlar bu istidə nəinki vuruşmaq, heç tərpənmək belə istəmirdilər.

- Nədir, niyə belə susursunuz? Siz Yezidin bayrağı altındasınız. Mindiyiniz atlar, belinizdəki qılınclar, aldığınız ənamlar hamısı Yezidindir. Siz onun çörəyini yeyirsiniz. Onun sayəsində belə qüdrətlisiniz. Zamanın İmamı Hüseyn ibn Əli yox, Yezid ibn Müaviyədir. - deyə Şimr üzünü əsgərlərə tərəf tutdu. - Hüseyn ibn Əlinin qətlinə xəlifə Yezid ibn Müaviyyə fərman verib. İndi bir mübariz istəyirəm ki, əmri icra edə.

Şimrin bu şirnikdirici sözlərindən aldanan Sam adlı sərkərdə atını meydana sürdü.

Hürrdən, onun qardaşından, oğlundan və qulamından sonra İmam Hüseyn (ə) tərəfdən döyüşmək Züheyrə nəsib

oldu. Züheyr döyüşə hazır olduğunu ərəb qaydasında nümayiş etdirdi - əvvəlcə atını cövlana gətirdi, bir rəcəz söyləyərək özünə tərif dedi, sonra cuşə gəlmiş halda qılıncını sıyırdı. Sam qarşısındakı pəhləvanın iri cüssəsini görüb gücünü qılınca yox, dilinə verdi. Züheyrə nəsihət edib onu döyüşdən çəkindirməyə, Yezidin qoşunu tərəfə keçməyə çağırdı.

Züheyr:

- Ey namərd, biz hamımız müqəddəs dinimizə xələl gətirənlərə qarşı vuruşmağa, zamanın İmamı yolunda şəhid olub əbədi səadət qazanmağa and içmişik.

Sam təzədən rəqibini söhbətə çəkmək istədi, amma Züheyr: «Həqiqətən igidsənsə, söz əvəzinə qılıncını oynat!» - deyə-deyə irəli şığıdı.

İlk hücum, ilk qələbə. Züheyrin gün işığında bərq vurub ildırım kimi çaxan qılıncı düşməni məhv etdi. O, qızışıb vulkan kimi od püskürən atının cilovunu çəkib düşmən ordusunun lap qarşısında şahə qaldırdı, döyüşməyə pəhləvan istədi. Ancaq Samın bir göz qırpımında şaqqalandığını görən əsgərlərin nəfəsləri çəkilib içlərində qalmışdı. Nəhayət, qəhrəman Züheyr düşmən hiyləsinin toruna düşüb mühasirəyə alındı. Uzun sürən döyüşdən sonra meydanda taqətsiz halda qaldı. Mücahidlərin köməyi ilə mühasirədən çıxarılan Züheyr xeyməgaha gətirildi. İmam Hüseyn (ə) bu igid döyüşçünün başını dizi üstə alıb qan püskürən yaralarına əllərinin təması ilə məlhəm qoydu. Bu təmasdan ayılan Züheyrin baxışları İmam Hüseynin (ə) qəmgin çöhrəsinə zilləndi, susuzluqdan cadar-cadar olub bir-birinə yapışmış dodaqlarını zorla aralayaraq dilləndi:

- Ya Hüseyn, mən vəzifəmi yerinə yetirdim. Susuzluq yanğımı şəhadət şərbəti ilə söndür.

İmam Hüseyn (ə) sağ əlini Züheyrin ona tuşlanıb açılı qalan gözlərinə çəkib öz-özünə pıçıldadı: «Ucalıq mərtəbəsində bizi çox gözləməyəcəksən, ya Züheyr».

Göydən od ələnir, gün adamın başını deşirdi. Yezidin topuğa qədər qaynar quma batmış əsgərləri silah, sursat və zirehin ağırlığına zorla tab gətirirdilər. Mücahidlərin qəhrəmanlığı, ölümdən qorxmayaraq igidliklə vuruşmaları onları bərk qorxuzmuşdu. Onlar qan dənizinə bənzəyən döyüş meydanına, bu meydanda qalaqlanmış əsgər yoldaşları cəsədlərinə baxdıqca vahiməyə düşürdülər.

Züheyrdən sonra 22 minlik qoşundan təkbətək döyüşmək üçün meydana çıxmağa heç kim cəsarət etmirdi. Ömər ibn Səd də bu qan dənizinə baxanda canından gizli bir üşütmə keçdi, tükləri biz-biz oldu. Gözləri böyüyüb hədəqədən çıxdı. Ona elə gəldi ki, bircə an da keciksə, nəzərlərini meydandakı cəsədlərə zilləyib geyimiş bütün əsgərlər qılınc və nizələrini tullayıb Kufəyə qaçacaqlar.

- Niyə dayanmısınız? Beş-on nəfər götürüb gedin o bədbəxtlərin cəsədlərini gətirib dəfn edin, - deyə Ömər ibn Səd yanındakı yavərlərinə əmr etdi. Ancaq meydanı cəsədlərdən təmizləmək beş-on nəfərin işi deyildi. Əlbəttə, bu minvalla döyüş davam etsə, İmam Hüseynin (ə) az saylı dəstəsi Yezidin 22 minlik qoşununu məğlub edə bilərdi. Buna görə də İbn Səd təcili bütün sərkərdələri yanına çağırıb, təkbətək döyüşü qadağan etdi.

***

Kərbəlanın düzlü, təpəli vəhşi qumluğu od üstündə közərmiş qızmar tavaya bənzəyirdi. Qan qoxusuna gələn yırtıcı səhra quşları səmada qanad çalmadan ağır-ağır süzürdü. İmam Hüseynin (ə) xeyməgahında ah-nalə səsləri ərşə bülənd olmuşdu. Züheyrdən sonra Əbdullah ibn Ömər Kəlbi, Bərir ibn Həsin Həmədani, Vəhəb Kəlbi, Ömər ibn Xalid, Xalid ibn Ömər, Səd ibn Hənzələ, Ömər ibn Əbdullah Rumhi, Vəqqas ibn Malik, Müslüm Azərbaycani, Hilal ibn Rəfi, Əbdürrəhman ibn Əbdullah Yəzəni, Yəhya ibn Müslüm Mazəni, Əbdürrəhman ibn Ürvə, Malik ibn Ənəs, Ömər ibn Müta din uğrunda həlak olub şəhidlik mərtəbəsinə ucaldılar.

İmam Hüseynin (ə) bu dünyaya vida deyib yüksək məqama çatmaq istəyən döyüşçülərinin artıq növbə gözləməyə səbrləri çatmırdı. Əyinlərində dəmir zireh, at belində, yandırıcı günəşin altında əzablı döyüş səhnələrini izləmək nə qədər çətin idisə, susuzluq atəşini söndürmək ondan da ağır idi. Elə buna görə də din fədailəri susuzluğa qalib gəlmək üçün döyüşə tələssələr də dəstənin müdafiəsini də, hücumunu da, döyüşün hansı məqamlarda aparılacağını da İmam Hüseyn (ə) özü təyin edirdi.

Qəfildən dəli bir nərə ilə at kişnərtisi bir-birinə qarışdı. Ətrafı toz dumanı bürüdü. Haşim ibn Ütbeyi Vəqqas şimşək qanadlı atını döyüş meydanına sürdü. Yezid qoşununun əsgərləri yaranmış fasilədən istifadə edərək yenə ölmüş döyüş yoldaşlarının cəsədlərini meydandan kənara sürükləyirdilər. Haşimin meydana daxil olması döyüşü

yenidən qızışdırdı. Coşub vəcdə gəlmiş Haşim atını meydanda cövlan etdirərək düşmən qoşununa lənətlər yağdırırdı.

Ömər ibn Səd əmisi oğlunu döyüş meydanında görəndə heyrətini gizlətməyərək əlini gözünə günlük edib zəndlə ona baxdı. Haşimin şücaətinə bələd idi. Bir tərəfdən də Şimrin yanında olması onu daha da əsəbləşdirdi. İndi elə məqam idi ki, o nəinki qəhrəman əmisi oğlundan, heç öz övladından da keçməzdi. Ona görə də Şamdan min nəfərlə gəlmiş Hələb hakimi Səman ibn Müqatili yanına çağırıb meydana göndərdi. Yenidən təkbətək döyüş qızışdı. Səmanın nəsihətlərinə əhəmiyyət verməyən Haşim əmisi oğlu Ömər ibn Sədə də, İbn Ziyada da, Yezidə də lənətlər söyləyib döyüşə atıldı. Və bir zərbə ilə Hələb sərkərdəsini cəhənnəmə vasil etdi. Hadisəni kənardan izləyən Səmanın qardaşı Nüman min nəfər süvari ilə birlikdə Haşimin üstünə gəldi.

Düşmən qoşununun böyüklərindən birinin məhv olması susuzduqdan taqətdən düşmüş İmam Hüseyn (ə) döyüşçülərinə yeni ruh, yeni can verdi. Haşimin mühasiriyə alındığını görən İmam Hüseyn (ə) qardaşı Fəzl ibn Əliyəl-Mürtəzanı on nəfər döyüşçü ilə köməyə göndərdi. Digər din fədailəri də döyüşə atılmaq istədilər. Ancaq İmam Hüseyn əl işarəsi vəcdə gəlib coşan din aşiqlərinin yolunu kəsdi. Köməyə gələnlərin qarşısını almaq üçün Ömər ibn Səd meydana əlavə iki min nəfər də əsgər göndərdi. Bir tərəfdə Haşim min nəfərə qarşı, bir tərəfdə Fəzl ibn Əli on nəfər silahdaşı ilə iki min nəfərlə döyüşə başladı.

Fəzl ibn Əliyyəl-Mürtəzanın döyüşə atılması Əhli-beyt qadınlarının naləsini daha da ucaltdı. Həzrəti Zeynəblə, Həzrəti Ümmü Gülsüm «Can qardaş» deyib ah-fəğan etdilər.

Çox çəkmədi ki, Haşim də, Fəzl ibn Əliyəl-Mürtəza da, onun on nəfər silahdaşı da şəhid oldu. Əhli-beyt Kərbəla düzündə ilk şəhidini verdi. Bundan sonra Həbib ibn Müzahir, azad olunmuş qul Həmzeyi Hərir, Yezid ibn Mühaciri-Cəfi, Ənəs ibn Məqil, Abbas ibn Şişin azad etdiyi qul Şaribə, müəzzin Cəfi, Seyf ibn Haris, Malik ibn Ütbə, Hənzələ ibn Səid, Yezid ibn Ziyad Şəbi, Səd ibn Əbdullah, Cibavə ibn Hariz, Ömər ibn Cibaveyi Hariz, Məhəmməd ibn Miqdad, Abdullah ibn Dücanə, Həzrəti Əli əleyhissəlamın qulamı olmuş Sədi, Qeys ibn Rəbi, Şiş ibn Süveyd, Ömər ibn Qurt, Müslüm, Həmmad, Müslüm ibn Əqilin oğlu Abdullah, Cəfər Təyyarın övladı Məhəmməd, Övn ibn Övf və başqaları döyüş meydanında həlak olub şəhadət şərbəti içdilər.

***

Ömər ibn Səd gözlərini qıyıb səmaya baxdı. Qızmar günəşin şüaları sanki onun gözünə mil çəkdi. Artıq gün günortaya yaxınlaşırdı. Yaranmış fasilədən istifadə edərək, qoşuna qısa müddətli istirahət üçün sərbəstlik vermək istədi. O, yavərinə tərəf çevrilib fikrini ona bildirdi. İbn Səddən aralanıb öz dəstəsinin yanında dayanmış Şimr fasilə elan olunduğunu eşidib yenidən atını geri sürdü.

- Bu nə vaxtın fasiləsidir, ey Ömər, - deyə Şimr Ömər ibn Sədə çatar-çatmaz soruşdu.

Ömər ibn Səd Şimrin sözlərinə əhəmiyyət verməyib yenə yavərinə üz tutdu:

- Başqa sərkərdələri də çağır bura.

Çox çəkmədi ki, bütün qoşun böyükləri Ömər ibn Sədin ətrafına toplaşdılar.

Şimr bayaqkı sözünə əhəmiyyət verilmədiyindən əsəbləşdiyini büruzə vermək üçün uca və qəti səslə dilləndi:

- Ey Ömər, əgər doğurdan da könlündə Hüseyn ibn Əli ilə müharibə aparmaq yoxdursa bunu açıq-aşkar de ki, biz də işimizi bilək. Belə döyüş olmaz. Sən əsgərlərin ruhunu öldürürsən, qollarını boşaldırsan.

Ömər ibn Səd ilan kimi qıvrılıb açılsa da yenə Şimrin sözlərinə əhəmiyyət vermək istəmədi. Ancaq bütün qoşun başçılarının ona tuşlanan kinli baxışlarına dözməyib dedi:

- Ey Şimr, sizin şahidliyinizlə Hüseyn ibn Əli ilə müharibəni birinci mən başladım və bu işə mən cavabdehəm. Qoşunun başçısı mənəm. Sizin vəzifəniz mənim əmrimə tabe olmaqdır.

- Sərkərdəliyinlə öyünməkdənsə, əmr ver, birdəfəlik hücuma keçib Hüseyni də, onun yan-yörəsini də qılıncdan keçirək, - deyə Şimr yenə əsəbiliklə bildirdi.

Sinan ibn Ənəs Şimrin sözünə qüvvət verərək dedi:

- Ya Ömər, doğrudan da məsələni bu qədər yubatmağın, ləngitməyin mənası varmı? Tabeliyimizdə qoşun var. Bir əmrimizə bənddir ki, Hüseynin dəstəsini darmadağın etsin.

Ömər ibn Səd təkləndiyini, Şimrin fitnəsi ilə qoşun başçılarının onun üstünə ayaq açdığını görüb qətiyyətlə dedi:

- Siz nə danışdığınızı bilirsinizmi? Verilən əmrdən xəbəriniz varmı? Bizim iki tapşırığımız var: Hüseyndən Yezid ibn Müaviyyəyə beyət almalı, beyət vermədiyi təqdirdə qətlə yetirilməliyik. Yəni Hüseyni qətlə yetirməzdən əvvəl biz ondan beyət almağa çalışmalıyıq. Siz isə məsələnin birinci tərəfini unudursunuz. Axı, bunlar azad

olunmuş qullar deyillər ki, ağına-bozuna baxmayıb qılıncdan keçirək. Nəzərə alın ki, vuruşduğumuz adamlar peyğəmbər övladlarıdır. İndi məni başa düşdünüzmü? Bəlkə, Hüseyn ibn Əli bir azdan bildirəcək ki, Yezidə beyət edirəm. Ona görə də gözləməyə, döyüşü bu cür uzada-uzada aparmağa məcburuq.

Şimr Ömər ibn Sədin sözlərini təsirdən salmaq üçün yenə ortalığa bir söz atdı:

- Mən Hüseyn ibn Əlini yaxşı tanıyıram. O dediyi sözü heç vaxt geri götürməz. Bizim ondan beyət gözləməyimiz tamamilə əbəsdir.

- Əlbəttə, sən bizdən yaxşı tanıyarsan Hüseyni. O səninlə daha yaxın əqrəbadır. Bacın oğlanlarını yola gətirə bilsəydin, heç bu qədər qanlar tökülməzdi. Hüseyn məcbur olub Yezidə beyət edərdi. Amma, odur ey, Hüseynin bayrağı bacın oğlu Abbasın əlindədir, - deyə Ömər ibn Səd Sinan ibn Ənəsə, Şis ibn Rəbiyə, Tariq ibn Şişə baxıb kinayə ilə dilləndi.

Şimr hirsindən bığlarını gəmirdi. İstədi desin ki, sənin əmin oğlunun da bayaq şücaətini gördük. Ancaq bu sözləri ürəyinə gətirsə də dili başqa sözlər dedi:

- İndi qərarın nədir, ya Ömər? Neyləyək, yenəmi sabaha saxlayaq döyüşü?

Şimrin atmacalarından tənkə gəlmiş Ömər ibn Səd onun sözlərini udub təmkinlə cavab verdi:

- Qulaq asın. Əgər döyüşü bu cür davam etdirsək, xeyli itki verəcəyik. Ona görə də gözləməliyik. Hüseyn və əshabələri iki gündür ki, susuzdur. Çaya gedən yolun müdafiəsini möhkəmlədib, hücumu dayandırmalıyıq. Bundan sonra onları daha qətlə yetirməyimizə ehtiyac

qalmayacaq. Günün istisi və susuzluq bir azdan onların axırına çıxacaq. İndi isə bütün əsgərlərə əmr edin tuluqları çıxarıb su içən su içsin, yuyunan yuyunsun. Özü də elə edin ki, İmam Hüseyn və döyüşçüləri bunu aydınca görsünlər.

Şimr bir qədər fikrə gedib öz-özünə dedi: «Yox, bu Ömər heç də mən bildiyim qədər səfeh deyilmiş. Düzgün qərar çıxartdı. Ancaq susuzluqla bunları diz çökdürmək olar. Çayın yolunu özüm kəsəcəm. Qoymaram ki, Əli övladları o sudan bir qətrə də dadsınlar». Ancaq Şimr bu fikirdə ikən bacısı oğlanları Abbas, Əbdullah, Cəfər və Osman gözləri önündə gəlib dayandı. Onlarla görüşüb söhbət etməyə daxili bir ehtiyac duydu. «Azacıq da olsa mənə meylləri varsa, xilas edəcəm onları. Yox, əgər hamısı məni danıb ögey qardaşları Hüseyni tutsa, başlarını öz əlimlə kəsəcəm» - deyə Şimr öz-özünə düşündü.

Bir azdan sərkərdələrin əmri ilə bütün qoşun su tuluqlarını çıxarıb deyə-külə bir-birləri ilə su oyunu oynamağa başladılar. İmam Hüseyn (ə) tərəfdə isə bütün döyüşçülər, qadınlar və uşaqlar bir damla suya həsrət idilər. Körpə uşaqların «Ələtəş» deyib ağlamaları Kərbəla düzünü başına götürmüşdü.

İmam Hüseyn (ə) Əhli-beytin qadınları olan xeymələrə tərəf baxa bilmirdi. Südəmər övladı Əli-Əsğərin su yanğısından çığırtısını eşitməmək üçün əlləri ilə qulaqlarını tutdu. Həyatında ilk dəfə olaraq ümidsiz, çarəsiz bir görkəm aldı. Qadınlara və uşaqlara su verib kömək edə bilmədiyi üçün bütün dünya gözündə zülmətə dönmüşü. Həzrət İmamın özü öz yadına düşmürdü. Dodaqları kilidlənsə də, çiyəri od tutub yanmaq dərəcəsinə çatsa da dözürdü bu əzaba. Ancaq hiss edirdi ki, dilbilməz Əli-Əsğərin susuzluq

əzabına dözə bilməyəcək. Görpənin səsi bir az da davam etsəydi, çarəsizlikdən və ümidsizlikdən bağrı çatlayardı.

Qardaşı oğlu Abdullah ibn Həsənin kölgəsi onun üstünə düşəndə İmam başını yuxarı qaldırdı. Fikir və xəyala getdiyindən Abdullahın ona necə yaxınlaşmasından xəbəri olmamışdı. Polad biləkli, şir ürəkli Abdullah Həzrət İmamı naümid bir vəziyyətdə görəndə kədərləndi.

- Qəm eləmə, ya əmi. Bu məlunlar bizi nə qədər sıxsa da Allahın bizə bəxş etdiyi səbr tükənməzdir. Görürsənmi, qorxularından biri cəsarət edib meydana çıxmır. Şəhid olan mücahidlərimizin hamısı öz intiqamlarını birə-on aldılar. Biz də son nəfəsimizə kimi döyüşəcəyik. Həm susuzluqla, həm də Yezidin qoşunu ilə. - Abdullah ibn Həsən vəcdə gələrək danışır, döyüşqabağı sanki yeni qüvvə toplayırdı.

Körpə Əli-Əsğərinin xeymədən gələn çığırtısı Həzrəti İmamın yenə bütün vücudunu titrətdi.

- Bütün əzab və işgəncələrə dözürəm. Təkcə Əli-Əsğərin susuzluğundan başqa, - deyə İmam Hüseyn (ə) kədərlə bildirdi. Sonra sözünə əlavə edərək, - Məni taqətdən salan içimdə qalanmış tonqal yox, Əli-Əsğərin səsidir, dedi.

Abdullah istədi nəsə desin, İmama bir təskinlik, təsəlli versin. Ancaq deməyə söz tapmadı. Qəhərdən boğulduğunu, göz yaşının toz basmış yanaqlarına axdığını hiss etdi. Heç bir söz demədən geri çevrilib sürətli addımlarla atına tərəf getdi. Nizəsini, qalxanını götürüb ata sıçradı. Və dəli bir nərə çəkərək döyüş meydanına şığıdı. İmam Hüseyn (ə) də, başqa mücahidlər də bir anın içərisində baş vermiş bu hadisəni tam izləməyə belə macal tapmadılar. Bir göz qırpımında atını meydana sürən Abdullah bir-biri ilə su oyunu oynayan düşmən əsgərlərinin üstünə hücum çəkdi.

Qarşı tərəfdən heç bir həmlə gözləməyən düşmən qoşununun ön sıradakı piyada əsgərləri atın onların üstünə şığıdığını görüb vahiməyə düşdülər. Qaçmağa belə imkan tapmadılar.

Kənardan bu mənzərəni seyr edən Ömər ibn Səd əvvəlki fikrini dəyişərək atlının qarşısını almaq üçün sərkərdələrin üstünə qışqırdı. Bəxtər ibn Ömər Şami Abdullahın atını birbaşa Ömər ibn Sədin üstünə sürdüyünü görüb 500 nəfər süvariylə onun qarşısını kəsdi.

Abdullah Yezidə və onun hakimiyyətinə lənət yağdıra-yağdıra vuruşur, düşmən əsgərlərini vahiməyə salırdı.

Abdullahın mühasirəyə alındığını görən mücahidlərdən Ənəs, Əsəd ibn Dücanə və İmamın qulamı Firuzan özlərini köməyə çatdırdılar.

Ömər ibn Səd sərkərdə Şiş Rəbinin tabeliyində olan əlavə 500 nəfəri də döyüşə göndərdi. Dörd nəfər min nəfərə qarşı. Bu qeyri-bərabər döyüşü kənardan seyr edənlər din aşiqlərinin nə qədər böyük gücə, qüvvəyə malik olduğuna heyrət etdilər. Onlara elə bil ilahi qüvvə bəxş edilmişdi.

Həmin döyüşdə təkcə Firuzan Mızraqla 130, qılıncla 27 nəfəri qətlə yetirdi. Aslan kimi döyüşən Abdullah vəcdə gəlir və sanki qüvvəsi artırdı. Axırda dostlarını itirib meydanda tək qalan İmam övladı haqqa qovuşmaq vaxtının yetişdiyini hiss etdi. Arxaya çevrilib bir daha at üstündə vuqarla dayanmış əmisi İmam Hüseyni, qardaşlarını və digər qohumlarını seyr etdi. Sonra qılıncı sıyırıb özünü qoşunun sıx yerinə vurdu.

Ömər ibn Səd dəhşətə gəlmişdi. Qurduğu tədbir baş tutmadığından nə edəcəyini bilmirdi. «Bunlar necə insandırlar? Susuzluqdan, yorğunluqdan taqətdən düşmək

əvəzinə daha da güclənirlər». - deyə heyrətlə düşündü. Sonra beş min nəfərlik qoşuna Abdullahı oxa, nizəyə, sapandla daşa tutub məhv etmək əmrini verdi.

Dəhşətli bir döyüş səhnəsi yaranmışdı. Bir nəfər beş min nəfərə qarşı vuruşurdu. Aldığı ox və nizə yaraları nə qədər çox olsa da, bütün bədəni al-qana bulaşsa da Abdullah döyüşü dayandırmırdı.

- Zərrə qədər də qeyrətiniz varsa oxu, nizəni kənara tullayıb üstümə qılıncla gəlin. Qorxaqlar, namussuzlar, yaxına gəlin, - deyə Abdullah nərə çəkir, bədəninə sancılmış oxlar onu görünməz etsə də qamətini əymir, dərin köklü palıd kimi yerindəcə bitib qalırdı. Bayaqdan bəri yaxına getməyə cəsarət etməyən düşmən əsgərləri Abdullahın taqətdən düşüb yerə yıxılmasını gözləyirdilər. Nəhayət, daha onun qolunun qalxmadığını, özünü müdafiə edə bilmədiyini görən məlun bir əsgər qəfil bir qılınc zərbəsi ilə Abdullahı şəhid etdi. Onun köməyinə gəlmiş Əli övladları Həzrət Abbas və Övn mühasirəni yarıb Abdullahın cəsədini xeyməgaha gətirdilər.

Bütün Əhli-beyt Abdullahın cənazəsinin ətrafına toplaşmışdı. Həzrəti Zeynəb və Həzrəti Ümmü Gülsüm şivən qoparır. İmam Həsənin igid övladının ölümünə dözə bilmirdilər.

Gənc Qasim qardaş itkisinin necə ağır olduğu Abdullahın al-qan içində olan taqətsiz vücudunu görəndə hiss etdi. Əvvəlcə o da halsızlaşdı. Göz yaşları içində sanki əriməyə başladı. Ancaq əmilərinin odlu baxışları ilə qarşılaşanda mis rənginə çalan çöhrələrinə nəzər yetirəndə yumruqlarını düyünləyib düşdüyü halətdən özünü xilas etdi. Və duydu ki, onun da əzələləri poladlaşır, vücudu bərkiyir.

İndi o, susuzluğunu da, taqətsizliyini də tamam unutmuşdu. Qəlbinə hakim kəsilən yalnız bir hiss idi; qardaşının intiqamını almaq. Azğınlaşmış din düşmənlərini məhv etmək, sonra Abdullah kimi çarpışıb rəqiblərini heyrətə gətirmək, öz şəhadəti ilə İslamın bayrağını ucaltmaq, bünövrəsini möhkəmlətmək.

Qasim bu fikirlərdə İmam Hüseynə (ə) yaxınlaşdı. «Ya əmi, rüsxət ver...» - desə də İmam Hüseynin (ə) ona tuşlanmış kədərli baxışlarını görəndə hiss etdi ki, əmisinin sözü var, nəsə demək istəyir. Elə bu zaman Qasimin döyüşə hazırlaşdığını görən Əhli-beyt qadınları özlərini ona yetirdilər. Həzrəti Zeynəb ağlaya-ağlaya Qasimin boynunu qucaqladı.

- Ya Hüseyn, Qasimin hələ çiyinləri bərkiməyib. Görmürsən necə zərif və məsumdur. Qıyma ona, - deyə Ümmü Gülsüm bacısına qoşulub fəğan etdi.

Həzrəti Zeynəb ağlaya-ağlaya üzünü Qasimə tutarar:

- Ya Qasim, səndən qardaşım Həsənin ətrini alıram. Hara gedirsən? Sənsiz biz neyləyərik? Axı, sənin hələ vuruşmaq vaxtın deyil, deyə səsini ucaltdı.

«Səbr et, Hüseyi. Səbr et. Özünü ələ al. Hələ sənin vaxtına var. Bil ki, çəkdiyin bu əzablar, dözdüyün işgəncələr müqəddəs dinin - İslamın yaşaması üçündür» - deyə İmam Hüseyn (ə) öz-özünə pıçıldadı. Elə bil bu sözlərdən sonra köksündən çıxmaq dərəcəsində olan ürəyinin döyüntüsü bir az azaldı. Hansı bir qüvvənin təsiri iləsə əsəbləri cilovlandı. O, çox təmkinlə bacılarına təsəlli verib onları sakitləşdirdi. Sonra Qasimin məsum baxışlarına, sevgi və məhəbbətlə dolu çöhrəsinə baxdı. Qəfildən yadına nəsə düşdü. Ayağa qalxıb

«Gəlin xeyməgaha», - deyə Qasimi də, bacılarını da, Əhli-beytin xeyməgahına apardı.

***

Qəm və kədər dolu baxışlar bir-birinə dikilmişdi. Bu qəm və kədər pərdəsinin arxasında isə bir cüt eşqlə dolu ürəyin çırpıntıları güclə sezilirdi. Bir-birinin həsrətini çəkən baxışlar bu gün elə bir məqamda rastlaşmışdı ki, kədər və matəm pərdəsi onları bir-birini doyunca seyr etməyə imkan vermirdi. Qasim əmisi qızının eşqi ilə çoxdan alışıb yanırdı. Atasının vəsiyyətini də ona çatdırmışdılar. Kufə səfəri ortaya çıxandan sonra isə qəlbindəki məhəbbət odunu din düşmənlərinə qarşı mübarizə aparmaq eşqi ilə əvəz etmişdi. İndi budur, həsrətində olduğu sevimli əmisi qızı ilə bir xeymədədir. Sevgilisinin ona dikilmiş məsum və günahsız baxışlarına neçə cavab versin. Qardaşı Abdullahın heç hələ cəsədi soyumayıb. Döyüş yoldaşlarının qanı hələ qurumayıb.

Qasim yenidən əmisi qızının nəmli gözlərinə, həya və ismətdən od tutub yanan çöhrəsinə nəzər yetirdi. Susuzluq bu gül üzlü qönçəni də taqətdən salmışdı. «Bəsdir daha bu istidə gözlədiyimiz. Hücum çəkib hamısını qılıncdan keçirək...» Lap yaxınlıqdan gələn bu səs Qasimin qulaqlarında şimşək kimi çaxdı. Qeyri-ixtiyari ayağa qalxıb qılıncını belinə bağladı. Xeymədən çıxanda əmisi qızının həçqırıqlarını eşidib ayaq saxladı. Yalvarıcı bir nəzərlə ona tuşlanmış nəmli baxışları Qasım bütün varlığını əlindən aldı. O, həyadan, ismətdən danışmasa da baxışları və hıçqırıqları ilə çox sözlər deyirdi. Qasim qəhərləndi. O hiss edirdi ki, qarşısındakı bu məsum, açılmamılı qönçəyə son dəfə baxır.

Ayağını atıb xeymədən çölə çıxmaqla bütü həyatla vidalaşır. Yox, bu gediş onu qorxuzmurdu. Bu yolu o, könüllü gedirdi. Düşmən artıq lap yaxında idi. Onların səsi xeymələrdə eşidilirdi. Belə bir məqamda o, bütün varlığı ilə bağlı olduğu əziz əmisini, bütün müsəlmanların İmamını yağı düşmənlə təkbətək qoya bilməzdi, Qasim nə qədər istədisə əmisi qızına bir kəlmə söz desin, ancaq susuzluqdan və qəhərdən danışa bilmədi. Hiss etdi ki, dilindən bircə kəlmə söz qopsa, uşaq kimi hönkür-hönkür ağlayacaq, boşalacaqdır. O isə düşmən qarşısına gərilmiş əzələ ilə, dəmir bədənlə getmək istəyirdi. Qasim son dəfə də heç bir söz demədən xeymədən çıxdı. İçəridə hıçqırıq səsi ah və nalə ilə əvəz olundu. Əhli-beytin xanımları Qasımın xeymədən çıxdığını görəndə onun qarşısını kəsdilər. Ancaq Qasim geriyə qayıda bilməzdi. Ona görə də uca səslə:

- Əmim düşmənlə üz-üzə dayanan bir məqamda mən necə xeymədə gizlənə bilərəm. Gedirəm o quduzlaşmış din düşmənlərini qanına qəltan etməyə, - dedi.

Qasim döyüş meydanında idi. Ancaq təkbətək vuruşmaq istəyən yox idi. O, meydanda atını cövlan etdirib bir rəcəz söylədi. Sonra üzünü Ömər ibn Sədə tutub ona və Yezidə lənətlər yağdıraraq dedi:

- Bəs deyilmi bu qədər qan tökdünüz?.. Axı, nə edib sizə bu mömin insanlar?

Qasimi uzaqdan tanıyan ibn Səd dilləndi:

- Nə etdiyinizi bilmirsənmi? Get əmin Hüseynə de ki, Yezidə beyət etsin, qurtaraq. Bu qədər insanın ölümünə bais olmasın. Zəmanənin İmamını tanısın. Yezid ibn Müaviyənin hakimiyyətini qəbul etsin. Daha biz də yorulub bezmişik.

- Anan ağlar qalsın, ey Ömər ibn Səd. Sən necə rəva görürsən ki, bütün müsəlmanların İmamı olan əmim Hüseyn din düşməni Yezidin hakimiyyətini qəbul etsin. Sən İmam Hüseyni tanımırsanmı? Bilmirsənmi Yezid bura yüz belə qoşun göndərsə də, əmim əqidəsindən dönən deyil, - deyə Qasim atının cilovunu çəkərək bildirdi.

Ömər ibn Səd artıq yəqin etdi ki, İmam Hüseyn şəhid olacaq, ancaq beyət etməyəcək. Ona görə də İmam Hüseyni də, onun ətrafındakıları da bir hücumla qətlə yetirməyi öz-özünə müəyyənləşdirdi. Sonra yavərinə işarə edərək Qasimin üstünə hamılıqla hücum etmək əmrini verdi.

Ömər ibn Sədin bu fikrindən xəbərsiz olan Qasim isə meydanda atını cövlan etdirib təkbətək döyüş üçün pəhləvan istəyirdi. Birdən bütün qoşunun ona tərəf yeridiyini, üzərinə yağış kimi ox yağdığını gördü. Ancaq yenə özünü itirmədi. Qılıncı çəkib şimşək sürətli atını düşmənə tərəf çapdı. Çox çəkmədi ki, Qasim piyada qoşun istiqamətindən mühasirəni yardı. Sərkərdələr yenidən İbn Sədin yanına gələrək döyüşün düzgün təşkil edilmədiyindən gileyləndilər. Yerbəyerdən «Bunlarla bacarmaq mümkün deyil. Heç biri ölümündən qorxmur. Bir cavan uşaq o boyda qoşunun mühasirəsini yarıb çıxdı. Təkcə bu döyüşdə 20 nəfərdən çox itki verdik. Hələ yaralıları demirik» - dedilər. İbn Səd yenidən qoşuna dayanmaq əmrini verdi.

Mühasirədən çıxan Qasim İmam Hüseynin (ə) hüzuruna qayıtdı. Heç kimin gözləmədiyi halda Qasim əsl şücaət göstərmişdi. Düşmən əsgərlərinin onsuz da gözü əvvəldən elə qırılmışdı ki, mücahidlərdən kiminsə onlara hücum etdiyini görəndə pərən-pərən olur, silah-sursatlarını ataraq qaçıb canlarını qurtarmağa çalışırdılar. İmam Hüseyn (ə)

qardaşı oğlunun qəhrəmanlığından xeyli məmnun olmuşdu. Qasim qardaşı Abdullahın igidliyini təkrar etmişdi.

Qasim tövşüyə-tövşüyə dilləndi:

- Ya İmam, bircə udum su içsəm, bu ordu ilə tək bacararam. Saylarının çoxluğuna baxma, hamısı qorxaq və fərsizdir. Piyadalar atlı görən kimi ancaq qaçmaq istəyirlər. Atlılar da qarşı-qarşıya döyüşməyə cəsarət etmirlər.

İmam Hüseyn (ə) gənc din aşiqinin vəcdə gəldiyini görüb onu tutduğu yolun düzgünlüyünə bir daha inandırmaq üçün dedi:

- Başqa cür də ola bilməz. Biz haqq yolunda, din uğrunda vuruşuruq, onlar isə daha çox ənam almaq üçün. Biz öz hüququmuzu qoruyuruq, onlar nəfslərinin güdazına gedirlər.

Qasimin danışmağa taqəti yox idi. Yenə əli ilə sifətinin tərini, tozunu silib, üzünü İmam Hüseynə (ə) tutdu:

- Qayıdıram meydana ya İmam. Bir udum su...

İmam Hüseyn (ə) yenə Qasimi ruhlandıracaq bir tərzdə dilləndi:

- Sənin şücaətin və səbrin olan yerdə suya ehtiyac olmayacaq.

Qasim yenidən atını meydana sürəndə İbn Səd üzünü Şam qoşununun başçılarından biri olan Əzrəq Şamiyə tutdu:

- Yenə bayaqkı atlıdır. Onun öhdəsindən gələn olacaq, ya yox?

Əzrəq sözün ona ünvanlandığını görüb nəzakətlə dilləndi:

- Ya Ömər, əmrinə müntəzirik. Ancaq məni min əsgərə bərabər sayırlar. O, ağzından süd iyi gələn uşaqla döyüşmək mənim şərəfimə xələl gətirər.

Ömər ibn Səd Əzrəqin sözündən əsəbləşərək:

- İş qolun zorluğunda deyil. Gərək insanın ağlı və şüuru da ola. Sən bilmirsənmi ki, bu ağzından süd iyi gələn uşaq Həsənin oğlu Qasimdir. Onları məğlub etmək sənə o qədər də asan gəlməsin.

Qısa söhbətdən sonra Əzrəq dörd oğlunu bir-bir meydana göndərdi. Şir kimi döyüşən Qasim onların dördünü də cəhənnəmə vasil etdi.

Oğlanlarının ölümündən dəhşətə gələn Əzrəq vəhşi bir bağırtı ilə atını meydana sürdü. Hər iki tərəf Qasimlə Əzrəqin döyüşünə diqqətlə tamaşa edirdi.

İmam Hüseyn (ə) Əzrəqin şücaətinə bələd olduğundan Qasim üçün narahat idi. Ancaq vəcdə gəlmiş Qasim təcrübəli pəhləvanın öhdəsindən bacarıqla gəlirdi. Onun hər bir həmləsini cəldlik və çevikliklə dəf edir, Əzrəqi meydanda uşaq kimi oynadırdı. Müdafiə olunan Qasim fürsət axtarırdı ki, düşmən qoşununun bu şöhrətli sərkərdəsinə dəqiq zərbələr endirsin. Oğlanlarının ölümündən başını itirmiş Əzrəq isə yalnız həmlə edir və müdafiə olunmağı unudurdu. Nəhayət cəld və çevik Qasim öldürücü zərbə ilə Əzrəqi atdan saldı.

Bayaqdan bəri Əzrəqi ruhlandıran düşmən əsgərləri Qasimin qələbəsindən sonra donub yerlərindəcə qaldılar. Coşub vəcdə gəlmiş Qasim isə döyüşü dayandırmaq istəmirdi. Yenə atını cövlan etdirib özünü qoşunun sıx yerinə vurdu. Və ağır döyüşdən sonra yaralanaraq atdan salındı. Döyüşü diqqətlə izləyən İmam Hüseyn Qasimin atdan salındığını görüb özü irəli şığıdı. Mühasirəni yararaq Qasimi götürüb xeyməgaha gətirdi. Başından nizə yarası almış Qasim bircə kəlmə «su» deyə bildi...

İmam Hüseynin (ə) dəstəsi seyrəlmişdi. Qasimin ölümündən sonra qardaşları Osman ibn Əliyyəl-Mürtəza, Əbubəkr ibn Əli, Övn ibn Əli, Əbdullah ibn Əliyyəl-Mürtəza şəhadət şərbətini içib cənnətlik olmuşdular. İndi onun sağ tərəfində oğlu Əli-Əkbər, sol tərəfində qardaşı Həzrət Abbas ibn Əliyyəl-Mürtəza dayanmışdı. Bütün döyüş dostlarını, əqrəbalarını itirməklərinə baxmayaraq onların hər üçü at belində qürur və vüqarla dayanıb qarşıdakı düşmən ordusuna sanki bir qorxmazlıq, yenilməzlik dərsi verirdi. Əhli-beytin xanımları, digər qadınlar və uşaqlar isə xeymələrdə, təkəmseyrək bitmiş xurma ağaclarının kölgəsində susuzluqdan bihal vəziyyətdə idilər. Yalnız Şəhrəbanu yataqda uzanmış Zeynalabidinin başı üzərində dayanıb onu tək qoymurdu. O, taqətsiz olsa da, hər şeyi dərk edir, şüurunun işığında bütün olanları görürdü. Atası və anası pis olmasın deyə, susuzluq atəşi onu yandırsa da canını dişinə sıxıb bir dəfə də olsun su istəməmişdi. O bilirdi ki, Yezidin və İbn Ziyadın əmri ilə onları susuzluq imtahanına çəkirlər və heç bir məşkdə bir damla belə su yoxdur. Olmayan şeyi istəməyi isə özünə rəva bilmirdi.

Zeynalabidin əvvəlki günlərə nisbətən bu gün vücudundakı ağrıların azaldığını hiss etmişdi. Bəlkə də bu, ilğım idi. Bəlkə də susuzluq atəşinin təsiri ona digər ağrılarını unutdurmuşdu. Ancaq yox, Zeynalabidin yanılmırdı. Ona elə gəldi ki, istəsə ayağa da dura bilər. Elə uzandığı yerdə əlini-ayağını tərpətdi. Bədəninə yeni bir gücün, qüvvənin yavaş-yavaş hopduğunu hiss elədi. Anası Şəhrəbanu da onun solğun bənizində həyat işartılarının artdığını duymuşdu. Zeynalabidinin könlündən ayağa durmaq, qılıncı belinə bağlayıb atasının köməyinə çatmaq

keçdi. Ancaq hansı bir gizli qüvvəsə onu bu istəkdən daşındırdı.

***

Günorta namazına az qalırdı. Gün göy qübbəsinə qalxdıqca bəla və müsibət torpağında kövdəsi fil ayağına bənzəyən seyrək xurma ağaclarının kölgəsi də elə bil qeybə çəkilirdi. Yer üzü elə bil od tutub yanırdı. Qumun usandırıcı sarılığı və bürküsü ətrafa hakim kəsilmişdi. Ömər ibn Səd günəşdən qorunmaq üçün əlini gözünün üstünə qoyub qarşı tərəfdə at belində qürurla dayanmış üç nəfəri süzüb acı-acı gülümsədi. «Sındıracam sənin qürurunu Hüseyn, əyəcəm sənin vuqarını. Özü də əl vurmadan, sənə toxunmadan. Bu günəşin istisi ilə səni həlak edəcəm. Əgər beyət etməsən susuzluqla məhv edəcəm səni. Özün hüzuruma gələcəksən. Diz çöküb, yalvarıb bir udum su istəyəcəksən. Bax, beyəti bir udum su ilə dəyişəcəm səninlə» - deyə fikirləşən Ömər ibn Sədin İmam Hüseynə (ə) olan əvvəlki mərhəmətindən əsər-əlamət qalmamışdı. İndi onun bütün varlığına iblis hakim kəsilmişdi. O, artıq bu döyüşdə İmam Hüseynin bütün dəstəsini qətlə yetirsə də məğlub olduğunu dərk edirdi. Dərk etdikcə də quduzlaşırdı. İtkinin sayı-hesabı yox idi. Bir sərkərdə kimi şərəfi yerə vurulmuşdu. Böyük bir qoşunla kiçik bir dəstənin üstünə gəlmiş və saysız-hesabsız itkilər vermişdi.

Şimrin ona yaxınlaşması Ömər ibn Sədi öz aləmindən ayırdı.

- Yenə su oyununa başlayaqmı, ya Ömər, - deyə macəra axtaran Şimr əsgərlərin bekar qalmaması üçün yeni təklif verdi.

- Ha, ağıllı fikirdir. Bu istidə ən yaxşı iş elə su ilə oynayıb bir az sərinləməkdir, - Ömər ibn Səd özü də məşkini əlinə alıb başına çəkdi.

- Məşki qaldır yuxarı, ya Ömər. Suyun qalanını tök yerə. Qoy Hüseyn ibn Əli daha çox odlansın, - deyə Şimr özü də su qabını başına çəkib qalanını yerə tökdu. Və yanındakı yavərlərinə qoşun üçün su gətirmək əmrini verdi.

İmam Hüseyn (ə) düşmən qoşununun iyrənc su oyununu seyr etdikcə qəzəbi daha da aşıb-daşdı. Qeyzlənmiş Həzrət Əbülfəzl Abbasın gül camalına elə bil qara bulud çökdü. Əhli-beyt xanımlarının və digər qadınların ah-naləsi, uşaqların «Ələtəş» deyib ağlaması vəziyyəti dözülməz etmişdi. Döyüş meydanına getməyə hazırlaşan qeyzli Həzrət Abbas İmam Hüseynin (ə) işarəsi ilə dayandı.

- Ya Əbülfəzl, eşidirsənmi uşaqların «Ələtəş» səsini?

- Eşidirəm mənim mövlam, - deyə Həzrət Abbas düşmənə olan qəzəbini boğub təmkinlə İmam Hüseynə cavab verdi.

- Əgər eşidirsənsə, özünü vur Fərat çayına... - İmam Hüseyn (ə) sözünü kəsdi. Əli-Əsğərin səsi yenə bütün vücudunu sardı.

- Ya Əbülfəzl, ey mənim arxalandığım, öyündüyüm. Əli-Əsğər üçün bir udum su.

Həzrət Abbas hələ ömründə bu təmkinli, səbrli qardaşının belə çılğın anını görməmişdi. «Yox, ölərəm, bu yolda başımı qoyaram, ancaq mövlamın belə acizləşməyinə imkan vermərəm» - deyə düşünən Həzrət Abbas - «Əmrin

qəbuldur, ya movlam» - deyərək atının cilovunu çəkib su qablarını götürmək üçün xeyməgaha getdi.

Fərat çayı xeymələrdən o qədər də uzaqda deyildi. Qəribə biçimli qum təpələri çay vadisinə tərəf getdikcə kiçildir, qum azalır və münbit sarı torpaq, seyrək xurmalıqlar başlayırdı. Sahil girintili-çıxıntılı idi. Çayın ətrafını və ona gedən yolu Şimrin tabeliyində olan dördminlik qoşun qoruyurdu. Birinci sırada süvarilər, ikinci xətdə nizə və qılıncla silahlanmış piyadalar, lap axırda isə ox və sapand atanlar dayanmışdılar. Həzrət Abbas ildırım sürətli atı ilə birinci mühasirə xəttini yarıb Fərat çayına yaxınlaşdı. Şimr bacısı oğlunun qətlinə artıq fərman vermişdi. O, mühasirəni yarıb keçən Həzrət Abbasın arxasınca daha bir süvari dəstə göndərdi. Həzrət Abbasın niyyətini başa düşən Fərat üstündəki namərdlər onu qılınc və nizə ilə qarşıladılar. Ancaq qarşı-qarşıya gələn heç bir süvari qeyzlənmiş Həzrətin qarşısında davam gətirə bilmədi. Üstünə yağan ox yağışından məharətlə yayınan Həzrət Abbas düşmənin 70 nəfər əsgərini məhv edərək Fərat çayına yetişdi. Susuzluqdan ciyəri yansa da bir udum su içməyi belə özünə rəva bilməyib məşki su ilə dolduran kimi yenidən atın belinə sıçradı. Əllərinin suya dəyməsi vücuduna bir sərinlik gətirsə də ciyəri sanki alov püskürürdü. Həzrət Abbas atına da belə su içməyə imkan verməyib geri qayıtmaq istədi. Ancaq gec idi. Onu təqib edən süvarilər artıq Həzrətə çatmışdılar. Həzrət Abbas yenidən nərə çəkib qılıncını sıyırdı. Dörd bir tərəfdən üzərinə şığıyan düşmən əsgərləri ilə vuruşmağa başladı. Mühasirəyə alışmış Həzrət Abbas nə qədər çalışsa da, bir ucdan arxası gələn düşmən süvarilərindən yaxa qurtara bilmədi. Qarşı-qarşıya döyüşməyə cəsarət etməyib

yandan ona həmlə edən sərkərdə Nöfəl ibn Əzrəq Həzrətin sağ qoluna qılıncla güclü bir zərbə endirdi. Həzrət Abbasın qələm olub yerə düşən qolu hələ də gərili vəziyyətdə idi. Qılıncın dəstəyinə sıxılmış barmaqları hələ də açılmamışdı. Al qan içində olan bu qol, bu əl sanki yerdə də düşmənlə vuruşmaq istəyirdi. Qılıncsız qalmış Həzərt Abbasın əlacı sol əlindəki su qabını köksünə sıxıb onu qorumağa qaldı. Bütün bədəni al-qan içərisində olmağına baxmayaraq yenə də ayaqları ilə atı dəhmərləyib mühasirədən çıxmağa can atdı. Düşmənlər yenə də ona həmlə etməkdə idilər. Yalnız atın şahə qalxıb öz sahibini müdafiə etməsi sayəsində bir müddət Həzrət Abbas ölümcül zərbələrdən xilas ola bildi. Ancaq bir nəfər fürsət tapıb Həzrətin sol qoluna da kəskin bir zərbə vurdu. Həzrət Abbas məşki dişlərinə sıxmağa macal tapdı. Onun sol qolu da üzülüb yerə düşdü. İndi bütün ümid atın döyüşünə qalmışdı. Vəfalı at yerində fırlanaraq öz sahibini qılınc zərbələrindən qoruyur, düşmənləri ona yaxınlaşmağa qoymurdu. Həzrət Abbasın bütün bədəni al qana boyanmışdı. Atın yəhərindən də qan sızırdı. Bu mənzərədən dəhşətə gələn Yezid süvariləri Həzrətə daha əl qaldırmaq istəmirdilər. Ancaq sərkərdə Nöfəl ibn Əzrəq qılıncını sıyırıb onları bu qolsuz qəhrəmanla vuruşmağa məcbur edirdi. Həzrət hər iki qolunu itirsə də hələ ümidini itirməmişdi. Dişləri ilə bərk-bərk tutduğu su məşkini bütün vücudu ilə düşmən oxundan qorumağa çalışırdı. Əli-Əsğərə, xeyməgahda olan uşaq və qadınlara bir udum su çatdırmaq üçün mühasirədən çıxmağa fürsət axtarırdı. O, ayaqları ilə həm atı dəhmərləyir, həm də irəli gəlmək istəyən düşmən əsgərlərini özündən kənarlaşdırırdı. Yerdə toza-torpağa batmış, al-qan içində olan sol qolunun barmaqları isə

tərpəşir, sanki bir kafir boğazı üzmək üçün açılıb-yumulurdu. Həzrət Abbasın gözləri qanla dolmuşdu. Dişləri ilə su məşkini tutduğundan qışqırıb nərə çəkə bilmirdi. Ümidi təkcə gözlərinə qalmışdı. Bu od saçan, qanlı baxışlara baxan düşmən əsgərlərinin vahimədən bağrı yarılırdı.

Birdən Həzrət Abbas dişlərində bir yüngüllük, sinəsində bir sərinlik hiss etdi. Bir anın içindəcə oxla deşilmiş məşkin suyu axıb boşaldı. Ancaq Həzrət Abbasın sinəsinə hopan bu su elə bil onun köksünü alışdırdı. Məşki dişlərindən kənar edib var səsi ilə nərə çəkdi. Üzünü səmaya tutub uca səslə:

- Ya Rəbbim, bu nə zülmdür! Əhli-beytə bir qətrə suyu da çox görürlər! - deyə dilləndi. Qeybdən gələn cavab onun bütün vücudunu titrətdi...

Kürəyinə endirilən daha iki ağır qılınc zərbəsi Həzrət Abbası atdan saldı. Yerdə çapalayıb ayağa qalxa bilmədiyindən bütün gücünü toplayıb var səsi ilə «Ya Hüseyn!» deyə bildi. Bu nidanın sədası bütün Kərbəla torpağını lərzəyə saldı. İmam Hüseyn Həzrət Abbasın səsini eşidib çox pərişan oldu. «İndi mənim belim sındı,» - deyə nalə etdi.

***

Döyüş meydanında ata və oğul tək qalmışdı. Onlar növbə ilə xeyməgahın ətrafına dolanır, onlara xeyli yaxınlaşmış əsgərlərin xeymələrə həmlə etməsinə imkan vermirdilər. Budur onlar yenə at belində yanaşı dayanmışdılar. Hər ikisi susuz və yorğun olsalar da, günəşin yandırıcı istisindən bezsələr də hələ ruhdan düşməmişdilər. İmam Hüseyn (ə) 18 yaşlı Əli-Əkbəri başdan-ayağa süzdü.

Ona elə gəldi ki, qarşısında dayanan oğlu Əli-Əkbər yox, babası Rəsuli-Əkrəmdir. «İlahi, insan insana necə də bənzərmiş. Baxışları, üz quruluşu necə də Rəsulullaha (s) oxşayır.» - deyə İmam Hüseyn (ə) fikirləşdi. Əli-Əkbər indi onun yeganə ümidi idi. Bütün qohum-əqrəbasını, qardaşlarını itirən İmam Hüseyn nur çöhrəli oğlunun da, özünün də şəhadətə yetişmək vaxtının çatdığını hiss etdi.

Ömər ibn Səd və Şimr kənardan İmam Hüseyilə (ə) oğlu Əli-Əkbəri izləyirdi.

- Yəqin ki, indi oğlunu iltimasa göndərər, - deyə Ömər ibn Səd astadan dilləndi. - Daha halları qalmayıb. İndiyə kimi susuzluğa dözmələri möcüzədir.

Şimr kinayə ilə gülümsəyərək dilləndi:

- Yox, ya Ömər. Sən hələ də Hüseyni yaxşı tanımırsan. O, beyət etməyəcək.

- Onda bəs neyləyək? Bu günün altında biz də onunla birlikdə ölək? - deyən Ömər ibn Səd tozlu sifətinin tərini əli ilə sildi.

Şahə qalxmış günün istisi Ömər ibn Sədi də, onun əsgərlərini də əldən salmışdı. Artıq əsgərlərin də içərisində narazılıq yaranmaqda idi. Bir-iki nəfərdən ötrü heç kim bu səhra istisində yanmaq istəmirdi. Bütün qoşunun gözü Fərat çayına gedən yola dikilmişdi. Özlərini çaya atıb yuyunub sərinləməkdən ötrü Ömər ibn Sədin bir kəlmə sözünə bənd idilər.

- Darıxma, ya Ömər. Əziyyətsiz heç nə yoxdur. Rey və Təbəristan mülkü üçün bir qədər günün altında dayanmaq olar, - deyə Şimr gülümsündü.

Ömər ibn Səd isə fikrində öz-özünə dedi: «Fikri-zikri elə Rey və Təbəristandır. O cür bacısı oğlanlarını

öldürtdürdü. Heç uf da demədi. Əlində imkan olsa, mənim də qanımı içər. Ancaq yox, mən sən deyən adamlardan deyiləm, ey Şimr». Sonra özünü Şimrin atmacasına əhəmiyyət verməyən kimi göstərmək üçün xeyirxahlıqla dilləndi:

- Ya Şimr, inşəallah bu qələbəmizdən sonra əmirəl-möminin Yezid ibn Müaviyyə yəqin ki, sənin də zəhmətini qiymətləndirər. Bəlkə səni daha böyük ənam və mükafat gözləyir.

Ömər ibn Sədin xeyirxah sözlərinən Şimr xoşhal oldu. Xəyalən özünü Yezidin hüzurunda hiss etdi. İmam Hüseynin kəsilmiş başını Şimrdən qəbul edən Yezid razılıqla gülümsünərək ona ənamlar verir, bir kənarda dayanmış Ömər ibn Səddən Rey və Təbəristanın hakimlik fərmanını geri alıb Şimri ora hakim təyin edir.

- Nə bərk fikrə getdin, ya Şimr? - deyən Ömər ibn Sədin sualı Şimri şirin xəyaldan ayırdı.

Ürəyində: «Allah sənə lənət etsin. Rey və Təbəristan haqqnda düşünməyimə də mane olur» - deyən Şimr cavab verdi:

- Elə bir fikrim yoxdur, ya Ömər. Gözləyirəm görüm susuzluq Hüseyn ibn Əlini nə vaxt yandırıb kül edəcəkdir...

***

- Bizim bugünkü əzablarımız sabahkı səadətimizin bünövrəsidir. Qarşımızda dayanan təpədən-dırnağacan silahlanmış bu miskin, bədbəxt adamlar bizi başa düşmədilər. İnan və dərk et, ey oğlum. Biz indi əzab çəkirik, onlar ömürlərinin axırına kimi bu dünyada, qiyamətə kimi

isə o dünyada zillət çəkəçəklər. Bizi bu gün susuzluq yandırır, onları cəhənnəm odu qovuracaqdır. Biz qiyamətə kimi yad edilib rəhmətlə xatırlanacaq, əzizlənəcəyik, onlar isə lənətlənib günah girdabına batacaqlar. - İmam Hüseynin (ə) ruhu kükrəmişdi, vəcdə gəlmişdi. O ömrünün son anlarında fikir və düşüncələrini oğlu ilə bölüşür, haqlı yolda olduqlarını ona izah edirdi. Əli-Əkbər qarşısında dayanan bu müqəddəs insanın nə qədər böyük idraka, tanrı sevgisinə, hünərə malik olduğuna heyrətlənirdi. Təkcə atası olduğu üçün yox, bir insan kimi İmam Hüseynin (ə) gücünün və dözümünün hədsiz olduğu onu ruhlandırır, belə bir müqəddəs insanın yolunda ölümə getməyi özünə şərəf sayırdı.

İmam Hüseyn oğlunun baxışlarından, duruşudan onun döyüş meydanına getmək istədiyini duydu. Ancaq Həzrət oğul dağını gözü ilə görmək istəmirdi. Ona görə də Əli-Əkbəri qabaqlayaraq onunla vidalaşıb düşmən üstünə getmək istədiyini bildirdi.

Əli-Əkbərin sifətində, baxışlarında bir üsyankar ifadə yarandı. İmam Hüseyn onu ilk dəfə idi ki, belə görürdü. Əli-Əkbər qeyri-ixtiyari olaraq əlini Zülcənahın cilovuna atıb atasının qarşısını kəsdi. O, ilk dəfə idi ki, atasının yolunu kəsirdi. İlk dəfə idi ki, bütün müsəlmanların İmamına etiraz edirdi. İlk dəfə idi ki, atasına qarşı çıxmaq istəyirdi.

- Məni özünmü öldürmək istəyirsən, yəbnə rəsulallah? - deyə Əli-Əkbər atasının nur saçan üzünə baxdı və sonra - Mən təkcə sənin oğlun yox, həm də müridinəm. Sən mənim təkcə atam yox, həm də İmamımsan. Hər bir müsəlman İmamı yolunda ölümə getməyi özünə borc bilməlidir. Məni Qasimdən, Abdüllahdan, əmilərimdən əskikmi sandın...

İmam Hüseyn (ə) oğlu Əli-Əkbərin sözlərinə dözə bilmirdi. Kövrəldiyindən üzünü yana çevirdi. İstəmədi Əli-Əkbər son məqamda onun göz yaşlarını görsün. Və hiss etdi ki, nə qədər cəhd etsə də Əli-Əkbəri getdiyi yoldan saxlaya bilməyəcək.

Həzrəti Zeynəbin xeymədən çıxıb onlara yaxınlaşması ata-oğul arasında olan söhbəti yarımçıq qoydu. Bu müdrik qadın susuzluqdan nə qədər taqətsiz hala düşsə də son anlarda qardaşının və onun ciyərparasının yanında olmaq istəyirdi. O ağlaya-ağlaya qardaşı və qardaşı oğlunu döyüşməkdən çəkindirmək istədi. Ancaq hiss etdi ki, başqa çarə də yoxdur. Belə getsə, axşama kimi susuzluq əzabına dözə bilməyib hamısı məhv olacaqdır. O, Əli-Əkbərin döyüş əhval-ruhiyyəsində, olduğunu görüb ah və nalə çəkdi. Yezidə və onun əlaltılarına lənətlər yağdırdı.

***

Ömər ibn Səd Əli-Əkbərin döyüş meydanına girdiyini görəndə diqqətlə ona baxdı. Yanındakı yaşlı yavərlərin salavat çevirib zikr etdiklərini gördü.

- Nədir, nə olub? - deyə Ömər ibn Səd öz yavərlərinin üstünə qışqırdı.

- Ya Ömər, biz uşaq vaxtı peyğəmbərimiz Rəsulullahı (s) lap yaxından görmüşük. İndi elə bil gözlərimizə təzədən göründü. Bu gənc kimdirsə onun oxşarıdır.

Ömər ibn Səd də qeyri-ixtiyari salavat çevirib zikr etdi. Və yenə bütün vücudunu sarmış quduzluğu yox oldu. Nə qədər böyük bir günaha batdığını dərk etdi. Üzünü sərkərdələrinə tərəf çevirib var səsi ilə qışqırdı:

- İşiniz olmasın o cavanla. Heç kim ona həmlə etməsin. Ox atmayın, nizə tullamayın.

Ömər ibn Sədin əmri bütün qoşun içərisində yayıldı. Yaşlı döyüşçülər də Əli-Əkbəri görcək onu Rəsulullaha (s) bənzədib salavat çevirib zikr etdilər.

Ömər ibn Sədin əmri olmasaydı belə heç kim cəsarət edib Əli-Əkbərlə döyüşmək fikrində deyildi.

Şimr yenidən atını Ömər ibn Sədin yanına sürüb əsəbi halda dilləndi:

- Bu nə əmrdir belə, ya Ömər. Sənin kimi igid sərkərdəyə ürəyiyumşaqlıq yaraşarmı?

Şimrin sözlərinən əsəbləşən Ömər ibn Səd sərt halda dilləndi:

- Ey Şimr, hər kəs danışdığı sözün həddini bilsə yaxşıdır. Qoy bu cavan oğlan nə qədər meydanda özü üçün cövlan edir, etsin. Biz ona yaxın durmayacağıq. Yaşlı əsgərlər onu Rəsulullaha (s) bənzədirlər. Ona görə də biz ona hücum etməyi əmr etsək qılınc və nizələr özümüzə qarşı çevrilə bilər. Susuzluq və isti onsuz da onu taqətdən salıb. Bir az da gözləsək, özü gücdən düşüb atdan yıxılacaq.

Ömər ibn Sədin cavabı Şimri qane etsə də bu məlun işi daha tez həll etmək, İmam Hüseynin (ə) oğlunu da, özünü də, bütün əhli-əyalını da qılıncdan keçirib İbn Ziyadın və Yezidin qarşısında bir mərtəbə ucalmaq istəyirdi. Onu artıq nə din, nə Rəsulullahın (s) övladları, nə də İslam və onun şərəfi maraqlandırırdı. Şöhrət və vəzifə üçün Şimr indi hər şeydən keçməyə hazır idi.

Şahzadə Əli-Əkbər meydanda atını cövlan etdirib rəcəz söyləyib döyüşməyə mübariz istəsə də düşmən tərəfdən heç

kim yerindən tərpənmədi. Sərkərdələrdən biri uca səslə dillənib onu döyüşdən çəkindirməyə çalışaraq dedi:

- Ey şahzadə, qayıt atan Hüseynə de ki, Yezidə beyət etsin. Biz bura onun əmri ilə gəlmişik.

Əli-Əkbər qeyzlə dilləndi:

- Bütün müsəlmanların İmamı olan Hüseyn ibn Əli heç vaxt Yezidə boyun əyməyəcəkdir. Bunu yadınızda saxlayın. Əgər zərrə qədər də peyğəmbərimiz Rəsullullaha (s) hörmətiniz varsa, bizə yox, xeymələrdəki qadın və uşaqlara bir udum su verin. Yox, əgər yoxdursa, kafirsinizsə, dininizi satıb müsəlmançılığınızı atıbsınızsa üstümə bir-bir gəlin. Görün ki, Rəsulullahın (s) övladları öz dinləri uğrunda necə çarpışırlar.

Susuzluğun sizi taqətdən saldığını bilirik. Su sizə yalnız Hüseyn Yezid beyət edəndən sonra verilə bilər, - deyə həmin sərkərdə yenidən dilləndi.

- Bu dəfə cavabı sənə qılıncla verəcəm məlun, - deyə Əli-Əkbər sərkərdənin üstünə şığıdı.

Sərkərdə qaçıb gizlənsə də, Əli-Əkbər atının cilovunu çəkmədi. Özünü onun qarşısını kəsən piyada qoşunun içərisinə vurub qılıncını çaldı. Döyüş yenidən başladı. Oxlar və nizələr işə düşdü. Hər tərəfdən Əli-Əkbəri mühasirəyə aldılar. Hürrün, Abdullahın, Qasimin və başqa mücahidlərin döyüşünü izləmiş Əli-Əkbər meydanda onlardan da artıq şücaət göstərmək istəyirdi. Yenə düşmən qoşunu pərən-pərən oldu. Əli-Əkbər mühasirədən çıxıb atasının hüzuruna üz tutdu. Onun mindiyi Həzrət Abbasın döyüşkən atı da artıq yorulmuşdu.

- Ya Əbəta, susuzluq məni haldan salır. Neyləyim? - Əli-Əkbər ümidli bir nəzərlə atasına baxdı. O, yaşadığı

zamanda atasından güclü, atasından mömin heç kimi bilmirdi. Hiss edirdi ki, susuzluq dərdinə də yalnız atası əlac edə bilər.

Kövrəlib qəm dəryasına batmış İmam Hüseyn (ə) barmağındakı Rəsulullahın (s) üzüyünü çıxarıb oğlunun dodaqlarına sürtdü. Əli-Əkbər möcüzənin nə olduğunu, üzük dodaqlarına toxunanda bildi. Qəlbinə, ruhuna bir sərinlik axdı. Bir andaca susuzluq əzabından xilas oldu. Ona elə gəldi ki, bir məşk su içib. Ruhən dincələn, sərinləyən Əli-Əkbər atını yenidən döyüş meydanına çapdı.

Məlun Ömər ibn Səd yenə quduzlaşmışdı. Əli-Əkbərlə döyüşmək üçün hiyləgər baxışları kimi isə axtarırdı. Artıq ikid sərkərdələrin, pəhləvanların çoxusunun cəsədləri yan-yana düzülmüşdü. Nəhayət o, axtardığını tapdı. Tariq ibn Şimi yanına çağırıb dedi:

- Əgər bu cavanı məğlub etsən, Yezid ibn Müaviyədən təvəqqe edərəm ki, Mosulun hakimliyini sənə versin.

Mosul hakimliyinin həvəsi ilə meydana girən Tariq ibn Şimin döyüşü uzun çəkmədi. Bundan sonra daha iki nəfər növbə ilə Əli-Əkbərlə döyüşdü və hər ikisi məğlub oldu.

Quduzlaşmış Ömər ibn Səd iki min nəfərin Əli-Əkbərin üstünə yeriməsinə əmr verdi. Ancaq yenə gənc şahzadə mühasirəni yarıb yenidən İmam Hüseynin (ə) hüzuruna gəldi. Eyni sözləri bir də təkrar etdi. Yenidən atasının möcüzəsi ilə susuzluğuna alac tapmaq istədi. Ancaq İmam Hüseyn (ə) bu dəfə üzüyü barmağından çıxartmadı. Heç nəmli gözlərini də oğlundan gizlətmədi. Ağlaya-ağlaya: «Ey mənim çiyərguşəm, artıq sənin üçün də şəhadət şərbəti hazırdır. Gedib sirab ola bilərsən» - dedi.

Ata və oğul yenidən vidalaşdılar. İmam Hüseyn (ə) öz əli ilə oğlunu yenidən döyüş meydanına göndərdi. Bu dəfə o, Əli-Əkbərə dil tökmədi, onu yolundan saxlamağa çalışmadı. Çünki Allahın hökmündən çıxmaq olmazdı.

Əli-Əkbərin yenidən meydana qayıtması ilə bütün qoşunun onun üstünə yeriməsi bir oldu. Ox və nizə zərbələrindən sonra atdan salındı. Ancaq atın cilovunu buraxmayan yenidən atın belinə qalxdı. Artıq onun döyüşməyə taqəti yox idi. Həzrət Abbasın vəfalı və döyüşkən atı Əli-Əkbəri meydandan uzaqlaşdırdı. Gözü ilə döyüş meydanında oğlunu axtaran İmam Hüseyn (ə) «ya Əli! ya Əli!» deyib onu səsləyirdi. Birdən Əli-Əkbərin atının ona tərəf gəldiyini gördü. Sahibsiz at İmam Huseynin (ə) qarşısında ayaqlarını yerə döyüb kişnədi. Sonra səhraya üz tutdu. İmam Hüseyn (ə) atını onun arxasınca çapdı. Kimsəsiz bir yerdə oğlu Əli-Əkbəri al-qan içində gördü. O hələ sağ idi. İmam Hüseyn (ə) oğlunun başını dizləri üstünə alıb hönkür-hönkür ağladı. Huşu getmiş Əli-Əkbər gözlərini açıb atasını başı üstündə görəndə ağrılardan ufuldamaq, sızıldamaq əvəzinə qəmli bir təbəssümlə gülümsədi.

- Babam Rəsulullahı (s) gördüm, ya Əbəta. Susuzluğumu görüb mənə əlində cam uzatdı... - Əli-Əkbərin sözü qırıldı. Baxışları İmam Hüseynə (ə) dikili qaldı.

- ***«...Həqiqətən ölüləri dirildən, onların nə etmiş olduqlarını və qoyub getdiklərini yazan bizik. Biz hər şeyi hesaba alıb lövhi-məhfuzda təsbit etmişik...»*** - İmam Hüseyn (ə) əllərini göyə açıb Yasin oxuyurdu. O bu Quran ayələrini dilinə gətirməklə Əli-Əkbərin sudan doyaraq vəfat etməsini istəyirdi. O bilirdi ki, Yasin oxunduqda Rizvan adlı mələk ölüm ayağında olan adama cənnət şərbəti gətirər.

Həzrət İmam bu surəni səhər tezdən döyüş başlayan andan zikr edir, Allah kəlamı ilə mücahidlərin susuzluq atəşini söndürürdü.

***

Gün göy qübbəsinə çıxmışdı. Mücahidlərin qanı ilə suvarılmış Kərbəla torpağı istidən sanki od tutub yanacaqdı. Susuzluqdan boğazları tutulmuş, qəhərdən dodaqları kilidlənmiş, kədər və ələmdən göz yaşları qurumuş, səsləri zəifləmiş Əhli-Beyt xanımlarının və digər qadınların şahzadə Əli-Əkbəri ağlamağa taqətləri qalmamışdı.

Xeyməgahda tək qalmış İmam Hüseynin (ə) qaməti əyilmişdi. Çiyinlərində sanki bütün kainatın ağırlığı var idi. O, döyüş qabağı fikrə gedib özünü dərk edəndən indiyə kimi gözü ilə gördüyü hadisələri nəzərində canlandırırdı. Qayğısız uşaqlıq illəri, qardaşı İmam Həsənlə (ə) birlikdə deyib-gülüb əylənmələri, babası Rəsulullahın (s) onlara baxıb fərəhlənməsi, sonra göz yaşlarına qərq olması İmam Hüseynin (ə) yadında qalan ən sevimli xatirələri idi. O vaxt hər ikisi özünü Rəsulullahın (s) qucağına ataraq «Nə üçün ağlayırsan, baba?» - deyə uşaq inadı ilə ondan soruşub cavab istəmişdilər. Ancaq Rəsuli-Əkrəm (s) əziz-xələf nəvələrinə heç bir cavab verməyib əlini onların saçlarına çəkmiş və bərk-bərk köksünə sıxmışdı. Sonralar bu hadisə dəfələrlə təkrar olundu. İmam Hüseynlə (ə) İmam Həsən (ə) birlikdə şənlənib əylənəndə Rəsuli-Əkrəm (s) əvvəlcə onlara baxıb sevinmiş, fərəhlənmiş, sonra göz yaşları tökmüşdü. Hər dəfə də «Niyə ağlayırsan, baba?» sualına cavab vermək əvəzinə onları bərk-bərk köksünə sıxmışdı.

İmam Hüseyn (ə) indi dərk etdi ki, bugünkü hadisələr gələcəyi görən Rəsuli-Əkrəm salavatullaha əvvəlcədən məlum imiş.

İndi İmam Hüseynin (ə) dözümünü son həddə çatdıran susuzluğa da, onları mühasirəyə alıb bu susuzluqdan nə vaxt məhv olacaqlarını gözləyən 22 minlik Yezid qoşununa da qalib gəlmək üçün bir silahı vardı: Səbr və İbadət. «Tanrıya yalnız ona saysız-hesabsız ibadət etməklə qovuşmaq olar». Bu fikir onun amalı idi. Bu fikir ona atası Əliyyəl-Mürtəzadan (ə) miras qalmışdı. Həzrət Əliyyəl-Mürtəza (ə) yalnız ibadət zamanı vəcdə gələr, maddi dünyadan ayrılar, özünü Allah dərgahında hiss edərdi. Belə məqamlarda o, ətrafındakı danışıqları da eşitməz, qarşısından keçənləri də görməz, hətta vücudundakı ağrılarını da unudardı. İndi İmam Hüseyn (ə) də başına gələn bu bəlalara səbrlə dözür, dua və zikrlərlə Tanrı dərgahına üz tuturdu. Ancaq artıq onun səbr kasası daşmaqdaydı. Susuzluq bir insan kimi onun bütün vücudunu oda yaxırdı. Ciyəri elə bil dəmirçi kürəsi kimi od püskürürdü. O hiss edirdi ki, bu atəşə yalnız inam və etiqadı hesabına dözür.

İmam Hüseyn (ə) ayağa qalxıb özünü döyüşə hazırlayanda Əhli-beyt xanılmlarının qəm və ələm süzülən baxışları ilə qarşılaşdı. Bütün əzablara mətanətlə dözmüş və indən belə dözəcək Həzrət Zeynəbin gücü zərif və taqətsiz əlləri ilə İmam Hüseynin polad zirehə bürünmüş qoluna toxunmağa çatdı. Son qüvvəsini toplayıb qardaşını döyüşdən çəkindirmək istədi. Ancaq bunu bacarmadığını görəndə iniltili bir səslə nalə çəkdi, fəğan elədi.

Son dəfə döyüşə gedəcəyini hiss edən vəfalı Zülcənah susuzluğuna, yorğunluğuna baxmayaraq, vüqarlı bir görkəmdə sahibi İmam Hüseyni (ə) gözləyirdi.

İmam Hüseyn (ə) atası Əliyyəl-Mürtəzanın (ə) Zülfüqarını belinə bağlayıb, əmisi Həmzənin zirehini çiyninə atıb ata yaxınlaşanda xeymədən Əhli-beyt xanımlarının çığırtısını eşidib geri döndü. Xeymənin qapısı ağzında qızı Səkinəni pəjmürdəhal görüb xəstə oğlu Zeynalabdinə (ə) nəsə olduğunu zəni etdi. Özünü xeyməyə atanda Əhli-beyt xanımlarının Əli-Əsğərin başı üzərində dayandıqlarını gördü. Susuzluqdan taqəti qalmamış südəmər körpə artıq canını tapşırmaq üzrə idi. İmam Hüseyn (ə) hiss etdi ki, bu mənzərəni kənardan seyr etdikcə başı hərlənir, ayaq üstə dayana bilmir. Dünya gözündə qaranlıqlaşır, zülmətə dönür. O, körpə balasını xilas etmək üçün qeyri-ixtiyari irəli yeriyib onu qolları arasına aldı. Daha dayanmaq olmazdı. Həzrət İmamın səbr kasası daşmışdı. O, Əli-Əsqəri götürüb xeymədən çıxdı. Sürətli və sərt addımlarla döyüş meydanına tərəf irəlilədi. Əhli-beyt xanımlarının əlləri Həzrət İmamın arxasınca uzalı qaldı. İmam Hüseyn (ə) qumluqda çətinliklə irəliləyir, vücudunu əyib körpəni günəşin yandırıcı şüasından qorumağa çalışırdı.

İmam Hüseyn (ə) döyüş meydanında idi. Ancaq onun əlində qılınc və nizə deyil, südəmər oğlu Əli-Əsğər idi.

Ömər ibn Səd də, Şimr də, başqa sərkərdə və əsgərlər də İmam Hüseynin (ə) bu qeyri-adi gəlişini seyr edir, son məqamda onun nə edəcəyini gözləyirdilər.

- Bəlkə qurtaraq məsələni. Əmr et qoşuna, oxa tutsunlar onu! - deyə Şimr dilləndi.

Ömər ibn Sədin sərt baxışları ilə rastlaşsa da, sözünü dəyişmək əvəzinə daha da qızışaraq dedi:

- Ya Ömər, səni xəbərdar edirəm. Ağlın o birilərinə getməsin, bu Hüseyn ibn Əli ibn Əbu Talibdir. Yenə bir bəlağətli nitq başlasa əsgərləri fikrindən daşındıra bilər. İmkan vermə ona danışmağa. Oxçulara denən kamanlarını çəksinlər. Bu işin axırı yaxşı görünmür - Şimr Ömər ibn Sədin susub ilan kimi fısıldadığını, danışmaq əvəzinə üzünün, alnının tərini sildiyini görüb özü kaman və oxunu çıxartdı.

Şimrin bu hərəkətinə dözməyən Ömər ibn Səd nəhayət ki, dilləndi:

- Əl saxla, ey Şimr. Beyətin vaxtı yaxınlaşır. İmam Hüseyn (ə) qoşunla müqabil bir məsafədə dayanıb uca və yanıqlı bir səslə qoşuna xitabən buyurdu:

- Ey zalımlar, ey Kufə və Şamın dindən dönən, Allahı və onun Rəsulunu danan, peyğəmbər övladlarının qanına susayan bədbəxt insanları. Tutalım ki, mən günahkaram, mən sizinlə dava edirəm, mən Yezidi tanımıram, bəs bu körpə uşağın günahı nədir? Heç olmasa bu südəmər körpəyə bir içim su verin. Əgər bu körpə olmasaydı mən sizdən heç nə iltimas etməzdim. Allaha inanırsınızsa, onun rəsulunu tanıyırsınızsa bu peyğəmbər övladını xilas edin.

Ata məhəbbəti, övlad yanğısı İmam Hüseynin (ə) iradəsinə qalib gəlmək üzrəydi. Körpə Əli-Əsgər onu düşməndən iltimas etməyə gətirmişdi.

İmam Hüseyn (ə) bir müddət qarşısındakı adamlardan heç bir cavab gəlmədiyini görəndə üzünü göyə tutdu. Pıçıltı ilə «Ya Rəbbim, bağışla məni. Körpə Əli-Əsqərə görə gəldim düşmən ayağına. Sən bilən məsləhətdir. Sən hər şeyə

qadirsən. Sən hər şeydən uca və böyüksən. Sənə inanıram ya Rəbbim, sənə sığınıram, ya Rəbbim» dedi.

Niqabını üzünə çəkib Ömər ibn Sədin əmriylə İmam Hüseynin (ə) lap yaxınlığına gələn bir sərkərdə olduqca sərt, əsəbi bir halda dedi:

- Ey Hüseyn, Yer üzünün imamı, Əmirəl-möminin Yezid ibn Müaviyyəyə beyət etməyincə sənə və övladlarına, Əhli-beytə bir qətrə belə su verməyəcəyik. İbn Ziyadın və Yezid ibn Müaviyyənin hökmləri dəyişməzdir.

Naməlum sərkərdə sanki danışmır, hökm oxuyurdu. Əli-Əsğərin ölüm hökmünü. Onun dilindən çıxan beyət sözü İmam Hüseynin (ə) sinəsinə elə bil çalın-çarpaz dağ çəkdi. Bu anda onunçün oğlu Əli-Əsğər nə qədər aziz idisə, beyət sözü də ona bir o qədər yad idi. Həzrət İmam istədi bir də qoşuna üz tutub iltimas eləsin, şam kimi sönməkdə olan körpə oğlunu həyata qaytarmaq üçün atalıq borcunu yerinə yetirərək bir içim su istəsin. Ancaq yenə beyət sözünü eşidəcəyindən ehtiyat edib dinmədi. Körpə oğlunu sinəsinə sıxıb onun gül çöhrəsini göz yaşlarına qərq etdi. Elə bu dəm Şimrin əmri ilə ox atanlar İmam Hüseynin (ə) üstünə oxu yağış kimi səpələdilər. Atılan oxlardan biri Əli-Əsğərin boğazına batıb, İmam Hüseynin (ə) qoluna sancıldı. İmam Hüseyn (ə) çətinliklə də olsa oxu çıxardanda Əli-Əsğərin bu dünyaya əbədi göz yumduğunu gördü. Var səsi ilə qışqırıb günahsız övladını köksünə sıxdı. Sonra yenidən Əli-Əsğəri əllərində yuxarı qaldırdı. Bütün vücudu qan içində olan körpə al bayrağa bənzəyirdi. İmam üzünü düşmən qoşununa tərəf tutdu:

- Budur Yezidin hakimiyyəti. Budur sizin dindarlığınız, budur sizin hünəriniz... deyib şəhid olmuş körpə oğlunu xeyməgaha gətirdi.

***

Zeynalabdin bütün gücünü toplayıb ayağa qalxdı. Artıq möcüzə baş vermişdi. Gözə görünməyən ilahi qüvvə onun taqətsiz vücudunu hərəkətə gətirmişdi. O, indi ölümlə əlbəyaxa deyildi. Daxilində bir həyat eşqi qaynayırdı.

Əli-Əsğərin ölümündən məyus olan Əhli-beyt qadınları tamamilə əllərini üzdükləri Zeynalabdinin birdən-birə yataqdan qalxmasını görəndə salavat çevirib dua etdilər.

İmam Hüseyn (ə) isə bu möcüzədən heyrətlənmədi. O bu hadisəni gözləyirdi. Artıq o indiyə kimi gizli saxladığı imamlıq sirrini oğlu Zeynalabdinə aça bilərdi. Ulu Tanrı yeni imamlığa Zeynalabdini layiq bilirmiş. Bundan sonra heç bir qüvvə Zeynalabdini bu canişinlikdən məhrum edə bilməzdi. Buna nə Yezidin, nə ibn Ziyadın gücü çatardı.

Zeynalabdinin (ə) yataqdan qalxan kimi öz silah-sursatını istəməsi İmam Hüseyni (ə) qəhərləndirdi. O, oğluna yaxın gələrək əlləri ilə onun zəif çiyinlərindən tutdu.

- Dayan oğlum. Bu döyüş sənin döyüşün deyil. Yetmiş iki nəfər şəhidimiz öz vəzifəsini yerinə yetirdi. Sənin başqa vəzifən var. Döyuşdən daha çətin, daha şərəfli bir vəzifə, - deyə İmam Hüseyn (ə) kədərli-kədərli dilləndi. Sonra Zeynalabdini (ə) etiraz etmək istədiyini görüb sözünə əlavə etdi: - Bu mənim yox, Allahın əmridir. Böyük Yaradan belə məsləhət bilib.

İmam Hüseyn (ə) sözünə ara verib Əhli-beyt xanımlarına onları bir müddət təklikdə buraxmalarını rica etdi.

Ata-oğul təklikdə qaldılar. Onların söhbəti elə bir məqama yetişməkdə idi ki, danışdıqları sözləri onlardan başqa bir insan eşitməməli idi.

- Mən sənə indi elə bir sirr açacam ki, onu bu həyatda səndən başqa heç kim bilməyib və bilməyəcəkdir. Bu imamlıq sirridir. Bu sirri baban Rəsulullaha (s) Cəbrayıl əleyhisalam müəyyən şərtlərlə açıb. Rəsulullah (s) da Allahın rəhmətinə qovuşanda son nəfəsdə Əliyyəl-Mürtəzaya deyib. Ondan da əmin İmam Həsən qəbul edib. Onun da vəsihi mən olmuşam. İndi növbə sənindir. Peyğəmbər övladı kimi məndən sonra bu sirrin daşıyıcısı sənsən. Qəbul et məndən bu ilahi sirləri, əziz oğlum. Bu sirrin içərisində sənin öz həyatın da, səndən sonra gələn vəsihlərin həyatı da göstərilib. Bu sirri qəbul etmək üçün gərək bütün ağrı-acılara, əzab və işgəncələrə dözməyi bacarasan. Mən başımıza gələn bu müsibətləri İmamlıq sirlərini qəbul edən gündən bilirdim. Ancaq onları açıb faş etməyə ixtiyarım yox idi. İndi mən ömrümün son anlarını yaşayıram. Həyat sənindir mənim oğlum. Bütün peyğəmbər övladları səndən artıb törəyəcək, yer üzünə səpələnəcəklər. Öz saflığı və paklığı ilə qanlarının təmizliyi ilə seçiləcək sənin övladların Ali bir qanın daşıyıcıları olacaqlar.

Təklikdə olmalarına baxmayaraq, ata və oğulu onların özündən başqa bir kimsə eşitmirdi. Bu ilahi məqamda onların heç birinin nə susuzluğu, nə də yorğunluğu hiss olundu. Xeymədə qəribə bir ab-hava var idi. Bu elə məqam

idi ki, pıçıltı ilə danışıdan sözlər vasitəsi ilə Tanrı nuru bir vücuddan başqa bir vücuda keçirdi.

İmam Hüseyn (ə) bir şeyə tam əmin olduğundan rahat idi. Allahın əmriylə baba və atasının yaratdığı din nəinki bundan sonra yaşayacaq, daha da çiçəklənəcək, pöhrələr verəcək, öz nurunu bütün yer üzünə yayacaqdı.

***

Səmada göz göynədici günəş şüalarından başqa heç nə görünmürdü. Göy qübbəsinə qalxdıqca böyüyüb iriləşən günəş az qala bütün səmanı tutmuşdu. Adama elə gəlirdi ki, o bir daha çəkilib getməyəcək, əksinə, ağır-ağır Kərbəla düzünə enib hər şeyi yandırıb kül edəcəkdir.

Havadan tüküpərdici qan qoxusu gəlirdi. Bu qoxuya gələn yırtıcı səhra quşları yenə səmada ağır-ağır süzürdü.

- Gör neçə məğrur dayanıb. Bütün qohum-əqrəbasını, qardaşlarını, oğlanlarını qırğına verib, amma yenə sarsılmayıb, - deyə Ömər ibn Səd Şimrə baxaraq dilləndi.

Bütün baş verənlərə öz daşlaşmış ürəyi ilə adi bir hadisə kimi baxan Şimr Ömər ibn Sədi yenə sancmaq, dolamaq məqsədi ilə istehza ilə cavab verdi:

- Ya Ömər, yoxsa qibtə edirsən Hüseynin bu qüruruna.

Qəlbinə azacıq rəhm işığı düşən Ömər ibn Səd Şimrin cavabından qəzəblənərək dedi:

- Ey Şimr, onu bil ki, təkcə mən yox, vaxt gələcək bütün müsəlmanlar qibtə edəcək, həsəd aparacaq Hüseynin bu qüruruna. Biz dünya malına aldanıb özümüzü bədbəxt etdik. Hüseyn isə qürurunu sındırmadı, özünə əbədi bir səadət qazandı. Biz əbləhlər onu məhv etmək əvəzinə öz əllərimizlə

daha yüksəklərə qaldırdıq. Susuzluqdan yandıra-yandıra, bütün qohum-əqrəbasını qılıncdan keçirə-keçirə onu ucaltdıq.

- Ya Ömər, Rey və Təbəristan yaxşıdır, yoxsa bu odlu səhrada susuzluqdan yana-yana özünü də, nəslini də itirmək?

Şimr Ömər ibn Sədin elə zəif damarına toxunmuşdu ki, onun geriləməyə yolu yox idi. Bir anın içindəcə yenə Rey və Təbəristana hakimlik etmək arzusu Ömər ibn Sədi təzədən quduzlaşdırırdı. «Bu qoca köpək mənim hisslərimlə oynayır. Rey və Təbəristanın hakimliyinə etiraz etməyimi öz dilimdən eşitmək istəyir. Ay sən ölsən, sənin kimi tülkülər mənim kimi canavarın heç həndəvərinə də yaxın düşə bilməz» - deyə Ömər ibn Səd öz-özünə düşündü. Sonra üzünü sərkərdələrə tərəf tutub uca səslə bağırdı:

- Daha Hüseyndən beyət gözləmək də mənasızdır. Qoşunu hərəkətə gətirib mühasirəyə alın onu. Xeymələri dağıdın. Nə varsa hamısını qırın, çatın.

Sərkərdələrdən kimsə dilləndi:

- Ya Ömər, Hüseyn ibn Əli sözlü adama oxşayır. Bəlkə, nəsə deyəcək. Bəlkə, Yezidə beyət edəcək.

- Lazım deyil onun beyəti də, sözü də. Hücum! - deyə Ömər ibn Səd yenidən bağırdı.

Bütün qoşunun üstünə Hüseyn (ə) qəlbləri şər və pisliklə dolu olan bu adamlar arasında yaşamağın mənasız olduğunu bir daha dərk etdi. «Bu dünya ləyaqətli adamlara yaddır» - deyə fikirləşdi. Həşarat kimi üstünə gəlib daraşmaq istəyən insan sifətli bu şər məxluqlardan özünü qorumaq üçün qılıncını sıyırdı. Sonra üzünü səmanın ənginliyinə tutub babasının, atasının, anasının və qardaşının ali məkanını axtardı. O əbədi məkanın artıq yolları

görünürdü. O məkan bir müqəddəs kimi İmam Hüseyni (ə) də qəbul etmək üçün ağuşunu açmışdı.

Elə bu dəm heç kimin gözləmədiyi və hamını vahiməyə salan dəhşətli bir toz burulğanı qopdu. Bu burulqanın vıyıltısı Yezid əsgərlərinin ayaqlarını yerə mıxladı. Hamının gözü qabağında fırlanıb vıyıltı qoparan bu toz burulğanı İmam Hüseynin (ə) qarşısında dayanıb heybətli bir fiqur şəklinə düşdü.

- Lazım deyil, ey pak məxluq. Mən Allah əmrinə qarşı çıxa bilmərəm, - deyən İmam Hüseyn (ə) qarşısında burum-burum burulub ikiqat təzim edən burulqana xitabən əlavə etdi: - Yox, indi mən Ulu Tanrıdan yanız cəddimə daha tez qovuşmağımı rica edə bilərəm. Bu əzab və işgəncələr mənim taleyimdir, qismətimdir, alın yazımdır. Ondan qaçmaq olmaz. Bu məqamı mən öz razılığımla qəbul etmişəm.

İmam Hüseynin (ə) qılıncı qınına qoyub bu toz burulğanı ilə söhbət etməsi hamını dəhşətə saldı. İmam Hüseyn (ə) nə danışırdı, bu burulğan niyə onun atının qarşısında ikiqat olmuşdu. Heç kim heç nə başa düşmədi.

Şimr qoşunun bu hadisədən vahimələndiyini görüb bağıraraq əsgərləri hücuma səslədi.

Artıq burulğan çəkilib getmişdi. İmam Hüseyn (ə) üzünü qoşuna tərəf tutaraq uca səslə dilləndi:

- Gəlin, gəlin ey peyğəmbər övladlarının qatilləri. Gəlin, sizinlə mən Hüseyn ibn Əliyyəl-Mürtəza tək vuruşacağam. Çünki siz yolunuzu azıbsınız, dindən çıxıbsınız. Əgər istəsəydim, bir az əvvəl bütün mələkləri, cinləri və pəriləri köməyə çağırardım. Ancaq istəmədim. Peyğəmbər övladlarına bir içim su qıymayanlara mən nə arzulaya bilərəm. Gəlin, məni də öldürün. Və bilin ki, məndən sonra

artıq sizin bir adam öldürməyə qüdrətiniz çatmayacaq. Çünki sizin özünüzü də ölüm gözləyir. Məni siz susuz yandırırsınız. O dünyada sizi cəhənnəmin alovları bürüyəcək. Siz mənim qürurumu qırmaq istəyirsiniz. Allah sizin belinizi sındıracaq. Siz ynim dostlarımı, qohumlarımı, qardaşlarımı, övladlarımı qətlə yetirdiniz. Allah sizin nəslinizi yer üzündən kəsəcək. Mənim intiqamımı Allah özü alacaq sizdən.

- Qoymayın onu danışmağa, - deyə Şimr sərkərdələrin üstünə bağırdı. Sonra üzünü oxatanlara tutaraq, - Nə durmusunuz, yağdırın oxları. - dedi:

- Bir anın içindəcə İmam Hüseynin (ə) üzərinə ox yağışı yağdı. Qeyzlənmiş Həzrət qılıncını çəkib qoşunun üstünə yeridi. İldırım sürəti ilə oxçuların üzərinə şığıyan Zülcənah onları ayaqları altına saldı. İmam Hüseyn (ə) atını bir də cövlan etdirib mühasirəni yarmaq üçün əlverişli yer axtardı. Bu dəmdə düşmən əsgərlərinin xeymələrə hücum etdiyini görüb özünü ora çatdırdı.

***

İmam Hüseynin (ə) əynindəki zirehi parça-parça olmuşdu. Bədəninə sancılmış yox idi. Yaralarından axan qan bütün vücudunu oxların sayı-hesabı al rəngə boyamışdı. Alnındakı yaraların qanı isə dən düşmüş saqqalını qıp-qırmızı etmişdi. O, ağır-ağır nəfəs alır, getdikcə dizlərinin taqətdən düşdüyünü, qollarının boşaldığını duyurdu. Ömər ibn Sədin, Şimrin, Sinan ibn Ənəsin bağırtısı bütün səhranı başına götürmüşdü. Onlar əsgərləri İmam Hüseynin (ə)

üstünə yeriməyə qızışdırır, uzaqdan onu oxa tutmağı əmr edirdilər.

İmam Hüseyn (ə) qumluqda ağır-ağır yerində fırlanır, üstünə yağan ox və nizələrdən özünü müdafiə etməyə çalışırdı. Bu cansıxıçı döyüşdən, bir də onu yandırıb-yaxan susuzluq atəşindən yaxa qurtarmaq üçün öz əbədi məkanına getməyə tələsirdi. Ana hələ canı üstündəydi. Nəfəsi ağır-ağır olsa da gedib-gəlirdi. Beyni işləyir, gözləri görür, qulaqları eşidirdi. Nəfəsi sıxıldıqca göz işlədikcə uzanan səhra da gözündə kiçilirdi. Ətrafında dolaşan düşmən əsgərləri eybəcər həşəratlara bənzəyirdi. Ancaq nədənsə beş-altı addımlıqda dayanan bu zəhərli ilan və əqrəblər onu sancmağa tələsmirdilər.

İmam Hüseyn (ə) gücü nəyə çatmışdısa etmişdi. Bir dəfə o mühasirəni yarıb özünü Fərata çatdırsa da, su içməmiş, xeymələrə hücum edildiyini eşidib yenidən geri qayıtmışdı. Bu dəfəki mühasirədən çıxmaq isə qeyri-mümkün idi.

Ömər ibn Sədin və Şimrin qışqırıb əmr etməsinə baxmayaraq, əsgərlərdən heç kim yaxına gedib bu müqəddəs insanı qətlə yetirərək günaha batmaq istəmirdi.

Birdən İmam Hüseynin (ə) gözlərinin nuru azaldı. Göy üzü başına fırlandı. Huşunu itirdi.

- Nə durmusunuz, kəsin başını!

İmam Hüseynin (ə) qulaqlarında ildırım kimi çaxan bu səs onu ayıltdı. Qumun üstünə yıxıldığını görub istədi qılıncına söykənib ayağa qalxsın. Ancaq onun nə qollarında, nə də ayaqlarında taqət var idi. Gücü yalnız hər iki əliylə qumu ovuclayıb sıxmağa çatdı. Dişləri kilidləndiyindən, susuzluqdan çadar-çadar olmuş dodaqları bir-birinə

yapışdığından danışa da bilmədi. İndi o, yalnız düşünürdü. Öz fikirləriylə, düşüncələriylə din düşmənləri ilə vuruşurdu. Həzrət göz gəzdirib ətrafında daş kimi yerindəcə qalıb süst halda onun hərəkətlərinə göz qoyan əsgərlərə baxdı: «Bədbəxtlər, tamaşa edin mənim bu halıma. Baxın doyunca. Görün və dərs alın. Əqidə yolunda, din yolunda ölməyi öyrənin. Amma çətin öyrənəsiniz. Çünki sizin qəlb gözünüz kordur. Bu dünya elə siz düşündüyünüz kimidir. Sizin qarnınız boydadır. Mən gedirəm. Qalın öz dünyanızla baş-başa. Allah da şahiddir ki, mən sizi düz yola gətirmək üçün çox çalışdım. Ancaq haqq divanına gəlmədiniz. Tanrı dərgahında cavab verərsiniz. Mən ki, sizi belə görürəm, çıxacaqsınız bu dünyanın axırına. Xeyri qoyub şərə getdiyiniz üçün, haqqı və dini dandığınız, peyğəmbər övladlarına zülm etdiyiniz üçün Allah başınıza od yağdıracaq. Öz əməllərinizlə qiyamət gününü yaxınlaşdıracaqsınız. Siz Allah nurunu öz qaranlıq niyyətinizlə bu dünyadan silmək istəyirsiniz. Ancaq bacarmayacaqsınız. Peyğəmbər nəslinin kökünü kəsməyə də gücünüz çatmayacaq. Mənim ölümüm hələ bu nəslin axırı deyil. Biz Allah nurunun daşıyıçıları - peyğəmbər övladları - törəyib artacaq, çoxalacağıq. Yer üzündə yaxşılığın itməsinə, nurun, ziyanın azalmasına imkan verməyəcəyik. Məni öldürsəniz də, mənim vəsihimə gücünüz çatmayacaq. O, artıq Böyük Yaradanın nəzarəti altındadır. O, yaşayacaq, mənim ruhum onda və ondan törənən bütün peyğəmbər nəslində təcəllə edəcək».

Başına dəyən daş zərbəsi İmam Hüseyni (ə) son düşüncələrdən ayırdı. Gözünü açıb əlindəki qılıncla sinəsini yaran adamı başdan-ayağa süzdü. «Yox, bu o deyil. Mən

bunun əlində öləsi deyiləm. Bu işi törətməyə daha rəzil, daha şərəfsiz adam gərək olacaq» - deyə İmam Hüseyn (ə) üzünü yana çevirib göz qapaqlarını endirdi. Son məqamı gözləməyə başladı. İndi o, öz doğmalarına daha tez qovuşmaq üçün Allaha dua edirdi: «Qurtar məni ya Rəbbim, bu həşəratların əlindən, qurtar...»

Şimr Ömər ibn Sədin də, Sinan ibn Ənəsin də, Şibli ibn Yezidin də İmam Hüseynə (ə) yaxınlaşıb sonra nədənsə geri qayıtdıqlarını görəndə atdan düşdü.

- Qorxaqlar, ağciyərlər. Bu ölünün nəyindən qorxursunuz, - deyə qumluqda çətinliklə yeriyərək İmam Hüseynə (ə) tərəf gəldi.

Xeymələrdən hay-qışqırıq, şivən səsləri gəlirdi. Əhli-beyt xanımları qarətçi əsgərlərə müqavimət göstərir, Zeynalabdini onlardan qoruyurdular.

Yaralanıb al-qan içərisində olan Zülcənah sahibini itirdiyindən səhranın ənginliklərinə doğru gücü gəldikcə qaçırdı.

İmam Hüseyn (ə) sinəsində bir zindan ağırlığı hiss edib gözlərini yenidən açdı. Sinəsinə çökmüş əli qılınclı, əcaib sifətli adama diqqətlə baxdı. Dişləri dodaqlarının arasından çıxan bu bədheybət sifətli adamı - Şimri tanıdı. Babası Rəsulullahın (s) qəbrini ziyarət edərkən yuxuda gözünə görünən elə Şimr imiş.

İmam Hüseyn (ə) baxışlarını ondan ayırıb səmaya tuşladı: «Yuxuda mənə deyilən vaxtdır» - deyə düşündü. Bir də səmaya baxanda qəfildən yadına düşdü ki, indi həm də namaz vaxtıdır. Bütün gücünü toplayıb dişlərinin kilidini açdı.

O, yenə var-gücünü toplayıb dikəlməyə çalışdı. Özünün də gözləmədiyi halda qollarına taqət gəldi. Başını qaldırıb dikəldi.

Kənardan bu mənzərəni seyr edən əsgərlər «Bismillah!..» deyib bir neçə addım geri çəkildilər. Rəsulullahın (s) adını çəkib salavat çevirdilər. Ancaq bu salavat heç də onları düçar olduqları günah və cəzadan xilas etməyəcəkdi.

İmam Hüseyn (ə) son duaları edərkən boğazında günəşin hərarətindən qızmış qılıncın istisini hiss etdi. Tez kəlmeyi-şəhadətini söylədi. İndi artıq o, heç nə görmür və eşitmirdi. Nəfəsi də gedib-gəlmirdi. Ancaq beyni işləyirdi. Fikrində yanan işıq hələ sönməmişdi. Qarşıda bir zülmət qaranlıq və bu qaranlığın o başında isə nurlu bir yol görünürdü. İmam Hüseyn (ə) indi bu qaranlıqdan işığa doğru uçurdu. Beynindəki işıq sönən kimi onun üçün nurlu bir yol başlayacaqdı. Artıq o Həmin yolun astanasında idi...

MİR CƏFƏRİ

# KƏRBƏLA

Bakı - «Sabah» - 2001

Kompüter tərtibi: **Ə.Kərimov**

Bədii redaktor: N.F.Məmmədli
Redaktor müavini: İ.L.Zeynalov
Texniki redaktor: S.İsmayılova:
Korrektorlar: N.Babayeva, Səbinə.

Yığılmağa verilmiş 22.01. 2001.
Çapa imzalanmış: 20.03.2001.
Fiziki çap vərəqi 10. Uçot nəşr vərəqi 10.
Şərti çap vərəqi 10,2. Qarnituru tayms.
Sifariş № 71. Ofset kağızı.
Kağız formatı 84x108 1/32. Tiraj 1000.
Qiyməti müqavilə ilə.
Kitab «Nurlan» nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı 48, Qaraçuxur qəs. Qumluq küç. 69.
Direktor: N.B.Məmmədli.
Tel.: 25-67-72; 8-50-311-41-89.